

# Azərbaycanda koronavirusun "Britaniya ştammı" aşkarlandı

*Azərbaycanda koronavirusun "Britaniya ştammı"nın aşkar edildiyi rəsmi olaraq açıqlanıb. Məlumata görə, Milli Hematologiya və Transfuziologiya Mərkəzinin Genetik Diaqnoz Mərkəzində "Sars Cov-2" genom analizi edilən üç nümunədə 501Y.V1, B.1.1.7 (Britaniya variantı) aşkarlanıb. Dünyanın 70-dən çox ölkəsində yayılan "Britaniya ştammı" nədir və onun koronavirusun "original" variantından fərqi nədədir?*

Səh.3



# Emin Əmrullayevin çətin sınağı...

UNİKAL

№11 (2049) 19 mart 2021-ci il

Qiyməti 40 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.org unikal-1@mail.ru

Səh.2



# Prezident 625 nəfərlə bağlı əfv sərəncamı imzaladı

## DİM ölkədə dərslik probleminin hələ də aktual olduğunu ortaya qoydu, bəs Təhsil Nazirliyi bu haqda nə düşünür?

*Ötən həftə yerli KİV-ə belə bir xəbər düşdü: "Dövlət İmtahan Mərkəzində (DİM) respublikanın ümumtəhsil müəssisələrində qüvvədə olan 5-11-ci sinif "Russkiy əzık", "Literatura" və "Fizika" dərsliklərinin elmi-metodiki monitorinqi aparılıb. DİM-dən verilən məlumata görə, 10 mart 2021-ci il tarixində fənlər üzrə işçi qrupları tərəfindən dərsliklər məzmun, dil və yazı üslubu, dizayn və bədii tərtibat, tapşırıqların məzmuna uyğunluğu baxımından müzakirə edilib. Müzakirələr nəticəsində dərsliklərlə bağlı qeyd və təkliflər bildirilib. Fənlər üzrə işçi qrupları tərəfindən dərsliklərdəki mübahisəli məqamlar, üst-üstə düşməyən faktlar, səhvlər və uyğunsuzluqlar barədə tövsiyələrin hazırlanması, onların test bankının təkmilləşdirilməsində və yeni tapşırıqların tərtibində nəzərə alınması haqqında qərar qəbul edilib".*

Səh.12

## "Qarabağda antiterror addımları atmaq üçün əsaslarımız var"



*44 günlük Vətən Müharibəsi Azərbaycanın qələbəsi ilə nəticələnsə də, cəmiyyətdə narahatlıq hələ də davam edir. Xüsusən də Azərbaycanın tam nəzarətində olmayan, sülhməramlı qüvvələrin yerləşdiyi ərazilərlə bağlı müəmmalı vəziyyət birmənalı qarşılanmır. Rəsmi Bakı Azərbaycanın ərazi bütövlüyünün...*

Səh.4

## Dağlıq Qarabağ həqiqətləri dünyanın gözü önündə



*Dağlıq Qarabağ həqiqətlərinin dünyaya çatdırılması işi Azərbaycanın haqq savaşında zəfər çalmasından sonra da davam edir. Bu günlərdə bir qrup media nümayəndələri və siyasi partiya rəhbərlərinin işğaldan azad olunmuş torpaqlarımıza səfəri təşkil olundu. Ekspertlər bu cür səfərlərin Dağlıq Qarabağ...*

Səh.9

## Abel Məhərrəmov üçün "Səlim Müslümov ssenarisi"...



*Azərbaycanda vəzifədə olarkən haqlarında çoxsaylı korrupsiya iddiaları və ittihamları dolaşan eks məmurların qanunsuz əməlləri ilə bağlı araşdırmalar davam edir. Sabiq Əmək və Əhalinin sosial müdafiəsi naziri Səlim Müslümovun ardından Naxçıvan Muxtar respublikasının iki keçmiş nazirinin...*

Səh.5

# Toy qadağan edilsə də, onlar toysuz qalmadı

***Bir ilə yaxındır ki, pandemiya səbəbindən toy, digər el şənlikləri, böyük tədbirlərin keçirilməsinə qadağa qoyulub. Sənət adamları bu müddət ərzində həm maddi sıxıntı yaşadıqlarını, həm də səhnə üçün darıxdıqlarını dəfələrlə açıqlayıblar. Son bir neçə aydır ki, şou-biznes nümayəndələri Rusiyaya üz tutmağa başlayıblar. Kimisi toy aparmağa, kimisi də konsert etməyə yollanıb. Hətta bəzi ifaçılar aylardır köçüb orada yaşayırlar.***



"Unikal" axşam.az-a istinadən bildirir ki, toysuz qalmayan tanınmışların siyahısını təqdim edir: Əməkdar artist Könül Kərimova Rusiyaya həm toy, həm də konsert üçün gedib.

Müğənni hətta Novruz bayramı münasibətilə Moskvada restoranlardan birində keçiriləcək konsertə qatılacaq.

Müğənni Fədayə Laçın bir ildən çoxdur Rusiyadadır. İfaçı orada həm toylara, həm də konsertlərə qatılır. Fədayə pandemiyada maddi sıxıntı çəkməməmik üçün orada qalmaq qərarı verdiyini bir neçə dəfə açıqlayıb.

Müğənni Şəbnəm Tovuzlu bir neçə ay əvvəl konsert üçün Rusiyaya yollanmışdı. Sənətçi həm ziyarət, həm ticarət deyib, toy dəvətlərini də qəbul edib. Ötən həftə Bakıya qayıdan Şəbnəm yenidən Rusiyaya üz tutub. Müğənni açıqlamalarından birində ilk səfərində yüz minə yaxın pul qazandığını söyləmişdi. O, banka olan 48 min borcunu da bağladığını bildirib.

Müğənni Zenfira İbrahimova da artıq 6 aydan çoxdur ki, Rusiyaya gedib. Sənətçi orada konsertlərə qatılmasa da, hər gün toy məclislərində yer alır.

Əməkdar artist Mətanət İsgəndərli də bir neçə aydır Rusiyadadır. Oraya konsert üçün gedən müğənni daha sonra toy məclislərinə qatılıb. İfaçı həmçinin orada Novruz bayramı ilə bağlı restoranlarda keçirilən şou-proqramlara da qatılıb.

Aparıcı Sərxan Kərəmoğlu da işsizlikdən Rusiyaya üz tutub. O, yaratdığı "Qayınana" qrupu ilə toylara, konsertlərə qatılır. Sərxan məclislərə daha çox aparıcı kimi yox, müğənni kimi gedir.

Müğənni Tacir Şahmalıoğlu övladı Şahmalı ilə birlikdə Sankt-Peterburqa yollanıb. O bildirib ki, dostları ona orada iş təklif ediblər. Tacir də təklifi qəbul edib və işləmək üçün oraya üz tutub.

Müğənni Aqşin Fateh də Rusiyaya toya dəvət alanlar sırasında yer alıb. Sənətçi bir neçə dəfə bunun üçün Moskvaya gedib.

# "Qızımı öyrədirlər ki, polisə denən məni anam döyüb" - Mətanət



***Xəbər verdiyimiz kimi, Əməkdar artist Mətanət İsgəndərlinin gəlini Canana onun və oğlu Kərimin haqqında qalmaqallı açıqlama verib.***

"Unikal" axşam.az-a istinadən bildirir ki, həyat yoldaşından ayrılan Canana qızının əri tərəfindən döyüldüyünü sübut edən fotolar yayımlayıb və özünün də dəfələrlə şiddət gördüyünü açıqlayıb. Bundan sonra Kərimlə bağlı polis araşdırmaya başlayıb.

Canana Axşam.az-a açıqlamasında aradırmanın davam etdiyini bildirib. O deyib ki, M.İsgəndərli və Kərim hələ də Rusiyadadır, övladlarına heç bir maddi dəstək göstərmir: "Polis idarəsinə çağırıldım, qızımdan da, məndən də ifadə alındı. Ekspertizaya göndərilib. Mətanət xanım və Kərim bu hadisədən sonra başlayıblar qızıma tez-tez zəng edib danışmağa. Ona oyuncaqlar alıb, mənə qarşı çıxmağı öyrədirlər. Qızıma deyirlər ki, polisə denən məni atam yox, anam döyüb. Boşanma davamız bitməyib. Amma məhkəmə aliment kəsib. Kərim onu da ödəmir. Uşaqlara heç bir maddi yardım da göstərilmir. Yenə kirayədə qalıram, təkbaşıma uşaqlara baxmağa çalışıram".

Qeyd edək ki, Kərim və Cananın üç övladı var. Ərindən ayrılan Canana kirayədə yaşadığını, M.İsgəndərlinin onu evinə buraxmadığını və kirayə pulunu da ödəmədiklərini iddia edib.



# Baloğlan Əşrəfov bir ildən sonra efirdə

***Əməkdar artist Baloğlan Əşrəfov 1 il fasilədən sonra efirə çıxıb.***

"Unikal" axşam.az-a istinadən bildirir ki, müğənni "Xəbərətər" proqramına qonaq olub. O, səhnəyə çıxmama səbəbini açıqlamaqdan imtina edib: "Müxtəlif səbəblərdən bir ildir efirə çıxmıram. Müharibə dövründə vətənpərvər mahnılar oxudular. Mənim imkanım yoxdur oxumağa".

Verdiyi konsertlərdən söz açan Əşrəfov bunları söyləyib: "Azərbaycanda mənim kimi ikinci bir konsert verən olmayıb. Gedib yoxlasınlar, məndən çox konsert verən varsa, musiqi ilə vidalaşacam".

# Xalq artisti oğluna nişan etdi

***Xalq artisti Simarə İmanova 19 yaşlı oğlu Məhəmmədi evləndirir.***

"Unikal" axşam.az-a istinadən bildirir ki, xanəndə bir neçə gün öncə oğluna nişan edib. Muğam ifaçısı bildirib ki, oğlu uzaq qohumu ilə ailə qurur.

Qeyd edək ki, S.İmanova 2001-ci ildə Mikayıl Rüstəmov adlı şəxslə ailə qurub. Onun oğlundan savayı Çinarə adlı qızı da var.

# Komitə sədri Rusiya səfiri ilə görüşüb

***Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov Rusiya Federasiyasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Mixayıl Boçarnikovla görüşüb.***

"Unikal"xəbər verir ki, görüşdə "Rossotrudniçestvo" agentliyinin Azərbaycandakı nümayəndəliyinin - Bakıdakı Rusiya İnformasiya-Mədəniyyət Mərkəzinin (RİMM) rəhbəri Zinnurov İrek Xaydaroviç də iştirak edib.

Görüş zamanı Rusiyadakı Azərbaycan diasporunun mövcud vəziyyəti, Rusiyadakı Azərbaycan diaspor təşkilatlarının fəaliyyəti, cari planlar, ölkəmizdəki rus icmasının fəaliyyəti, eləcə də qarşılıqlı əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparılıb.

# Mikayıl Cabbarov İsrailə təşəkkür etdi

***Martın 17-də İsrail-Azərbaycan Ticarət və Sənaye Palatasının illik iclası keçirilib.***



İqtisadiyyat Nazirliyindən "Unikal"a verilən məlumata əsasən, biznes nümayəndələrinin də iştirak etdiyi tədbirdə çıxış edən İsrail-Azərbaycan Ticarət və Sənaye Palatasının prezidenti Aleks Kaplun Palatanın ötən ilki fəaliyyəti, İsrail dövləti və Azərbaycan Respublikası arasında ticarət, humanitar və digər sahələrdə əlaqələrin inkişafına yönəlik tədbirləri, 2021-ci ilə dair planları barədə məlumat verib.

Azərbaycan Respublikası Hökuməti ilə İsrail Dövləti Hökuməti arasında Birgə Komissiyanın həmsədri, İqtisadiyyat naziri Mikayıl Cabbarov Palatanın fəaliyyətini yüksək qiymətləndirib.

Qeyd edilib ki, İsrail-Azərbaycan Ticarət və Sənaye Palatası ölkələrimiz arasında iqtisadi əlaqələrin inkişafı, eləcə də dövlət-özəl işgüzar dialoqun təşviqi üçün əhəmiyyətli platformadır.

Son iki ildə Palatanın aktiv fəaliyyətini vurğulayan nazir qurumun biznes dairələri arasında əlaqələri dərinləşdirməyə istiqamətlənmiş bir sıra təşəbbüslər irəli sürdüyünü bildirib. Mikayıl Cabbarov 44 günlük Vətən müharibəsi dövründə Azərbaycanın haqq işinə göstərdiyi dəstəyə, humanitar səylərə, həmçinin müharibədə ağır yaralanan əsgər və mülki şəxslərə yardım göstərmək üçün İsrailin böyük tibbi heyətinin Azərbaycana gəlməsinə görə İsrail tərəfinə təşəkkür edib.

M.Cabbarov pandemiya səbəbindən ikitərəfli ticarət əlaqələrində müəyyən geriləmənin olmasına baxmayaraq, iqtisadiyyatın müxtəlif sahələrində qarşılıqlı əməkdaşlığın gücləndirilməsi istiqamətində fəaliyyətin davam etdirildiyini vurğulayıb.

Nazir azad edilmiş ərazilərimizin bərpası prosesində əməkdaşlıq, postpandemiya dövründə aparılacaq iqtisadi islahatların istiqamətləri barədə fikirlərini bölüşüb.

İclasda qeyd edilib ki, İsrail şirkətləri informasiya texnologiyaları, kənd təsərrüfatı, su sektorunun idarəedilməsi və səhiyyə sahələrinə böyük maraq göstərir. Bu sahələrdə əməkdaşlıq üçün böyük potensial olduğu və fəal dialoq aparıldığı vurğulanıb.

Tədbirdə İsrailin Azərbaycandakı səfiri Corc Dik çıxış edərək ölkələrimiz arasında yüksək siyasi və iqtisadi əlaqələri vurğulayıb, Palatanın əməkdaşlığın dərinləşdirilməsinə mühüm töhfə verdiyini qeyd edib.

Sonra İsrail Xarici İşlər Nazirliyinin Asiya və MDB ölkələri ilə iqtisadi əməkdaşlıq departamentinin direktoru Mixail Lotem "İsrail-Azərbaycan iqtisadi münasibətləri və postpandemiya dövründə yeni imkanlar" mövzusunda təqdimatla çıxış edib.

İclasda İsrail-Azərbaycan iqtisadi-ticarət əlaqələrinin inkişafı barədə müzakirələr aparılıb.

# Emin Əmrullayevin çətin sınağı...

## DİM ölkədə dərslik probleminin hələ də aktual olduğunu ortaya qoydu, bəs Təhsil Nazirliyi bu haqda nə düşünür?

***Ötən həftə yerli KİV-ə belə bir xəbər düşdü: "Dövlət İmtahan Mərkəzində (DİM) respublikanın ümumtəhsil müəssisələrində qüvvədə olan 5-11-ci sinif "Russkiy əzık", "Literatura" və "Fizika" dərsliklərinin elmi-metodiki monitorinqi aparılıb.***

DİM-dən verilən məlumata görə, 10 mart 2021-ci il tarixində fənlər üzrə işçi qrupları tərəfindən dərsliklər məzmun, dil və yazı üslubu, dizayn və bədii tərtibat, tapşırıqların məzmuna uyğunluğu baxımından müzakirə edilib. Müzakirələr nəticəsində dərsliklərlə bağlı qeyd və təkliflər bildirilib. Fənlər üzrə işçi qrupları tərəfindən dərsliklərdəki mübahisəli məqamlar, üst-üstə düşməyən faktlar, səhvlər və uyğunsuzluqlar barədə tövsiyələrin hazırlanması, onların test bankının təkmilləşdirilməsində və yeni tapşırıqların tərtibində nəzərə alınması haqqında qərar qəbul edilib". Bu xəbər gündəmi zəbt edən daha aktual mövzular içində itbata düşdü. Halbuki DİM-in daha üç dərslikdə nöqsanlar aşkarlaması kifayət qədər önəmli məsələdir.



Xatırlatdığımız xəbərdən aydın görünür ki, Azərbaycanda dərsliklərin səviyyəsi bir çox məqamlarda hələ də aktuallığını qoruyur. Sözügedən xəbərdən eyni zamanda bir daha aydın oldu ki, ölkəmizdə istər forma, istərsə də məzmun baxımından yüksək standartlı dərsliklərə ehtiyac var. Ekspertlərin fikrincə isə, belə dərsliklər yalnız və yalnız müəllif rəqabətini təmin etməklə ortaya çıxa bilər. Dərsliklər üzərində ənənəvi monopoliya davam edəcəyi təqdirdə, keyfiyyətli dərs vəsaitlərinin çıxarılması təəssüf ki, çətin görünür. Düzdür, Təhsil Nazirliyi rəsmiləri belə bir monopoliyanın varlığını inadla inkar edirlər. Lakin cəmiyyətin fikri tamam başqadır.

Bu gün ölkədə dərsliklərin sadəcə və birbaşa Təhsil Nazirliyinin özü tərəfindən sifariş edilməsi, üstəlik, adətən, eyni şəxslər tərəfindən yazılması müstəqil ekspertlər tərəfindən daim tənqidlə qarşılanır, inhisarçılıq kimi qiymətləndirilir. Müxtəlif vaxtlarda sözügedən mövzu ilə bağlı danışarkən dəfələrlə, dönə-dönə, hər dəfə bir az da uca səslə vurğuladığımız kimi, mükəmməl təhsil mükəmməl dərsliklər olmadan reallaşa bilməz. Bu mənada dərsliklərə bütün dünya ölkələrində xüsusi məsuliyyət və həssaslıqla yanaşılır.

Ekspertlərin müxtəlif vaxtlardakı dəyərləndirmələrindən aydın olur ki, məsələn, ABŞ-da dərsliklərin hazırlanmasında bir çox dövlət strukturları və nüfuzlu təşkilatlarla yanaşı (hər bir ştatın təhsil nazirliyi, Qubernatorların Milli Assosiasiyası, ABŞ Baş Məmurlar Şurası), ictimaiyyət də (məsələn, uşaqların valideynləri, yaxud ictimai hərəkatların - feminist, ekoloji və s.- nümayəndələri) fəal iştirak edir. Burada dərslik üzərində konkret olaraq heç bir qurumun monopoliya yaratmasına icazə verilmir və cəmiyyətin dərsliklər üzərində nəzarətinə şərait yaradılır.

Cənubi Koreyada isə Təhsil Nazirliyi özü bu işi icra etməkdən imtina edib. Onu universitet müəllim və professorlarının, məktəb müəllimlərinin və ictimaiyyət nümayəndələrinin cəlb edilməsi yolu ilə elmi-tədqiqat institutları həyata keçirirlər. Bu ölkədə də məktəblərdəki bilik səviyyəsi, şagirdlərə aşılanan vərdiş və qabiliyyətlər daimi ictimai nəzarət altında saxlanılır.

Bir sözlə, mütəxəssislərin vurğuladığı kimi, dünyanın heç bir ölkəsində dərslik konkret olaraq hansısa qurumun monopoliyası altında deyil.Lakin Azərbaycanda dərslik məsələsinə fərqli prizmadan yanaşılır. Bu sahədə monopolist əhval ruhiyyə hökm sürür. Düzdür, əvvəlki illərlə müqayisədə həmin meyllər zəifləyib. Bununla belə, dərslik məsələsini sadəcə Təhsil Nazirliyinin üzərinə götürməsi, dərsliklərin sağlam rəqabət nəticəsində deyil, bəlli şəxslər tərəfindən yazılması tənqid mövzusu olaraq qalır. Odur ki, adıçəkilən nazirlik dərsliklərdə dəyişikliklərlə bərabər dərsliklərin hazırlanması ilə bağlı ənənəvi yanaşmada da dəyişikliklər barədə düşünməlidir.

Belədə dərsliklərin istər forma, istərsə də məzmun baxımından keyfiyyəti ətrafında mütəmadi qalmaqallara son qoyular, bir sözlə, mükəmməl təhsilin nüvəsini təşkil edən mükəmməl dərsliklər ərsəyə gələr. Elə DİM-in ötən həftə üç dərsliklə bağlı iradları da yuxarıda yazdıqlarımızın dolayı yolla isbatı sayıla bilər. Təhsil naziri Emin Əmirullayev bu vəzifəyə təyin olunarkən əksəriyyət ümid edirdi ki, dərsliklərin keyfiyyəti ilə bağlı illərdir davam edən narahatlıqlar və narazılıqlar nəhayət ki, aradan qalxacaq. Açığı, həmin ümidlər qalmaqda davam edir. Gözlənti ondan ibarətdir ki, Emin müəllim yaxın müddətdə problemin köklü həlli istiqamətində güzəştsiz addımlar atacaq. Bu artıq qaçılmaz tələb, vazkeçilməz zərurətdir. DİM-in üç dərsliklə bağlı ötən həftəki xəbəri yuxarıda yazdıqlarımızın təsdiqidir.

İnanırıq ki, E.Əmrullayev və komandası qarşıdakı dövrdə sözügedən problemin istər şagird və müəllimlərin, istərsə də ümumilikdə cəmiyyətin gündəmindən çıxarmaq üçün təsirli addımlar atacaq. Əks halda haqqında danışılan problem böyüməkdə davam edəcək, ən əsası isə cəmiyyətin məsələ ilə bağlı haqlı iradlarını, tənqidlərini daha da dərinləşdirəcək. Bunun əziyyətini çəkən isə ilk növbədə hörmətli Təhsil naziri və ətrafı olacaq...

Xatırlatması bizdən, nəticə çıxarması məsul şəxslərdən!

***Toğrul Əliyev***

# ABŞ-la Rusiya arasındakı "soyuq savaş" regionumuza təhlükə yaradır

***ABŞ Prezidenti Co Bayden ABC telekanalına müsahibəsində rusiyalı həmkarı Vladimir Putini "qatil" adlandırıb. O, Putinin Amerikada keçirilən son prezident seçkisinə müdaxiləsinə görə cavab verəcəyini deyib.***

Bundan sonra Rusiyanın Vaşinqtondakı səfiri Anatoli Antonov məsləhətləşmələr üçün Moskvaya çağırılıb. Görünən odur ki, onsuz da sıcaq olmayan münasibətlər daha da pisləşəcək.

Rusiya tərəfi Putini "qatil" adlandıran Co Baydenə cavab verib. Putinin mətbuat xidmətinin rəhbəri Dmitri Peskov ABŞ prezidentinin dediyi sözləri qəbuledilməz adlandırıb: "Mən bu sözlərə reaksiya verərkən çox söz demək istəməzdim. Bu ABŞ prezidentinin çox xoşagəlməz sözləridir. O birmənalı olaraq ölkəmizlə münasibətləri nizamlamaqda maraqlı deyil. Belə şey tarixdə olmayıb".





**Məhəmməd Əsədullazadə: "Rusiyaya qarşı sanksiyalar davamlı olacaqsa, Vaşinqton israrlı şəkildə buna gedəcəksə, Moskvanı Qarabğdan çıxara biləcəyik"**



**Elxan Şahinoğlu: "Kreml sahibi həmişəki kimi soyuqqanlığını qorumağa çalışacaq və Baydenlə kəllə-kəlləyə gəlməyəcək"**

Ağ Evin mətbuat katibi Jen Psaki ABŞ Prezidenti Co Baydenin rusiyalı həmkarı Vladimir Putin haqda söylədiyi sözlərin məcazi olub-olmadığı barədə suala cavab verməkdən imtina edib. O, bununla bağlı əlavə şərhinin olmadığını bildirib. "Əlavə edəcək bir şeyim yoxdur", - Psaki Baydenin sözlərinin metafora olub-olmadığı soruşulduqda deyib. O əlavə edib ki, Bayden əvvəllər də Rusiya rəhbərliyi ilə birbaşa təmaslarda, ya da ictimaiyyət qarşısındakı çıxışlarında mövqeyini qəti şəkildi bildirb, geri çəkilməyəcəyini söyləyib.

Məsələylə bağlı fikirlərini "Unikal"la bölüşən MCP sədrinin müavini, politoloq Məhəmməd Əsədullazadə deyib ki, ABŞ və Rusiya arasında soyuq müharibənin yeni mərhələsinə başlanıldı. Onun sözlərinə görə, Prezident C.Baydenin V.Putini "qatil" adlandırması, iki ölkə arasında münasibətlərin kəskinləşməsinə, xüsusilə Vaşinqtonun Moskvaya qarşı Yaxın Şərqdə, Şərqi Avropada və Cənubi Qafqazda təzyiqlərinə gətirib çıxaracaq: "Bundan əlavə, yeni sanksiyaların tətbiqi, Putinin ətrafına "Maqnisti aktının" tətbiq edilməsi ilə nəticələnəcək. Rusiya daxilində demokratik prosesə dəstək veriləcək. Bir sözlə, Rusiyanı çətin bir dönəm gözləyir. Vaşinqtonun bu siyasətinə NATO, Avropa İttifaqı və Böyük Britaniyada dəstək verəcək. Məhz Londonda xarici strategiyasında Moskvanı "düşmən" elan edib. Prezident C.Bayden Moskvaya iqtisadi sanksiyalarla yanaşı, Suriyada Əsəd qüvvələrinə zərbələr endirməklə Suriyada mövcud vəziyyəti kəskinləsdirməsi mümkündür. Həmçinin Ukraynanın şərqində müharibəni separatçılara qarşı müharibənin başlanmasına rəvac verməsi gözlənilir. Artıq Moskva Vaşinqtondakı səfirini məsləhətləşmək üçün geri çağırıb. Qeyd edim ki, Baydenin anti - Rusiya siyasətinə əsas verən səbəblər bəziləri- ABŞ Milli Kəşfiyyat Direktorunun ofisi Moskvanın Donald Trampın yenidən seçilməsinə kömək etmək, Baydeni nüfuzdan salmaq və Amerika cəmiyyətinə ayrı-seçkilik cəhdində günahlandırıldığı elan etmişdi. Bu əməliyyatların "bir qrup Rusiya hökumət təşkilatı" tərəfindən həyata keçirildiyi qeyd edilir".

Politoloq hesab edir ki, iki nəhəng ölkənin yeni siyasi-iqtisadi və hərbi müstəvidə mübarizəsi ABŞ-ın bəynəlxalq mövqeyini gücləndirəcək və bir qütüblü dünya sistemi planını reallaşdıracaq: "Moskvaya qarşı bu təzyiqlər Putinin reytinqinə mənfi təsir edəcək. Rusiya siyasi elitasında parçalanmaya gətirib çıxara bilər. İki ölkənin mübarizəsi regionumuza təsir etməsi qaçılmaz olacaq. Məhz Ermənistanın ABŞ -ın başçılığı ilə Qara dənizdə Rusiyaya qarşı NATO təlimlərində iştirakı bunu göstərir. Rusiyanın beynəlxalq nüfuzunun zəifləməsi və daxili siyasi problemlərə yuvarlanması regionda Türkiyə və Azərbaycanın mövqeyini gücləndirəcək. Qarabağda Rusiyaya qarşı Türkiyə əlavə təzyiq rıçaqları əldə etməsi mümkündür. Ankara və Bakı Moskvadan beş ildən sonra öz "sülhməramlı" missiyasından kənara çıxdığı üçün çıxarılmasını tələb edəcək. Əgər, Rusiyaya qarşı sanksiyalar davamlı olacaqsa, Vaşinqton israrlı şəkildə buna gedəcəksə, Moskvanı Qarabğdan çıxara biləcəyik. ABŞ -da Rusiyanın Cənubi Qafqazda, həmçinin Qarabağda "sülhməramlı" fəaliyyətinə son verilməsində maraqlıdır. Azərbaycan iki böyük ölkənin mübarizəsində heç birinin yanında durmamalı və Ankara ilə birgə hərəkət etməlidir".

Politoloq Elxan Şahin oğlu isə Rusiyanın reaksiyasının maraqlı olacağını deyir: "Nəhayət uzun aradan sonra ABŞ prezidenti Co Bayden Ağ Evdə ilk müsahibəsini verdi. Ağ Ev sahibi "ABC" kanalına verdiyi müsahibədə Rusiya prezidenti Vladimir Putini qatil adlandırdı. Bayden bunun ardınca dedi ki, Amerika kəşfiyyatının ona təqdim etdiyi hesabata görə Putinin əmri ilə Rusiyanın müvafiq strukturları ABŞ-da ötən il keçirilən prezident seçkisinə müdaxilə ediblər. "Buna görə Putin cavab verəcək" deyən Bayden Rusiyaya qarşı hansı addımların atılacağını konkretləşdirməyib. Aydındır ki, söhbət Rusiyaya qarşı növbəti sanksiyalardan gedir.

Başqa bir dövlətin, özəlliklə də Rusiyanın lideri üçün "qatil" ifadəsinin işlənməsi ağır gəlir. Görəsən, Putinin buna cavabı nə olacaq? Kreml sahibi həmişəki kimi soyuqqanlığını qorumağa çalışacaq və Baydenlə kəllə-kəllə gəlməyəcək. Ancaq Putin mahir siyasətçi və hiyləgər kəşfiyyatçıdır. O komandasına Amerika əleyhinə çalışmalara davam etməyi əmr verəcək. Putinin Trampla dostluğuna mane oldular, Bayden isə bəri başdan deyir ki, "Kreml sahibi mənim düşmənimdir". Ona görə Putinin Baydenlə düşmənçiliyi davam etdirməkdən başqa alternativi yoxdur".

***Z.Məmmədli***

# Şeyx Novruz bayramı münasibətilə xalqı təbrik etdi



***Şeyxülislam Allahşükür Paşazadə Novruz bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib.***

"Unikal" təbrik mətnini təqdim edir: "Bismilla-hir-rəhmanir-rəhim! Möhtərəm həmvətənlər, əziz qardaş və bacılar!

Xalqımızın qədim və gözəl bahar bayramı, yeni günün və yenidən dirçəlişin timsalı olan Novruz münasibətilə sizi ürəkdən təbrik edir, hamınıza Allah-taaladan səadət və rifah, xeyirli və bərəkətli ömür arzulayıram. Bu ilki Novruzumuz özəl abu-havası olan bayramdır, çünki onun gəlişi 30 illik Qarabağ həsrətinin sonu, illər boyu etdiyimiz duaların qəbul olduğunu bildirən Zəfər müjdəsidir. Artıq neçə müddətdir ki, xalqımız öz tarixinin ən möhtəşəm bayram sevincini - Vətən müharibəsindəki Qələbənin qürurunu yaşayır. 44 gün davam edən savaş Ermənistanın məğlubiyyəti ilə Azərbaycan ordusunun şanlı zəfəri kimi tarixə yazıldı. Qəhrəman Azərbaycan əsgəri işğaldan azad olmuş ərazilərdə Ulu Öndər Heydər Əliyevin "Dövlətçiliyimizin və müstəqilliyimizin əbədi rəmzi" adlandırdığı üçrəngli bayrağını qaldırdı. Azərbaycanın ayrılmaz hissəsi olan bu torpaqlarda dövlət bayrağının dalğalanması, Şuşa və Ağdam məscidlərinin minarələrindən azan səslərinin ucalması tarixi ədalətin bərpası anlamını verir və bu mübarək günləri bizə, bütün xalqımıza yaşatdığı üçün Uca Yaradana və dövlətimizə sonsuz həmd-sənalar edirik!

Biz fəxr edirik ki, bu Qələbənin müəllifi və sərkərdəsi Azərbaycan xalqının böyük oğlu, adı tarixin qızıl səhifəsinə yazılan Zati-aliləri Ali Baş komandan İlham Əliyev cənablarıdır. Vətən müharibəsi ərzində onun liderlik əzmi, qətiyyətli siyasəti, mərdliyi, cəsarəti hər kəsə - ordumuzun əsgərinə, xalqımızın övladlarına, dinindən və millətindən asılı olmayaraq ölkəmizin bütün vətəndaşlarına unudulmaz anlar yaşatdı, dünya ictimaiyyəti Azərbaycanın siyasi liderinin qüdrətinin və ölkəmizdəki sarsılmaz xalq-dövlət birliyinin şahidi oldu.

Həmçinin Birinci vitse-prezident Mehriban xanım Əliyevanın bu gərgin və məsuliyyətli dövr ərzində yerinə yetirdiyi siyasi, ictimai və mədəni missiyanı tarixi fenomen adlandırmaq olar. Şəhid və qazi ailələrinə, yaralı hərbçilərə göstərilən nəcib şəfqətli münasibət, maddi-mənəvi dəstək, sosial yardım proqramlarına rəhbərlik - bunların hamısı bir Azərbaycan xanımının dünyaya bəyan etdiyi yüksək mədəniyyətin və Vətən övladlarına olan ana məhəbbətinin nümunəsidir. Mehriban xanım Əliyevanın timsalında biz Azərbaycanın bugününün və sabahının təminatçısı olan möhtərəm Prezidentimiz Zati-aliləri İlham Əliyevin fədakar yardımçısını və etibarlı silahdaşını görürük. Novruz adətlərimizə uyğun olaraq, dindarlarımız adından mən bu əziz bayram günlərində Azərbaycanın əzəli torpaqları olan Qarabağın və İslam dünyasının mədəniyyət beşiyi Şuşanın işğaldan azad olunması münasibətilə Zati-aliləri İlham Əliyevi və Birinci vitse-prezident Mehriban xanım Əliyevanı səmimi qəlbdən təbrik edir, dövlətimiz naminə gördükləri fövqəladə fəaliyyətlərə Allahdan xeyir-dualar diləyirəm.

Bu ilin təqviminə görə, Azərbaycanın üfüqi vaxtı ilə 20 mart tarixində, saat 13.37.20-də il Öküz bürcü üzərində təhvil olacaqdır. İl təhvili günorta zöhr namazından sonraya təsadüf etdiyi üçün, bu il bayram axşamı martın 20-də, mübarək Novruz bayramı isə martın 21-də qeyd olunacaqdır. İnşallah, bundan sonra Novruzu artıq doğma Qarabağda qarşılayacaq, illərin acısını tonqallarda yandırıb, arzularımızı səməni kimi göyərdəcəyik. Novruz bayramımız mübarək olsun!".

# İlham Əliyev "Azərxalça"ya yeni rəhbər təyin etdi

***Emin Səlhab oğlu Məmmədov "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri təyin edilib.***

Unikal.org-un xəbərinə görə, bununla bağlı Prezident İlham Əliyev sərəncam imzalayıb.

# "Ermənistanın məsuliyyətsiz davranışı ciddi şəkildə pislənilməlidir" - Hikmət Hacıyev



***Ermənistan tərəfindən Azərbaycanın azad edilmiş torpaqlarına kütləvi şəkildə yerləşdirilən minalar mülki insanları öldürür, şikəst edir və iqtisadiyyata/ətraf mühitə zərər verir.***

Unikal.org xəbər verir ki, bu fikirləri Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev "Twitter" hesabında paylaşıb.

O bildirib ki, Ermənistan minalanmış ərazilərin dəqiq xəritələrini verməkdən imtina edir: "Ermənistanın məsuliyyətsiz davranışı ciddi şəkildə pislənilməlidir".

# Şəhid və qazi ailələrinin üzvlərinə Azərbaycan vətəndaşlığı verildi

***Prezident İlham Əliyevin Sərəncamı ilə Azərbaycan Respublikasının vətəndaşlığını qəbul etmək istədiyini bildirən 20 nəfər Vətən müharibəsi iştirakçısı, şəhid və qazi ailələrinin yaxın üzvləri Azərbaycan Respublikasının vətəndaşlığına qəbul edilib.***

"Unikal" xəbər verir ki, bu barədə Dövlət Miqrasiya Xidmətinin rəisi Vüsal Hüseynov sosial şəbəkə hesabında məlumat yayıb.

O qeyd edib ki, Dövlət Miqrasiya Xidmətinin əməkdaşları Bakı, Masallı, Cəlilabad, Şəki, Qazax, Ağstafa, Gəncə, Goranboy və Mingəçevirdə vətəndaşlara müvafiq sənədləri yaşadıqları ünvanlarda təqdim edib: "Torpaqlarımızın azadlığı uğrunda canlarından keçmiş bütün Şəhidlərimizin əziz ruhuna dərin ehtiramımızı bildirir, qazilərimizə isə möhkəm can sağlığı arzu edirik".

# Prezident əfv sərəncamı imzaladı

## 475 məhkum azad edilib, 98 məhkumun cəzası azaldılıb

***Martın 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında" Sərəncam imzalayıb.***



"Unikal" xəbər verir ki, Sərəncamda məhkum olunmuş bir sıra şəxslərin, onların ailə üzvlərinin, insan hüquqlarının müdafiəsi təşkilatlarının Azərbaycan Respublikasının Prezidentinə ünvanlanmış əfv haqqında müraciətlərinə baxaraq, məhkumların şəxsiyyətini, səhhətini, ailə vəziyyətini, törətdikləri cinayətlərin xarakterini və ictimai təhlükəlilik dərəcəsini, cəza çəkdikləri müddəti və həmin müddətdə davranışlarını nəzərə alaraq, humanizm prinsiplərinə əsaslandığı qeyd edilib.

Sərəncama əsasən, azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuş 475 nəfər cəzasının çəkilməmiş hissəsindən azad edilib. Bundan başqa, azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş 98 nəfərin cəzasının çəkilməmiş hissəsi yarıyadək azaldılıb.

Ömürlük azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş üç nəfərin cəzası 25 il müddətə azadlıqdan məhrum etmə cəzası ilə əvəzlənib.

Eləcə də azadlıqdan məhrumetmə cəzasına şərti olaraq məhkum edilmiş iki nəfər cəzadan azad ediliblər.

Həmçinin azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş və cəzasının çəkilməsi təxirə salınmış üç nəfər cəzadan azad olunublar.

Azadlığın məhdudlaşdırılması cəzasına məhkum edilmiş 9 nəfər və islah işləri cəzasına məhkum olunmuş 12 nəfər cəzanın çəkilməmiş hissəsindən, cərimə cəzasına məhkum olunan 23 nəfər isə cəzadan azad ediliblər.

Əfv olunanlar arasında Azərbaycan Xalq Cəbhəsi Partiyasının (AXCP) Nərimanov rayon təşkilatının sədri Babək Həsənov və AXCP fəalı Məhəmməd İmanlı da var.

Bundan əlavə, əfv olunanlar arasında Azərbaycanın xalq artisti Nuriyyə Əhmədovanın keçmiş həyat yoldaşı Xanlar İbadovun evində Sabir Qurbanovu qətlə yetirən Maxrova Yelena Vyaçeslavovna da var.

"Azadlıq" qəzetinin həbsdə olan bölgə müxbiri Elçin İsmayıllı əfv olunub.O, Prezident İlham Əliyevin martın 18-də imzaladığı "Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında" sərəncamı ilə əfv edilib. Beləliklə, 1978-ci il təvəllüdlü E.İsmayıllı cəzasının çəkilməmiş hissəsindən azad edilib.

Qeyd edək ki, İsmayıllı Elçin Səməd oğlu Şəki Ağır Cinayətlər Məhkəməsinin 2017-ci il 18 sentyabr tarixli hökmü ilə 9 il müddətinə məhkum edilib. O, Cinayət Məcəlləsinin hədə-qorxu ilə tələb etmə və vəzifə səlahiyyətlərindən sui-istifadə maddələri ilə təqsirli sayılıb.

"Gəncə hadisələri"ndə təqsirli bilinən iki nəfər əfv edilib. Prezident İlham Əliyevin "Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında" sərəncamına əsasən Allahverdiyev Elvin Nəriman oğlu və Xudiyev Vüqar Mənsur oğlu cəzanın cəzanın çəkilməmiş hissəsindən azad edilirlər.

Şəmkirin keçmiş icra başçısı Aslan Aslanovun oğlu Ruslan Aslanovun qətlində təqsirləndirilən Vüqar Əliyevin ömürlük cəzası 25 ilə endirilib.

Ömürlük azadlıqdan məhrum etmə cəzasına məhkum edilən 3 nəfərin cəzası 25 il müddətə azadlıqdan məhrum etmə cəzası ilə əvəz olunub. Prezident İlham Əliyevin martın 18-də imzaladığı "Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında" sərəncamında aşağıdakı şəxslərin adları yer alıb:

Aslanov Azər Məhərrəm oğlu, 1972-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Ağır Cinayətlərə Dair İşlər üzrə Azərbaycan Respublikası Məhkəməsinin 2001-ci il 16 iyul tarixli hökmü ilə məhkum edilmişdir.

3.2. Əhmədov Araz Vidadi oğlu, 1974-cü ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Ağır Cinayətlərə Dair İşlər üzrə Azərbaycan Respublikası Məhkəməsinin 2005-ci il 7 sentyabr tarixli hökmü ilə məhkum edilmişdir.

3.3. Əliyev Vüqar İbrahim oğlu, 1981-ci İldə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı şəhəri Qaradağ Rayon Məhkəməsinin 2016-cı il 15 sentyabr tarixli hökmü ilə məhkum edilmişdir.

# X-XI siniflərdə əyani tədrisin bərpası ilə bağlı açıqlama

***"X-XI siniflərin açılması pandemiyadan asılıdır".***

Unikal.org xəbər verir ki, bu barədə təhsil naziri Emin Əmrullayev təhsilin keyfiyyətinə təsir edən amillərlə bağlı bu günlərdə keçirilən sorğunun nəticələri ilə bağlı danışarkən deyib. O qeyd edib ki, açılmalar üçün Novruz bayramından sonra rəqəmlərə baxılmalıdır:

"Biz istəyirik ki, hamı məktəbə getsin. Hər şey bizim davranışlarımızdan asılıdır. Novruz bayramından sonra rəqəmlərə baxmalıyıq. Operativ Qərargahın cavablarını gözləyin. Votsapda göndərilən şayiə xarakterli xəbərlərə inanmayın, rəsmi xəbərlər əsasında öz həyatınızı planlaşdırın".

# Tahir Budaqov Hande Harmancı ilə görüşüb

***Martın 18-də Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycan Respublikasındakı Nümayəndəliyinin rəhbəri xanım Fatoş Hande Harmancı ilə görüşüb.***



Unikal.org xəbər verir ki, görüşdə Dövlət Statistika Komitəsi ilə Ümumdünya Səhiyyə Təşkilatı arasında əməkdaşlığın inkişaf perspektivləri və qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Baş redaktor:
Zaur Əhməd

"Turanbank" ASC Binəqədi filialı.
h/h AZ74TURA41040011963500110944
M/h AZ26NAB01350100000000027944
Kod: 50462
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2500

# Məktəblərdə fevralın 1-dən koronavirusa yoluxanların sayı açıqlandı

***Fevralın 1-dən gündəlik əsasda Səhiyyə Nazirliyi, GEM-dəki həmkarlarla rəqəmləri izləyirik, bunun nə qədər kütləvi yoluxma yaratma riski qiymətləndirilir. Məktəbin daxilində kütləvi yoluxma olanda distant təhsilə keçir.***

Unikal.org-un məlumatına görə, bunu Təhsil naziri Emin Əmrullayev "Facebook" səhifəsindəki canlı yayımda bildirib.

Onun sözlərinə görə, fevralın 1-dən 164 ibtidai sinif şagirdi virusa yoluxub, bunların hamısı məktəbdə olub. Virusa yoluxanlardan 282-si V-IX sinif şagirdidir. Ümumi 714 işçi heyət virusa yoluxub. Ümumilikdə 626 sinif distant təhsilə keçib, onlardan 233-ü geri qayıdıb, 393 sinif hazırda distant təhsildədir, 48 məktəb distanta keçib, onların 41-i hazırda distantdadır, 7 məktəb

# "Qarabağda layihələrin prioritetliyi təhlil edilir" - Mikayıl Cabbarov



***"İşğaldan azad edilmiş ərazilərimizdə sahibkarlıq fəaliyyətinin və reallaşdırılacaq layihələrin dəstəklənməsi məqsədilə İqtisadiyyat Nazirliyinə 470-ə yaxın müraciət daxil olub".***

Unikal.org xəbər verir ki, bunu iqtisadiyyat naziri Mikayıl Cabbarov feysbukdakı hesabında bildirib.

Onun sözlərinə görə, layihələrin prioritetliyi təhlil edilir, potensial layihələr müəyyənləşdirilir.

# Azərbaycanda koronavirusun “Britaniya ştammı” aşkarlandı

## Daha yoluxucu və öldürücü: Dünyanı cənginə alan virusun Britaniya variantı nədir?

***Azərbaycanda koronavirusun ”Britaniya ştammı”nın aşkar edildiyi rəsmi olaraq açıqlanıb. Məlumata görə, Milli Hematologiya və Transfuziologiya Mərkəzinin Genetik Diaqnoz Mərkəzində “Sars Cov-2” genom analizi edilən üç nümunədə 501Y.V1, B.1.1.7 (Britaniya variantı) aşkarlanıb.***

Dünyanın 70-dən çox ölkəsində yayılan ”Britaniya ştammı” nədir və onun koronavirusun “original” variantından fərqi nədədir?

Məlumat üçün bildirək ki, yeni ştamm ilk dəfə 2020-ci ilin sentyabrında Britaniyanın Kent bölgəsində təsbit edilib. Lakin o zaman bu fakta ciddi əhəmiyyət verilməyib. Koronavirusun ”Britaniya ştammı” barədə yalnız iki aydan sonra - ötən ilin dekabrında ölkənin səhiyyə naziri Mett Henkon tərəfindən açıqlama verilib. Yeni ştammın digərlərindən daha yoluxucu olduğu bildirilib. Elm adamları COVID-19 virusunun mutasiya olunmuş növrünün əvvəlki variantlarından 64 faiz daha ölümcül olduğunu təsdiqləyiblər.

Yeni ştamm demək olar ki, Britaniyanın hər yerində yayılıb, bu da infeksiyaya yoluxma hallarının sayında kəskin artıma səbəb olub. Nəticədə hökumət bütün ölkə üzrə “kilidlənməyə” getməyə məcbur qalıb.

Britaniyada aparılmış sınaqlar göstərir ki, yeni ştamma yoluxanlar daha çox öskürək, yorğunluq, əzələ, bədən və boğaz ağrısından şikayət edirlər. Həmçinin, dadbilmə və qoxu hissini itirmək də virusun ilkin əlamətləri sırasındadır.

Britaniyalı virusoloq, professor Lourens Yanqın sözlərinə görə, yeni ştammda Uhanda təyin olunanla müqayisədə 23 dəyişiklik qeydə alınıb.




”Virusun quruluşundakı müəyyən dəyişikliklər bədənin immunitet reaksiyasına və infeksiyanın səbəb olduğu simptomlara təsir edə bilər. Yeni ştamma yoluxanların bədənlərində virus daha intensiv şəkildə çoxalır və bu da infeksiyanın bədənə daha geniş yayılmasına səbəb ola bilər. Bu, ehtimal ki, daha şiddətli öskürək, əzələ ağrısı və yorğunluqla əlaqələndirilir”, - professor deyib.

Britaniyanın “Ekseter” Universiteti tərəfindən aparılan araşdırmalar da təsdiqləyib ki, bu ştamm əvvəlkilərlə müqayisədə 64% daha çox ölümcüldür.

Tədqiqatçılar oktyabr-yanvar ayları arasında koronavirus diaqnozu qoyulan və 28 gün izlədikləri təqribən 55 min xəstənin məlumatlarını müqayisə ediblər. Yeni varianta yoluxanların ölüm ehtimalının 64%-dən yüksək olduğu ortaya çıxıb. Xüsusilə ölüm sayı 1000 yoluxma halına nisbətdə 2,5-dən 4,1-ə yüksəlib.

Tədqiqat iştirakçıları yaş, cins və etnik mənsubiyyət kimi bir neçə faktora görə uyğunlaşdırılıb.

“Reading” Universitetinin professoru Simon Klark virusun bu növünün sürətlə yayılması və yüksək ölüm nisbətinin sağlamlıq sistemlərinə ciddi problem yaratdığını etiraf edib.

Son günlər ”Britaniya ştammı”nın sürətlə yayılması və daha çox ölkəni əhatə etməsi müşahidə olunur.

Türkiyənin Hacettepe Universitetinin professoru Murad Akova hələ bir müddət əvvəl bildirmişdi ki, Avropa və ABŞ-da aparılan araşdırmaların nəticələrinə əsasən, martın ortalarından koronavirusun mutasiya olunmuş variantı, xüsusilə ”Britaniya ştammı” ön plana çıxacaq. Qarşıdakı mərhələdə aşkarlanan yoluxmaların yarısından çoxunun yeni ştammlara bağlı olacağı təxmin edilir.

Kütləvi peyvənd istehsalçılarının əksəriyyəti vaksinlərin ”Britaniya ştammı”na qarşı təsirli olduğunu bildirirlər, lakin Cənubi Afrika və digər variantlar da var ki, bunlar immunitet reaksiyasının inkişafı ilə bağlı narahatlıqlar yaradır.

Məlumata görə, dünyanın 70-dən çox ölkəsində ”Britaniya ştammı”na rast gəlinib. Artıq yeni ştammlar dünyada qapanmaları yenidən gündəmə gətirib. Xüsusi narahatlıq Fransada özünü göstərir. Bundan əlavə, B117 variantı İrlandiyada yoluxmaların 75, Portuqaliyada 45, Niderlandda 30%, Danimarkada 27% -ni təşkil edir.

Epidemioloqlar qeyd edirlər ki, peyvənd kampaniyası pandemiya ilə mübarizəyə böyük töhfə verir, lakin əhalinin immun təbəqəsi yaranana qədər profilaktik və məhdudlaşdırıcı tədbirlər unudulmamalıdır.

# Məktəblər yenidən bağlanır? - Nazirdən açıqlama

***Novruz bayramı günlərində - 9 gün ərzində yoluxma sayında olan dinamika məktəblərin fəaliyyətini şərtləndirən əsas amil olacaq.***

“Unikal”ın məlumatına görə, bunu təhsil naziri Emin Əmrullayev bildirib.

Nazirin sözlərinə görə, hazırda əyani tədris forması üzrə tədris davam etdirilir: “Nəticələrlə bağlı danışmaq tezdir. Amma görünən odur ki, bütün bunların tədrisin keyfiyyətinə



müsbət təsir etdiyini iddia etmək olmaz. Çalışmalıyıq ki, prosesə qısamüddətli baxmayaq. Bizə tez-tez sual verirlər ki, məktəblər yenidən bağlanacaqmı, distant təhsilə keçiləcəkmi? Qarşıdan Novruz bayramı gəlir. Novruz bayramı günlərində 9 gün ərzində olan dinamika məktəblərin fəaliyyətini şərtləndirən əsas amil olacaq. Bu mənada, vətəndaşlar vəziyyəti düzgün dərk edib daha ehtiyatlı davranmalıdırlar. Yoluxma sayının aşağı enməsi məktəbin fəaliyyətini davamlı saxlamağa imkan verəcək”.

# “30 il gözləyən vətəndaş bir il səbr edə bilmir?!” - DİN-dən açıqlama

***Dövlət orqanlarının, ictimaiyyət nümayəndələrinin işğaldan azad olunan ərazilərə təşkil edilən səfərləri zamanı təhlükəsizlik təmin olunduğu üçün bədbəxt hadisələr baş vermir.***



Unikal.org xəbər verir ki, bu sözləri DİN-in mətbuat xidmətinin kütləvi informasiya vasitələri və ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi, polis mayoru Elşad Hacıyev deyib.

O bildirib ki, insanlar bilməlidir ki, həmin ərazilərə bəlli marşrutlarla, müəyyən olunan təhlükəsiz yollarla getmək mümkündür:

“Ona görə də ərazidə təhlükəli vəziyyətin yaşanması yalnız mühafizəyə aid edilməməlidir. Minalanmış ərazilər qalmaqdadır. Hazırda hər kəs bu məsələdə diqqətli olmalıdır. Etinadsızlıq edərək, qanunsuz olaraq əraziyə daxil olan, xəsarət alan insanlar işğaldan azad edilən ərazilərdə infrastruktur bərpa edildikdən sonra rahat yox, əlil vəziyyətdə gəzəcəklər.

30 il gözləyən vətəndaş 3-5 ay, ya da bir il səbr edə bilmir?! Bütün bunlar yalnız və yalnız maarifləndirmə yolu ilə insanlara izah olunmalıdır. Onlar da bu qaydalara əməl etməlidirlər”.

# Nazir PUA-lara baxış keçirdi



***Martın 18-də Müdafiə naziri general-polkovnik Zakir Həsənov əsaslı təmirdən çıxan hərbi hissənin ərazisindəki Uçuşların idarəedilməsi məntəqəsi və pilotsuz uçuş aparatlarının (PUA) yerüstü idarəetmə stansiyasına da baxış keçirib.***

Bu barədə “Unikal”a Müdafiə Nazirliyindən məlumat verilib. Müdafiə nazirinə məruzə edilib ki, müasir avadanlıqlarla təchiz edilmiş idarəetmə məntəqəsi və yerüstü stansiya hərbi aviasiya vasitələrinin və PUA-ların uçuşlarının fasiləsiz və keyfiyyətli koordinasiyasını təmin edəcək.

Müdafiə naziri hərbi aviasiyanın imkanlarının daha da artırılması ilə əlaqədar komandanlığa müvafiq tapşırıqlar verib.

Qeyd edək ki, martın 18-də Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyinin digər rəhbər heyəti HHQ-nin yeni inşa edilmiş və əsaslı təmirdən çıxmış iki hərbi hissəsinin açılış mərasimində iştirak ediblər.

# DTX-də ştat sayının həddində dəyişiklik təsdiqlənib - FƏRMAN

***Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 yanvar tarixli 724 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası dövlət büdcəsinin vəsaiti hesabına saxlanılan Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin hərbi qulluqçularının və Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin sisteminə işə götürülən işçilərin ştat sayının həddi”ndə və “Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətində ali hərbi rütbəli vəzifələrin siyahısı”nda dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.***



Fərmanla Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 yanvar tarixli 724 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası dövlət büdcəsinin vəsaiti hesabına saxlanılan Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin hərbi qulluqçularının və Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin sisteminə işə götürülən işçilərin ştat sayının həddi”ndə və “Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətində ali hərbi rütbəli vəzifələrin siyahısı”nda dəyişikliklər təsdiq edilir.

Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etməlidir.

# Paşinyan seçkilərin tarixini açıqladı



***Ermənistan baş naziri Nikol Paşinyan erkən seçkilərin tarixini açıqlayıb.***

Unikal.org Ermənistan KİV-ə istinadən xəbər verir ki, Paşinyan bu barədə "Facebook" səhifəsində yazıb.

20 iyun 2021-ci ildə Ermənistanda növbədənkənar parlament seçkiləri keçiriləcək.

"Çiçəklənən Ermənistan Partiyasının lideri Qagik Tsarukyanla görüşüm biraz əvvəl baş tutdu. Görüş zamanı mövcud siyasi vəziyyətdən ən yaxşı çıxış yolunun erkən parlament seçkiləri olduğu qənaətinə gəldik. Prezident, "Mənim addımım" fraksiyası, İşıqlı Ermənistan Partiyasının lideri Edmon Marukyanla apardığım müzakirələri nəzərə alaraq, bu il iyunun 20-də respublikada növbədənkənar parlament seçkiləri keçiriləcək", - deyə Paşinyan qeyd edib.

# Rayonlara getmək istəyənlərə müraciət

***Daxili İşlər Nazirliyi (DİN) Baş Dövlət Yol Polisi İdarəsi (BDYPİ) Novruz bayramı ilə əlaqədar sürücülərə müraciət edib.***

BDYPİ-dən Unikal.org-a daxil olan müraciətdə deyilir:

"Novruz bayramı ilə əlaqədar 2021-ci il mart ayının 20-dən 29-dək qeyri-iş günü olması və ötən illərin təcrübəsi deməyə əsas verir ki, belə uzunmüddətli istirahət günlərində şəhər əhalisinin respublikanın müxtəlif regionlarına getmələri, rayonlardan isə kənd sakinlərinin paytaxta gəlmələri ilə bağlı bayram günlərində avtomobil yollarında nəqliyyatın hərəkət intensivliyi yüksəlir. Bununla yanaşı, bəzi sürücülərin tələskənliyi, mövcud hərəkət şəraitini və mövsümi hava şəraitini düzgün qiymətləndirmədən müəyyən edilmiş hərəkət sürətini aşmaları, ötmə və manevr etmə qaydalarını pozmaları yollarda qəzaların baş vermə ehtimalını artırır.

Eyni zamanda Azərbaycan Nazirlər Kabinetinin müvafiq qərarı ilə ölkənin şəhər və rayonlarından sərnişin daşımalarının dayandırılmasına baxmayaraq, bəzi fiziki və hüquqi şəxslərin, əsasən də "Mercedes-Benz Viano" və "Vito" markalı nəqliyyat vasitələri ilə bu fəaliyyətlə məşğul olması, həmçinin sürücülərin gün ərzində yuxu və istirahət rejiminə əməl etmədən yorğun formada uzun məsafəli yolu bir neçə dəfə gedib gəlməsi sonda ağır nəticəli yol-nəqliyyat hadisələrinin baş verməsinə səbəb olur.

Qeyd olunanları nəzərə alaraq, Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsi bütün hərəkət iştirakçılarına, xüsusilə sürücülərə yollarda diqqətli olmağı, sükan arxasına yorğun, yuxulu, dərman preparatlarının təsiri altında və ya sərxoş vəziyyətdə əyləşməməyi, yol hərəkəti qaydalarına ciddi riayət etməyi, yola çıxmazdan əvvəl nəqliyyat vasitəsinin texniki sazlığını yoxlamağı, piyadalara isə yolu yalnız onlar üçün müəyyən edilmiş yerlərdən keçməyi, valideynlərə azyaşlı uşaqları küçələrdə nəzarətsiz qoymamağı tövsiyə edir".

"Qəzaların qarşısının alınması, hərəkət iştirakçılarının təhlükəsizliyinin, onların rahat və fasiləsiz hərəkətinin təmin olunması, hər kəsin mənzil başına sağ-salamat çatması, eləcə də bayramın xoş əhval ruhiyyə ilə keçirilməsi üçün dövlət yol polisi əməkdaşları bu müddət ərzində gücləndirilmiş iş rejimində xidmət aparacaq, küçə və yollarda nəzarəti gücləndirəcək", - BDYPİ-dən bildirilib.

# "Qarabağda antiterror addımları atmaq üçün əsaslarımız var"

## Zəlimxan Məmmədli: "İnsanlarımıza, ərazimizə, tarixi abidələrimizə, el-obalarımıza qarşı həyata keçirilmiş soyqırımlar əsas verir ki, bunu edənləri cəhənnəmə qədər qovaq"

***44 günlük Vətən Müharibəsi Azərbaycanın qələbəsi ilə nəticələnsə də, cəmiyyətdə narahatlıq hələ də davam edir. Xüsusən də Azərbaycanın tam nəzarətində olmayan, sülhməramlı qüvvələrin yerləşdiyi ərazilərlə bağlı müəmmalı vəziyyət birmənalı qarşılanmır. Rəsmi Bakı Azərbaycanın ərazi bütövlüyünün təmin olunması ilə bağlı bəyanatlar versə də, əks mövqelər səsələndirənlər də var. Bu və ya digər məsələlərlə bağlı "Unikal" qəzetinə müsahibə verən Borçalı Cəmiyyətinin sədri, siyasi şərhçi Zəlimxan Məmmədli diqqətçəkən məqamlara toxunub.***



***-Zəlimxan bəy, Azərbaycan Vətən Müharibəsini qələbə ilə başa vursa da, Dağlıq Qarabağda erməni problemi hələ də qalır. Sizcə, bu məsələ necə həll olunmalıdır?***

-Mənim fikrimcə, Vətən müharibəsi tam qələbə ilə sonuclanmayıb. Fiziki olaraq uğurumuz olsa da, siyasi, strateji tərəfdən ciddi təhdid altına salınmışıq. İşğalçı qoşun Beynəlxalq statusu olmadan sülhməramlı kimi ölkəmizdədir. Siyasi- ideoloji hədəfləri keçən 4 ay ərzində düşmənimizi himayəyə və dövlətçiliyimizi təhdidə yönəlib. Azərbaycan siyasi hakimiyyəti milli iradənin ifadəçisi olmadığı üçün direniş göstərmək cəsarətində deyil. Bu problemin birdəfəlik həll yolu milli iradənin hakimiyyətə daşınmasından bilavasitə asılıdır. Digər bütün variantlarda uğursuzluq bizi təqib edəcək. Rusiya, Ermənistan və Azərbaycan arasında vasitəçilikdə qaldıqca bu problem həll olunmayacaq. Azərbaycan-Ermənistan birbaşa təmasları sülh sazişi yolunu açmaq üçün ən ideal, bu olmayacaqsa, Azərbayca-Türkiyə, Rusiya-Ermənistan formatı sülhə aparan optimal yol sayıla bilər. Sülh sazişi yoxdursa, deməli, problem qalır və qalacaq.

***-Cəmiyyət tərəfindən "terrorçu başı" Araik Artunyanın zərərsizləşdirilərək, həbs olunması təklifləri var. Bu yöndə hansı addımları atmaq olar?***

- Bu yöndə addım atmaq üçün radikal formada hakimiyyətdə yuva salan 5-ci kalon və erməniyanlılar radikal formada zərərsizləşməlidir. Əksər dövlət hakimiyyət orqanları təəssüf ki, yad ünsürlərlə doludur. Nicat xalqımızın cəsarətinə və onun içərisindən çıxmış milli siyasi qüvvələrin idrakına, bu reallaşarsa Türkiyənin himayəsinə birbaşa bağlıdır.

***-Sizcə, Qarabağda anti-terror əməliyyatları keçirilə bilərmi, keçirilərsə, Rusiya sülhməramlılarının reaksiyası necə olacaq?***

- Qarabağda antiterror addımları atmaq üçün bütün hüquqi, siyasi, mənəvi əsaslarımız var. İnsanlarımıza, ərazimizə, tarixi abidələrimizə, el-obalarımıza qarşı həyata keçirilmiş soyqırımlar əsas verir ki, bunu edənləri cəhənnəmə qədər qovaq. İdeoloji-siyasi işğal və hakim komandanın milli maraqları firqə maraqlarına qurban verməsi qarşımızda duran ən böyük maneədir. İndiki durumda tək çıxış yolu və səviyyəli əməliyyatlar keçirmək Prezidentin baş verənləri doğru dəyərləndirərək hakimiyyət-milli qüvvələr-xalq birliyini stimullaşdırmasından, reallaşmasından asılıdır. Bu ağrısız və az itkisiz yoldur. Bu dərk olunmazsa, milli qüvvələr - xalq və ordu vəhdəti aparıcı olacaq. Rusiyanın hoqqalarına qısıla-qısıla, "o böyükdür, biz balacayıq" təslimçi mövqeyi ilə yanaşacayıqsa uduzacağıq. Biz güclüyük və Rusiyanın ölkəmdə lotuluq etmə imkanlarının qarşısını bütün vasitələrlə almağa borcluyuq. Rusiyanı bizim onunla dirənişdən çəkinmədiyimizə inandırmalıyıq.

***-Son dövrlər hakimiyyətyönlü siyasilər, deputatlar belə bir əməliyyatın keçirilməsinin mümkünlüyünü və Rus qoşunlarının da buna mane olmayacağı ilə bağlı fikirlər səsləndirməkdədirlər. Necə düşünürsünüz, bu mövqedə olanlara haqq qazandırmaq olarmı?***

- Hakimiyyətdə, və hakim siyasi kursa dəstək verənlər arasında elə cəsarət sahibini tanımıram. Əgər deyən varsa, buna haqq edirlər. Rusiya Azərbaycanın suveren hüquqlarını pozur və bu milli mənafeyimizə təcavüzdür. Təəssüf ki, bu gün dirəniş üçün parlament, hökumət dayanıqlı deyil. İnformasiya təhlükəsizliyimiz zay durumdadır. Bu cəsarəti hakimiyyətə daşımaq üçün təcili Prezidentin rəhbərliyində milli etimad hökuməti yaradılmalı və təxirəsalmadan parlamentin buraxılması və demokratik yolla milli iradənin gücü ilə formalaşmış parlamentə ehtiyac var.

***-Belə bir situasiyada Türkiyə ilə müttəfiqliyimiz Azərbaycanın əlini hansı formada gücləndirəcək?***

- Türkiyə ilə inteqrasiyamızda ciddi tormozlanmanı müşahidə edirəm. Türkiyə ilə günü sabahdan təhlükəsizlik, müdafiə, strateji məsələlərlə bağlı ciddi müqavilələrə ehtiyac var. Türkiyə-Azərbaycan konfederasiyası tərəddüd etmədən siyasi gündəmə daşınmalıdır. Mövcud durumda Prezidenti tənha görürəm. Sadaladığım strukturlar dayanıqlı deyil. Prezident təxirəsalmadan hansı cinahdan olmasından asılı olmayaraq ağıllı təklifləri dəyərləndirməli, demokratiyaya açılımla bağlı yol xəritəsini müəyyənləşdirmək iradəsi göstərməlidir. Türkiyə bütün variantlarda Azərbaycanın yanında olduğunu və olacağını gur səslə dəfələrlə bəyan edib. Çatışmayan, bunun qarşılığının verilməsinə siyasi iradənin qısırlığıdır.

***-Zəlimxan bəy, Türkiyə-Rusiya monitorinq mərkəzinin fəaliyyəti qarşıdakı dövr üçün nə vəd edir?***

-Rusiya-Türkiyə monitorinq mərkəzi ümid yeridir. Türkiyənin gec, ya tez bölgədə oturuşması üçün bir dayaqdır. Rusiya, indiki durumda bütün vasitələrlə Türkiyənin gücünün konflikt zonasına girməsini bütün vasitələrlə əngəlləməkdədir. Rusiyanın isə öz milli-strateji maraqları naminə tərəddüd etmədən reallaşdırmaq istiqamətində fəaliyyətdədir. Hakimiyyətimizin bu hoqqalara susqunluğu isə hakimiyyətimizin Rusiyanın öz lahiyəsi olması haqqında ciddi rəy formalaşdırmaqdadır.

***Z.Məmmədli***

# Abel Məhərrəmov üçün “Səlim Müslümov ssenarisi”...

## BDU-nin sabiq rektoru da vəzifədə olarkən yol verdiyi korrupsiya əməllərinə görə ciddi başağrısı yaşaya bilər



***Azərbaycanda vəzifədə olarkən haqlarında çoxsaylı korrupsiya iddiaları və ittihamları dolaşan eks məmurların qanunsuz əməlləri ilə bağlı araşdırmalar davam edir. Sabiq Əmək və Əhalinin sosial müdafiəsi naziri Səlim Müslümovun ardından Naxçıvan Muxtar respublikasının iki keçmiş nazirinin həbs olunması dediklərimizin əyani təsdiqi sayıla bilər.***

Qəzetimizin son sayında da vurğulamışdıq ki, gələn məlumatlar prosesin davamlı olacağını göstərir. Bildirilir ki, qarşıdakı dövrdə bir çox sabiq iri məmurlarla bağlı da qanunlar çərçivəsində növbəti ciddi addımların atılmasının şahidi olacağıq. Belə keçmiş vəzifəlilər arasında Bakı Dövlət Universitetinin (BDU) eks rektoru Abel Məhərrəmovun da adı hallanmağa başlayıb.

Xatırladaq ki, bu günlərdə Hesablama Palatasının 5 auditorundan dördü vəzifəsindən kənarlaşdırılıb. Bunlardan biri isə BDU-nin sabiq rəhbərinin qardaşı Adil Məhərrəmovdur. Bəzi ekspertlərin fikrincə, Adil Məhərrəmovun məlum postdan uzaqlaşdırılmasına təsadüfi yanaşmaq olmaz. Sözügedən addım ölkənin ən qocaman universitetində Abel Məhərrəmovun rektor olduğu dönəmin araşdırıla biləcəyinin ilk siqnalı kimi qəbul edilir. Belə bir yoxlama baş tutacağı halda isə keçmiş rektorun ciddi başağrısı yaşaya biləcəyi istisna olunmur. Bu da təsadüfi deyil: BDU-nin eks rəhbərinin dövründə adıçəkilən ali təhsil ocağında korrupsiya, obrazlı desək, “at oynadıb”. Üstəlik, yazdıqlarımız heç də qulaqdandolma söhbət deyil. Elə Abel müəllimin auditlərindən biri olduğu Hesablama Palatasının müxtəlif vaxtlarda həyata keçirdiyi yoxlamaların nəticələridir.

Məsələn, Palatanın sabiq rektor postunu itirməmişdən cəmi bir il öncə - 2017-ci ildə açıqladığı məlumata görə, Bakı Dövlət Universiteti üzrə daxilolmaların və xərclərin proqnozlaşdırılması və istifadəsi ilə bağlı həyata keçirilmiş auditin nəticələrinə əsasən, adıçəkilən universitet bir sıra nöqsanlara yol verib: dövlət sifarişi ilə təhsil alan, lakin müxtəlif səbəblərdən universitetin tələbələri sırasından xaric edilmiş tələbələr üzrə təhsil haqqı məbləği dövlət büdcəsinə qaytarılmayıb, həmçinin “Maarifçi Tələbə Kredit” Fondu ilə təhsil krediti haqqında müqavilə imzalayan tələbələr üzrə hesablanmış təhsil haqqı məbləği universitetin zərərinə silinib. “Ali təhsil müəssisələrinin inşaat, maddi-texniki təchizat, kadr potensialı və strukturuna qoyulan minimum normalar”ın tələblərinə bəzi hallarda əməl olunmayaraq artıq ştatlar saxlanılıb.

Əmək haqqına əlavələrin düzgün tətbiq edilməməsi nəticəsində “Gənc istedadlar Liseyi”nin müəllimlərinə artıq, eyni zamanda Universitetdə işləyən məcburi köçkünlərə düzgün olmayaraq əlavə əmək haqqı, müvafiq normativ-hüquq aktların tələbləri düzgün tətbiq olunmayaraq Universitetdə təhsil alan və Azərbaycan vətəndaşı olmayan tələbələrə də təqaüd ödənilib. 2016-cı ildə “Təhsil” xərcləri bölməsindən “Gənc İstedadlar Liseyi”nə, “Təhsil sahəsində tətbiqi tədqiqatlar” köməkçi bölməsindən “Elm” xərclərinə, “Tələbələrə verilən təqaüdlər” xərc paraqrafına ayrılmış vəsaitin müvafiq illər üzrə istifadə olunmayan hissəsinin büdcəyə qaytarılması, Vergi Məcəlləsinə uyğun olaraq qeyri-rezidentdən gəlir vergisinin tutulması təmin edilməyib.

Hesabat dövründə əldə olunan gəlir “Maliyyə fəaliyyətinin nəticələri haqqında hesabat”da düzgün göstərilməyib, “Digər təşkilatlardan köçürmələr” hesabında xarici və daxili mənbələr hesabına alınmış qrant məbləğlərinə görə bank hesablarında olan qalıqlar “Maliyyə vəziyyəti haqqında hesabat”a daxil edilməyib və s. və i.a. Sadalananlardan aydın görünür ki, Abel Məhərrəmovun rektor olduğu dövrdə ölkənin aparıcı təhsil müəssisəsində korrupsiyaya açıq-aydın şəkildə “yaşıl işıq” yandırılıb. Eyni zamanda yəqin ki, bu mənimsəmə əməliyyatlarının yekununda keçmiş rektor misilsiz sərvətə yiyələnib, üstəlik, ölkə daxilində və onun hüdudlarından kənarda geniş biznes şəbəkəsi qurmağa nail olub, həmçinin daşınan və daşınmaz əmlaklara yiyələnib. Onu da unutmayaq ki, Abel Məhərrəmov vəzifəsini itirməmişdən bir qədər öncə yerli KİV-də onun geniş tərkibli Azərbaycan nümayəndə heyətinin tərkibində xüsusi reyslə İspaniyanın paytaxtı Madrid şəhərinə yola düşməsi zamanı yaşadığı qalmaqala diqqət çəkilib.

Bildirilib ki, nümayəndə heyətini aparan Airbus-319A təyyarəsi 2 saata qədər havaya qalxa bilməyib. Buna səbəb isə sərnişinlərdən birinin - nümayəndə heyətinin tərkibində yer alan BDU-nun rektoru Abel Məhərrəmovun 2 tonluq baqajı olub. Səfər iştirakçıları noyabrın 10-da Madriddən qayıdanda da eyni hadisə ilə üzləşməyə məcbur olublar. Yalnız Məhərrəmova və onun ölkəmizin İspaniya Krallığındakı səfir işləyən oğluna məxsus 2 tona qədər yük boşaldıldıqdan sonra təyyarənin uçuşuna icazə verilib. Həmin yük onun səfir oğlunun şərab biznesinə aid çəlləklər olub. Belə ki, şərab dolu çəlləklər kontrabanda yolu ilə Azərbaycandan İspaniyaya aparılır və orada şüşələrə doldurularaq qeyri-qanuni şəkildə geri qaytarılırmış. Sonra isə ispan şərabı adı ilə Məhərrəmova məxsus şadlıq evlərində, restoranlarda və digər ticarət nöqtələrində satılırmış.

Bir sözlə, Abel müəllim yalnız BDU-nin vəsaitlərini qeyri-şəffaf xərcləməklə kifayətlənməyib, eyni zamanda hansısa vəsaitlər hesabına yaratdığı və böyütdüyü naməlum biznesi vasitəsilə də hamını aldatmağa çalışırmış. Bu deyilənləri ümumiləşdirdikdə keçmiş rektorun da son zamanlar hüquqi məsuliyyətə cəlb edilən eks məmurların siyahısına qoşula biləcəyi barədə səsləndirilən iddialar yetərincə ağlabatan görünür. Həmin iddiaların reallaşıb-reallaşmayacağını isə zaman göstərəcək. Odur ki gözləyək...

***Sənan Mirzə***




# Dövlət sosial sığorta şəhadətnaməsi ləğv olunur

***Dövlət sosial sığorta şəhadətnaməsinə dair müddəalar qanunvericilik aktlarından çıxarılır.***

Unikal.org-un məlumatına görə, bununla bağlı “Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında” qanuna və Əmək Məcəlləsinə dəyişiklik təklif olunur.

Başqa sözlə, Azərbaycan Respublikasında sosial sahədə aparılan islahatlar nəticəsində sosial sığorta, fərdi uçot və pensiya təminatı sahəsindəki funksiyaların bir-birini tamamladığı vahid dövlət pensiya təminatı sistemi formalaşdırılıb. Həmin sistemin fəaliyyəti müasir tələblər səviyyəsində təşkil olunmuş, o cümlədən hər bir sığortaolunana fərdi şəxsi hesab açılaraq ödənilən məcburi dövlət sosial sığorta haqlarının bu hesablarda fərdi uçotunun aparılması, vətəndaşların pensiya hüquqlarının dəyər ifadəsində həmin uçotun məlumatları əsasında müəyyənləşdirilməsi mexanizmi yaradılıb.

Azərbaycan Respublikası Prezidentinin 5 sentyabr 2018-ci il tarixli 258 nömrəli Sərəncamına əsasən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin fəaliyyət istiqamətləri üzrə əhaliyə göstərilən xidmətlərin vahid internet portalı üzərindən təqdim edilməsi məqsədilə “e-sosial.az” saytı istifadəyə verilib. Yaradılmış bu imkan nəticəsində vətəndaşlar özlərinə aid əmək müqaviləsi, fərdi uçot, pensiya kapitalı, sosial təminat növləri, torpaq-pay mülkiyyəti, əlillik, reabilitasiya, ödənilmiş məcburi dövlət sosial sığorta haqları ilə bağlı məlumatları və s. sahələr üzrə mütəmadi olaraq yenilənən məlumatları bu internet portalı vasitəsilə asanlıqla əldə edə bilirlər.

“Mərkəzləşdirilmiş Elektron İnformasiya Sistemi”ndə sığortaolunanlara məxsus sosial sığorta nömrəsi onların şəxsiyyət vəsiqəsinin FİN nömrəsi ilə əlaqələndirilib. Başqa sözlə, fərdi uçot sistemində elektron xidmətlərə keçidin sürətləndirilməsi və innovativ həllərin tətbiqi artıq sadəcə sosial sığorta nömrəsinin olmasını yetərli edib, sosial sığorta şəhadətnaməsinin maddi daşıyıcıda çap edilməsi öz aktuallığını və əhəmiyyətini itirib. Sosial sığorta şəhadətnaməsinin hazırlanması və sığortaolunanlara çatdırılması əlavə maliyyə xərci və vaxt itkisinə səbəb olur.

“Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Qanununun layihəsi də məhz fərdi uçot sistemində proseslərin tam elektronlaşdırılmasına mane törədən halların aradan qaldırılması, elektron pensiya sisteminin əhatə dairəsinin genişləndirilməsi, habelə Dövlət Sosial Müdafiə Fondunun müvafiq xərclərinin azalması və azaldılan xərclərin vətəndaşların sosial müdafiəsinin gücləndirilməsinə yönəldilməsi məqsədilə hazırlanıb.

# Nazir Niyaməddin Əliəhmədovu rəis müavini təyin etdi

***Daxili işlər orqanlarında növbəti kadr dəyişikliyi olub.***

Unikal.org-un əldə etdiyi məlumata görə, bununla bağlı daxili işlər naziri, polis general-polkovnik Vilayət Eyvazov müvafiq əmr imzalayıb.

Əmrə əsasən, polis polkovnik-leytenantı Niyaməddin Əliəhmədov Şabran RPŞ-nin Xidmət üzrə rəis müavini vəzifəsinə təyin olunub. O, bu təyinata qədər Sabirabad Rayon Polis Şöbəsinin İctimai Təhlükəsizlik şöbəsinin rəisi olub.

***Famil Fərhadoğlu***



## “Azərxalça”nın yeni sədri Elxan Məmmədovun qardaşıdır - DOSYE

***Xəbər verdiyimiz kimi, Prezident İlham Əliyevin sərəncamı ilə, Emin Səlhab oğlu Məmmədov “Azərxalça” Açıq Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri təyin edilib.***

Unikal.org xəbər verir ki, E.Məmmədov Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimidir, Heydər Əliyev Fondunun mədəniyyət və incəsənət məsələləri üzrə müşaviri vəzifəsində çalışıb.

Yeni sədr 2012-ci ildə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə ”Əməkdar incəsənət xadimi” fəxri adına layiq görülüb. Azərbaycanda və Avropanın bir sıra ölkələrində çoxsaylı sərgilərin keçirilməsinə rəhbərlik edib.

“Heydər Əliyev Fondu əməkdaşlarının təltif edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 6 may tarixli Sərəncamına əsasən Heydər Əliyev Fondunun 15 illiyi münasibətilə və Azərbaycanın ictimai və mədəni həyatında səmərəli fəaliyyətinə görə “Tərəqqi” medalı ilə təltif edilib.

E.Məmmədov 2020-ci ildə Rusiya Rəssamlıq Akademiyasının fəxri üzvü seçilib.

Qeyd edək ki, E.Məmmədovun xalq rəssamı Səlhab (Salxab) İsa oğlu Məmmədovun oğlu, AFFA-nın icraçı vitse-prezidenti və baş katibi Elxan Məmmədovun qardaşıdır.

## Hulusi Akardan Qarabağa dair yeni açıqlama

***“Türkiyə Silahlı Qüvvələri cənab Prezidentimizin rəhbərliyi ilə Suriyada, İraqın şimalında, Aralıq dənizinin şərqində millətimizin haqq, mənafe və maraqlarını qorumaqla yanaşı Liviyada və Qarabağda qardaşlarımıza dəstək olmaqdadır”.***

“Unikal” Report-a istinadən xəbər verir ki, bunu Türkiyənin milli müdafiə naziri Hulusi Akar Çanaqqala Zəfərinin 106-cı ildönümü münasibəti yaydığı təbrik açıqlamasında deyib.

“Bu gün bütövlüyümüz və bərabərliyimizə qarşı ölkə içində və ondan kənarda olanlara ən tutarlı cavab şəhidliklərimizdir. Dünən Vətənimizi işğaldan qorumaq uğrunda son damla qanın qədər vuruşan əsgərimiz, bu gün də eyni ruhla Vətən torpaqlarımızı, mavi vətənimizi, səmamızı və 84 milyon vətəndaşımızın təhlükəsizliyini qoruyur. Eyni zamanda, başda FETO, PKK/PYD-YPG və İŞİD olmaqla hər cür təhdid və təhlükəyə qarşı əzm və qətiyyətlə mübarizəsini davam etdirir”, - nazir bildirib.

O, şəhidlərin və qazilərin unudulmadığını vurğulayıb.

## Şəhid hərbi qulluqçumuz dəfn edildi

***Azərbaycan Ordusunun Vətən müharibəsində şəhid olan əsgəri bu gün Gəncədə dəfn edilib.***

Xocavənd istiqamətində gedən döyüşlərdə şəhid olan, 1998-ci il təvəllüdü Məmmədov Vüsal Elşən oğlunun nəşi yaşadığı evə gətirilib. Şəhidlə evdə vida mərasimi keçirilib. Daha sonra V. Məmmədov Gəncə Şəhidlər Xiyabanına torpağa tapşırılıb.

Dəfn mərasimində Gəncə şəhər İcra Hakimiyyətinin rəhbərliyi, hərbçilər və ictimaiyyət nümayəndələri iştirak edib.

# Oqtay Şirəliyevin “çoxmilyonluq susqunluğu”

## Səhiyyə sistemindəki müəmmalı dövlət satınalmalarına “dur” deyən tapılacaqmı?

***“Unikal” qəzeti olaraq, 5 mart tarixli sayımızda Azərbaycanın səhiyyə sistemində kifayət qədər şübhələrə, suallara yol açan dövlət satınalmaları ilə bağlı konkret faktlar əsasında araşdırma yazısı dərc eləmişdik. Həmin faktları təkrarlamağa ehtiyac görmürük.***

Lakin sadalanan örnəklər bir daha təsdiq edirdi ki, Oqtay Şirəliyevin rəhbəri olduğu nazirliyin xətti ilə baş tutan müsabiqələr müəmmalara kifayət qədər açıqdır, şəffaflıq və ədalətlilik prinsipinin gözlənilməsi baxımından ürəkaçan səviyyədə deyil. Üstəlik, oxşar fikirləri yerli medianın uzun müddətdir gündəmə gətirməsinə baxmayaraq cənab Şirəliyev və nazirliyi belə hallarla bağlı hər hansı münasibət bildirməyə ehtiyac hiss eləmir, belə çıxır ki, ölkə mətbuatı məlum mövzuda “özü çalıb özü oynamaqla məşğuldur”. “Xərclərə nəzarət gücləndirilməlidir. Xüsusilə dövlət xətti ilə alınan mallara da çox ciddi nəzarət olmalıdır.



Çünki bəzi hallarda orada şişirtmələr də olur. Bəzi hallarda dövlət təşkilatları, necə deyərlər, öz rahatlıqları üçün lazım olmayan bir çox mal-material, əşya alırlar. Belə hallar var. Xaricdən avtomobillər, texnika, mebel alırlar. Buna son qoyulmalıdır. Biz bütün bu yersiz xərclərə son qoymalıyıq” - bunu Prezident İlham Əliyev 2020-ci ilin yekunlarına həsr olunmuş videoformat müşavirəsində danışarkən demişdi.

Ölkə başçısı qeyd edilən nöqsanlarla bağlı maliyyə naziri Samir Şərifova tapşırıqlar vermişdi: “Xərclərə nəzarət daha güclü olmalıdır və baxın, bəlkə də hansısa əlavə bir nəzarət mexanizmi də tətbiq edilə bilər”.

Göründüyü kimi, Prezident məlum çıxışında dövlət satınalmalarında şəffaflıqla bağlı sərt tələblər səsləndirmişdi. Bu isə ölkədə “tender korrupsiyası”na son qoyulması ilə bağlı məmurlara açıq mesaj kimi qəbul edilməlidir. Lakin müəyyən sahələrdəki vəzifəli şəxslərin hətta bu açıq, birmənalı mesajdan sonra da “köhnə hamam, köhnə tas” prinsipi ilə işlədiyi göz qabağındadır. Bu sırada xüsusilə Səhiyyə Nazirliyi daxilində baş verənlər ibrətamizdir.

Aydın görünür ki, ölkənin səhiyyə sistemində əksər dövlət satınalmaları sözügedən sahənin hər bir mənada gücləndirilməsindən daha çox, kimlərinsə maraq və mənafelərini təmin eləməyə yönəlib. Söylədiklərimizə əmin olmaqdan ötrü 5 mart tarixli sayımızda dərc olunan məqaləni yenidən oxumaq kifayətdir. Həmin məqalədki faktlardan Səhiyyə Nazirliyi sistemində təşkil olunan tenderlərin böyük əksəriyyətinin birilərini dövlət büdcəsi hesabına varlandırmaq istədiyi aydın görünür.

Ən ilginci isə odur ki, Səhiyyə naziri Oqtay müəllimin özü belə yerli mətbuatın ortaya qoyduğu, səhiyyə sistemində dövlət satınalmalarının korrupsiya predmetinə çevrilməsini açıq şəkildə isbatlayan faktlar qarşısında müəmmalı şəkildə susqunluq nümayiş etdirir, hər hansı formada fikir bildirməyi özünə sığışdırmır.

Maraqlıdır, niyə?! İnsafən qeyd eləmək lazımdır ki, son zamanlar İqtisadiyyat Nazirliyinin tenderlərlə bağlı nəzarətinin gücləndiyi hiss olunur; lakin bu, dövlət satınalmalarında şəffaflığın tam təmin edildiyini söyləmək üçün ciddi əsas yaratmır. Hələ də bir sıra məmurlar bu satınalmalara büdcə vəsaitlərinin havaya sovrulmasının “asan yolu” kimi baxırlar. Bu ilin əvvəllərindəki saylarımızdan birində açıq vurğulamışdıq: iqtisadçı ekspertlər uzun illərdir ardıcıl şəkildə, prinsipial olaraq dövlət qurumlarının keçirdiyi tenderlər üzərində nəzarətin gücləndirilməsini, şəffaflığın daha ciddi şəkildə təmin edilməsinin vacibliyini vurğulayırlar.

Bildirirlər ki, bu, hər gün bir az da genişlənən və güclənən korrupsiyaya qarşı mübarizə tədbirlərinin əhəmiyyətli hissəsinə çevrilməlidir. Üstəlik, yaranmış durumdan yalnız vətəndaş cəmiyyəti yox, iş adamlarının özləri də narahatdırlar. Onlar mətbuata açıqlamalarında bildirirlər ki, dövlət satınalmaları üzrə keçirilən tenderlərdə qanunsuzluq baş alıb gedir, bununla bağlı çoxsaylı şikayətlərə baxmayaraq vəziyyət əhəmiyyətli şəkildə düzəlməyib. Hələ də dövlət büdcəsinə yeyinti yeri kimi baxan şirkətlər və onlara havadarlıq edən müəyyən məmurlar mövcuddurlar.

Bu isə hazırda həyata keçirilən islahatların ruhuna, azad iqtisadiyyatın təməl prinsipi olan şəffaflıq və rəqabət anlayışına ziddir. Bir sıra dövlət qurumlarının tender komissiyalarını korrupsiya bataqlığına yuvarlanmaqda günahlandıran sahibkarlar, iş adamları tenderlərin bir qismində qaliblər əvvəlcədən məlum olduğunu deyir, bəzi hallarda bir günlük və ya bir aylıq şirkətlərin milyonlarla manatlıq dövlət satınalmasını həyata keçirmək imkanı qazandıqlarını deyirlər. Bildirirlər ki, bu cür halların aradan qaldırılmayacağı təqdirdə nə dövlət vəsaitlərinin kimlərsə tərəfindən talan edilməsinin qarşısını almaq mümkündür, nə də görülən işin keyfiyyətini təmin etmək!

Elə “Unikal” qəzeti olaraq biz də indiyədək dövlət satınalmalarındakı qaranlıq məqamlarla bağlı dəfələrlə, ətraflı bəhs etmiş və ölkədə korrupsiyanın kökünün kəsilməsinə həm də dövlət satınalmalarından başlamağın zəruriliyinə toxunmuşduq. Bildirmişdik ki, Azərbaycanda faktiki olaraq “tender korrupsiyası” formalaşıb. Bu isə məmurların büdcə vəsaitlərinə xalqın və dövlətin malı kimi yox, “dədə malı” kimi baxmasının nişanəsidir. Onlar üçün büdcə pullarının bircə təyinatı var: talançılıq! Nəyin bahasına olursa olsun, həmin pulları havaya sovurmaq, öz ciblərinə yönəltmək istəyirlər, nəticədə isə bunun fərqli hiylələrini fikirləşib tapırlar.

Həmin hiylələrin bir çoxu elə müəmmalı, şübhəli tenderlər vasitəsi ilə həyata keçirilir. Bu yazılanların həqiqətlə nə qədər örtüşdüyünü görmək, eyni zamanda dərk və qəbul eləmək üçün Səhiyyə Nazirliyi sistemindəki müəmmalı dövlət satınalmalarını dərindən araşdırmaq kifayətdir! Hörmətli Oqtay müəllim ümumi dəyəri on milyonlarca manatla ölçülən, şəffaflığı və obyektivliyi açıq şəkildə şübhə altında olan tenderlərlə bağlı mətbuatın, vətəndaş cəmiyyətinin şübhələri qarşısında susa bilər. Lakin unudulmamalıdır ki, həqiqətin əvvəl- axır gün işığına çıxmaq kimi möhtəşəm özəlliyi var. Buna inanmayanlar, ən azından, sabiq Əmək və Əhalinin sosial müdafiəsi naziri Səlim Müslümovun aqibətini xatırlasınlar, o zaman söhbətin nədən getdiyini daha yaxşı başa düşəcəklər...

***Orxan Həsənli***



# Bayram ərəfəsində qiymət artımı davam edir

## Abdulbari Gözəlin səssizliyi və nazirliyin xəbərdarlığı

***Dünən İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətində iri istehsalçılar, idxalçılar və market şəbəkələrinin nümayəndələri ilə görüş keçirilib.***

Görüşdə Novruz bayramı ilə əlaqədar bir sıra ərzaq mallarına tələbatın artması fonunda mövcud qiymətlərin əsassız olaraq dəyişilməsinin qarşısının alınması ilə bağlı məsələlər müzakirə edilib. Sahibkarlara əsassız qiymət artımına yol verilməməsi, marketlərdə qiymətlərin malların üzərində düzgün göstərilməsi, kassa qiymətləri ilə eynilik təşkil etməsi, istehlakçılarla market şəbəkələri arasında əməkdaşlığın gücləndirilməsi, satılan məhsulun keyfiyyəti və qiyməti barədə narazılıqlar olduğu halda məsələnin ciddi və operativ araşdırılması, istehlakçı hüquqlarının təmin olunması və müştəri məmnuniyyətinin yüksəldilməsi barədə tövsiyələr verilib.

Əsassız qiymət artımının, yəni qiymətlərin obyektiv əsas olmadan artırılmasının yolverilməz olduğu vurğulanıb. Əsassız qiymət artımına yol verilməklə istehlak bazarının iştirakçılarının hüquqlarının pozulmasına gətirib çıxaran hərəkətlərə yol verən sahibkarlıq subyektləri barədə ciddi məsuliyyət tədbirləri görüləcəyi qeyd olunub. Belə bir görüşün keçirilməsi, iri istehsalçılar, idxalçılar və market şəbəkələrinə süni qiymət artımı ilə bağlı xəbərdarlıqlar edilməsi, tövsiyələr verilməsi təqdirəlayiqdir. Lakin eyni zamanda bu iri istehsalçılardan, idxalçılardan və market şəbəkələrindən qiymətləri əsassız bahalaşdırmalarının səbəbini soruşmaq da önəmlidir. Düzdür, yerli mətbuat bu barədə vaxtaşırı suallar səsləndirir, ancaq ağlabatan cavab almaq mümkün olmur ki, olmur. Süni qiymət artımına yol verənlər, "yaşıl işıq" yandıranlar mediaya laqeydlik nümayiş etdirə bilərlər.

Ancaq çətin ki, İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin hansı səbəbdən qiymətləri əsassız şəkildə artırdıqları barədə sorğu-sualından yayınsınlar. Uzağa getməyək, elə bu yaxınlarda "Azərsun Holdinq"in öz məhsullarının qiymətlərini kəskin qaldırdığı barədə real faktlara söykənən yazı dərc eləmişdik. Və həmin yazıda sual eləmişdik: əlaqədar dövlət qurumları ölkədə süni qiymət artımına qarşı mübarizə aparıldığını bildirir, belə hallara yol verən istehsalçılara xəbərdarlıq edir, elə isə Abdulbari Gözəlin rəhbəri olduğu "Azərsun Holdinq" hansı məntiqlə əsas qida məhsullarının qiymətini bu cür kəskin şəkildə artırır?

Bazarın monopolist şirkəti olduğu halda "Azersun Holdinq" niyə bahalaşma ehtiyacı hiss eləyib? Bu faktiki olaraq hökuməti, onun iqtisadi siyasətini sabotaj etmək cəhdi deyilsə, bəs nədir? Eyni zamanda vurğulamışdıq ki, adıçəkilən şirkətin istehsalı olan qida məhsullarının keyfiyyətində ciddi dəyişiklik yoxdur. Həmin məhsullarla bağlı hələ də istehlakçılar şübhəlidir: onların keyfiyyətcə dünya standartlarından geridə qaldığı barədə cəmiyyətdə çoxdan möhkəmlənmiş, oturuşmuş ortaq qənaət mövcuddur. Lakin monopolist şirkət olduğundan vətəndaşlar istənilən halda "Azersun Holdinq"in məhsullarına möhtacdırlar.

Belədə A.Gözalın şirkətlər qrupu hansı məntiqlə mütəmadi şəkildə qiymətləri artırmaq ehtiyacı duyur? Ancaq sadə məntiqdən çıxış edib səsləndirdiyimiz haqlı suallar cavabsız qaldı. "Azərsun" rəsmiləri bu suallara cavab vermək ehtiyacı hiss eləmədilər. Ümumiyyətlə cənab Gözalın şirkəti istər sosial şəbəkələrdə, istərsə də yerli mediada özü barədə şikayətlərə, xüsusilə də qiymət artımı barədə giley- güzarlara dırnaqarası münasibət sərgiləyir, ictimaiyyətə hər hansı izahat vermək gərəyi hiss eləmir. Eyni fikri əslində digər istehlakçı və ya idxalçı şirkətlər barədə də söyləmək olar. Belədə növbəti məntiqi sual yaranır: cəmiyyətin narazılıqlarını, şikayətlərini eşitməzdən, görməzdən gələn inhisarçı çevrələrin ürəkləri istədiyi vaxt qiymətləri qaldırmağından təbii nə ola bilər? Bir halda ki, ictimai rəyi ciddiyə almırlar, onda niyə lap elə hər gün bahalaşmaya getməsinlər ki?!

Bax ona görə də İstehlak Bazarına Nəzarət Dövlət Xidmətindən iri istehsalçılar, idxalçılar və market şəbəkələrinə vaxtaşırı xəbərdarlıq eləməklə bərabər onlardan süni bahalaşmanın səbəblərini öyrənməlidirlər ki, ictimaiyyət heç olmasa bu qurumdan onu düşündürən suallara cavab tapsınlar. Hər halda istehlakçı olaraq bilməyə haqqımız çatır: əsassız qiymət artımı ilə bağlı bu qədər rəsmi xəbərdarlıqların olduğu şəraitdə belə süni bahalaşmanı durdurmaq nə üçün mümkün olmur? İri, monopolist istehsalçılar, inhisarçı idxalçılar və market şəbəkələri ürəkləri istəyən vaxt ürəkləri istəyən məhsula ürəkləri istəyən qiyməti qoymaq cəsarətini haradan alırlar?!

***Sənan Mirzə***

# İstehlak bazarı niyə "yanır" və nə vaxt "sönəcək"? - TƏHLİL

***Bahalaşma elə bir şeydir ki, onu hər şeydən öncə, bazar diqtə edir. Hətta, ən güclü inhisarçılıq şəraitində belə, qiymət artımı üçün "qarmaq keçirməyə" əgər cüzi də olsa, bir səbəb yoxdursa, bahalaşma heç bir halda baş verə bilməz. Çünki bazar amili, tələb və təklif nisbəti əsas faktordur. Ümumiyyətlə, hər hansı bir malın və məhsulun qiyməti yüksəlirsə, demək, ya maya dəyəri qalxıb, ya da istehsalı azalıb; yox, əgər kənardan gətirilirsə, xərcləri genişlənib. Süni qiymət artımı üçün yalnız bütün bu amillərdən sonra şərait yaranır.***



Son aylar ərzində istehlak bazarımızda qiymətlərin yüksəlməsi sözsüz ki, ciddi narahatlıq doğurur. Ancaq bu, təbii qarşılanmalıdır, çünki gözlənilən idi. Bahalaşma prosesinin tədricən, yəni asta templə baş verməsi də buna sübutdur. Yəni demək istədiyim odur ki, hazırda ölkədə heç bir süni qiymət artımından söhbət gedə bilməz və bunun bir neçə səbəbi var.

Əvvəla, ən çox işlənilən enerjidaşıyıcısı olan Aİ-92 benzini və dizel yanacağı bu ilin yanvarında bahalaşdırıldı, üstəlik, fevralın 1-dən suyun da tarifi artırıldı. Bütün bunlar istehlak malları da daxil, xidmət sahəsində qiymətlərin artması ilə nəticələnməli idi və bu da baş verdi.

İkinci tərəfdən isə, bahalaşma ilin əvvəlindən dünya üzrə də müşahidə edilir. Demək olar, hər şeyin qiyməti yüksəlib. Bunu bir tərəfdən keçənilki pandemiya şəraitinin təsirləri (istehsala dəymiş zərbə), digər tərəfdən isə neftin bahalaşması, tələbin sürətlə bərpası və sair amillər şərtləndirir. Bundan yan qaçmaq əsla mümkün deyil.

Məsələn, keçən il pandemiyanın təsiri, bu il isə əkilən sahələrdən az məhsul götürüləcəyinə dair proqnozlar iri buğda ixracatçısı kimi tanınan ölkələri satışı məhdudlaşdırmağa sövq edib və edir. Belə bir fonda subsidyalaşdırmaya getmək heç bir effekt verə bilməz. Ümumiyyətlə, maya dəyərinə oturan hər hansı kiçik bir elementin belə, qiyməti yüksəlirsə, subsidiya əhəmiyyətsiz sığortalayıcı vasitəyə çevrilir və səmərəsiz siyasət olur. Buna gərək yoxdur.

Təsadüfi deyil ki, bu, özünü un məmulatlarının qiymətlərində də göstərir. Təkrar edirəm, bir şey ki, idxaldan asılıdır və üstəlik, dünya bazarlarında onun qiyməti qalxırsa, həmin məhsulun dəyərini sabit saxlamaq mümkün deyil. Subsidya yolu ilə bazarda sabitliyi qoruyub saxlamaq müvəqqəti xarakter daşıyacaq.

Dövlət Statistika Komitəsinin açıqladığı rəqəmə əsasən, 2021-ci ilin yanvar-fevral aylarında istehlak qiymətləri indeksi 2020-ci ilin müvafiq aylarına nisbətən 103,7 faiz olub. Bu, rəsmi göstəricisidir. Real olaraqsa inflyasiya bundan yüksəkdir. Çünki bahalaşmanı yaradan əsas faktor məhz benzinin ilə dizelin, o cümlədən, suyun qiymətindəki artımlardır. Bu artımların təsiri nəticəsində bazarda baş verən bahalaşma rəsmi açıqlanılan səviyyədə ola bilməz.

Umumiyyətlə, ilk gündən yazmışdım ki, "yanacaq ilə suyun tariflərinin artırılması istehlak bazarına təsiri etməyəcək" kimi fikirlər əsassızdır. Hətta, aqrar istehsalçılara verilən subsidiyaların artırılmasına rəğmən, dizelin qiymətindəki bahalaşma kənd təsərrüfatı məhsullarının qiymətinə mütləq şəkildə təsir etməli idi, etdi və edir də. Benzin və su isə xidmətlərin bahalaşmasına gətirib çıxarıb.

Bütün bunları yazmaqda məqsədim yanacaq ilə suyun qiymətinin artırılmasına irad bildirmək deyil. Bu da iqtisadiyyatın müvafiq sektorlarının inkişafı və səmərəliliyin artırılması üçün özlüyündə bir tələbdir. Sadəcə olaraq, sözügedən tarif dəyişikliklərinə qış aylarında gedildiyi üçün, ərzaq məhsullarının qiymətlərinə tez təsir göstərdi. Sözügedən addım əgər yayda atılsaydı, qiymətlərə belə tez və ciddi təsir göstərməyəcəkdi.

Bəs, bahalaşma nə qədər davam edəcək? Hesab edirəm, proses ilin birinci yarısının sonunadək çəkə bilər. Həm xarici faktorların, həm də daxildəki tarif dəyişikliklərinin, o cümlədən, ümumi iqtisadi fonun əlverişsizliyi səbəbi və təsirləri nəticəsində bahalaşmanın aprel-may aylarında da davam edəcəyinin şahidi ola bilərik.

Yeri gəlmişkən, bir cəhəti qeyd edim: Çoxlarının dediyinin əksinə olaraq, maaş və pensiya artımlarının ölkədə inflyasiyaya ciddi təsiri olmadığını və yaxud da hökumətin onun qarşısını aldığını dəfələrlə görmüşük. Amma xarici faktorların və tənzimlənən tariflərin artırılmasının təsiri və nəticəsində yaranan bahalaşmanın qarşısını almaq çətin olur.

Ümumiyyətlə, Azərbaycanda ikirəqəmli inflyasiyanın qeydə alındığı illərə diqqət yetirsək bunun hər dəfə ya neftin ucuzlaşması nəticəsində ortaya çıxdığını, ya da qlobal iqtisadi çətinliklər səbəbindən baş verdiyini görürük. Bu baxımdan, düşünürəm, istehlak bazarında qiymətlərdəki indiki yüksəliş tendensiyasının hələ bir müddət də davam edəcəyinə rəğmən, sırf xarici mənfi faktorların az olması səbəbindən kəskin xarakter almayacaq. Çünki ən başlıca amil olan neftin qiyməti əlverişli səviyyədədir.

Amma hər halda, proses diqqət mərkəzində saxlanılmalı, çərçivəyə alınmalıdır. Bundan ötrü isə ilk növbədə inhisarçılığa qarşı sərt mübarizə aparılmalı, əsas növ ərzaq məhsulları üzrə lazım gələrsə mövcud vergi siyasətinə yenidən baxılmalı, iqtisadi aktivliyin yaranması və artması üçün istehlak dəstəklənməlidir.

Əhalinin aztəminatlı təbəqəsinin sosial müdafiəsinin daha yaxşı təşkili və gücləndirilməsinə gəldikdə isə bu, bazardakı qiymət rəqslərinə bağlı məsələ və siyasət deyil. Sözügedən siyasət daimi xarakter daşımalı, ardıcıl və əsaslandırılmış şəkildə həyata keçirilməlidir. 2019-cu ildə hökumət sözügedən istiqamətdə çox addımlar atdı. Və bir daha qeyd edirəm ki, bazar, buna demək olar, heç bir reaksiya vermədi. Bu gün isə bazar "qaynayır".

***Pərviz Heydərov***

## Ramiz Mehdiyev YAP Veteranlar Şurasının ilk iclasına qatılmadı



***Yeni Azərbaycan Partiyası Mərkəzi Aparatında partiyanın Veteranlar Şurasının ilk iclası keçirilib.***

Unikal.org xəbər verir ki, iclasda çıxış edən YAP sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Veteranlar Şurasının Əsasnaməsinin yaradılmasının, partiyanın yeni Proqramına dair təklif və tövsiyələrin işlənib hazırlanmasının qarşıda duran əsas vəzifələrdən biri olduğunu diqqətə çatdırıb.

İclasda daha sonra YAP Veteranlar Şurasının Əsasnaməsinin hazırlanması ələqədar işçi qrupun yaradılması haqqında qərar qəbul olunub.

## Ordumuzun yeni hərbi hissələri istifadəyə verildi

***Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırıqlarına əsasən Hərbi Hava Qüvvələrinin (HHQ) şəxsi heyətinin döyüş hazırlığının yüksəldilməsi və sosial-məişət şəraitinin təkmilləşdirilməsi istiqamətində fəaliyyətlər davam etdirilir.***



Bu barədə Unikal.org-a Müdafiə Nazirliyindən məlumat verilib.

Martın 18-də Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyinin digər rəhbər heyəti HHQ-nin yeni inşa edilmiş və əsaslı təmirdən çıxmış iki hərbi hissəsinin açılış mərasimində iştirak ediblər.

Şəxsi heyət üçün yaradılan şəraitlə tanış olan Müdafiə naziri ərazidəki qərargah binaları, əsgər yataqxanaları, tibb məntəqələri, yeməkxanalar, sinif otaqları, ərzaq və əşya anbarları, hamam-camaşırxana qazanxana kompleksləri, sıra meydanı, nəzarət buraxılış məntəqəsi, eləcə də digər xidməti və inzibati obyektlərə baxış keçirib.

Bildirilib ki, hərbi hissələrdə yaradılan şərait HHQ-nin döyüş hazırlığının yüksək səviyyədə saxlanılmasına müsbət təsir göstərəcək, hava məkanımızın daha etibarlı qorunması məqsədilə döyüş növbətçiliyinin keyfiyyətli təşkili və aparılmasını təmin edəcək.

Sonra general-polkovnik Z.Həsənov əsaslı təmirdən çıxan hərbi hissənin ərazisindəki Uçuşların idarəedilməsi məntəqəsi və pilotsuz uçuş aparatlarının (PUA) yerüstü idarəetmə stansiyasına da baxış keçirib. Müdafiə nazirinə məruzə edilib ki, müasir avadanlıqlarla təchiz edilmiş idarəetmə məntəqəsi və yerüstü stansiya hərbi aviasiya vasitələrinin və PUA-ların uçuşlarının fasiləsiz və keyfiyyətli koordinasiyasını təmin edəcək.

Müdafiə naziri hərbi aviasiyanın imkanlarının daha da artırılması ilə əlaqədar komandanlığa müvafiq tapşırıqlar verib.

## DYP bu Dövlət Komitəsini cərimələdi




***Dövlət Yol Polisi (DYP) Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Ərazi Tikinti-Planlaşdırma Mərkəzi barəsində inzibati qaydada protokol tərtib edib.***

Unikal.org-un məlumatına görə, tərtib edilən protokol baxılması üçün Səbail rayon Məhkəməsinə göndərilib. İş hakim Ülviyyə Şükürovanın icraatına verilib.

Komitə İnzibati Xətalar Məcəlləsinin 347-ci (hüquqi şəxsin istifadəsində olan nəqliyyat vasitəsini inzibati xətanın törədilməsi zamanı idarə etmiş fiziki şəxs haqqında məlumatın səlahiyyətli orqanın (vəzifəli şəxsin) bu barədə sorğusu daxil olduğu vaxtdan 5 gün müddətində verilməməsinə görə) maddəsi ilə təqsirli bilinir.

Bu xətanın törədilməsinə görə vəzifəli şəxslər yüz əlli manat məbləğində, hüquqi şəxslər üç yüz manat məbləğində cərimə edilir.

# Rövşən Əkbərov işində Nazim İbrahimov detalı

### Sabiq komitə sədri ehtiyatdakı generalın qandallanmasından sonra niyə yuxuya gedə bilmir?

***Yola saldığımız həftənin ən səs-küylü hadisələrindən biri də ehtiyatda olan general-leytenant Rövşən Əkbərovun həbsi ilə bağlı məlumat oldu. Bu gözlənilən, eyni zamanda gözlənilməz həbsə səbəb kimi Azərbaycan vətəndaşı, 1971-ci il təvəllüdlü, Əliyev Elçin Fəday oğlunun 1 iyun 2001-ci il tarixdə Ukrayna Respublikasının paytaxtı Kiyev şəhərində soyuq silahla qəsdən öldürülməsi göstərilir.***

Həmin cinayət faktı ilə bağlı Ukrayna Respublikasının prokurorluq orqanlarında CM-nin müvafiq maddələri ilə cinayət işi başlanmış, bir sıra istintaq tədbirləri yerinə yetirilib, 2003-cü il tarixdə cinayətin törədilməsində Azərbaycan Respublikasının vətəndaşının şübhəli olması əsası ilə cinayət işi Azərbaycan Respublikasına göndərilib. Həmin cinayət işi üzrə Azərbaycan Respublikasının Hərbi və Baş Prokurorluğun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsində (əvvəlki) bir sıra istintaq hərəkətləri həyata keçirilmiş, lakin iş üzrə təqsirləndirilən şəxs qismində cəlb edilməli olan şəxs müəyyən edilmədiyindən cinayət işi üzrə icraat dayandırılıb. Lakin 2020-ci il tarixdə cinayət işi Baş Prokurorluqda yenidən öyrənildikdən sonra Baş Prokurorluğun rəhbərliyi tərəfindən cinayət işi üzrə icraatın dayandırılması haqqında qərar ləğv edilməklə icraat təzələnib və Baş Prokurorluğun İstintaq idarəsində çoxsaylı istintaq hərəkətləri aparılaraq iş üzrə kifayət qədər sübutlar toplanılaraq, həmin cinayət əməlinin Rövşən Əkbərov tərəfindən törədilməsinə əsaslı şübhələr müəyyən edilib.

Bakı Hərbi Məhkəməsinin qərarı ilə barəsində 4 ay müddətinə həbs qətimkan tədbiri seçilən R.Əkbərovun cinayət işi başqalarını da çıxılmaz vəziyyətdə qoya bilr. Bu sırada adı ilk hallananlardan biri isə Diaspora ilə İş üzrə Dövlət Komitəsinin sabiq sədri Nazim İbrahimovdur. Məsələ burasındadır ki, adıçəkilən komitənin keçmiş rəhbəri məlum qətl hadisəsi törədilərkən Ukraynada səfir postunda çalışıb. Ona görə də sözügedən qətldən xəbərdar olmaması istisna edilir.

Elə məlum qətlin qurbanı olan E.Əliyevin anası yerli KİV-ə açıqlamasında deyib ki, N.İbrahimov hər şeyi bilirdi, demədi.

Sitat: "Rövşən tutulubsa, qoy Nazim də tutulsun. İşin bu yerə gəlib çıxmağında günahkar Nazimdir". Məsələyə münasibət bildirən hüquq müdafiəçisi Səməd Vəkilovun da sözlərinə görə, Nazim İbrahimov sözügedən iş üzrə məsuliyyətə cəlb edilə bilər: "Ancaq Nazim İbrahimovun cinayət məsuliyyətinə cəlb edilmə müddəti keçdiyi üçün ona qarşı irəli sürülmüş ittiham təsdiqini tapsa, cəzadan azad olunması mümkündür. Lakin Elçin Əliyevin anasının mətbuata verdiyi açıqlamalara görə, Nazim İbrahimov da bu hadisələrin şahidi olub". Bir sözlə, deyilənlərdən aydın görünür ki, Rövşən Əkbərovla bağlı cinayət işinin önəmli fiqurlarından biri sabiq komitə sədridir və proses belə davam edərsə, onu da qarşıdakı dövrdə ciddi başağrısı gözləyir.

N.İbrahimov hələ Ukraynada səfir vəzifəsində çalışarkən özü barədə kifayət qədər qaranlıq reputasiya qazanıb: bütün diqqətini şəxsi biznesinin inkişafına yönəldib, nəticədə qısa müddət ərzində adıçəkilən ölkədə ciddi gəlir qaynaqları yaratmağa nail olub. Yeri gəlmişkən, həmin gəlir qaynaqlarının sırasına ticarət mərkəzləri, müxtəlif profilli mağazalar, otellər və restoranlar daxildir. N.İbrahimov komitə sədrliyinə yüksəldikdən sonra isə bu statusundan ölkə xaricində biznesini gücləndirmək üçün daha da rahat şəkildə faydalanıb. Sabiq sədrin ölkə xaricində sahib olduğu varidatı üzə çıxıb, aydınlaşıb ki, onun Azərbaycandan kənarda gəlir qaynaqlarının nə həddi var, nə hüdudu. Bu sırada sabiq komitə sədrinin Ukraynaya bağlılığı xeyli maraq doğurur.



Odur ki, R.Əkbərovun məsuliyyətə cəlb edildiyi cinayət işi ilə bağlı N.İbrahimovun ən azından dindirilməsi ictimaiyyətdə qətiyyən təəccüb yaratmayacaq. Çünki keçmiş "diaspora şefi"nin ölkədən kənardakı işini (elə ölkə daxilində olduğu kimi!) xeyli dərəcədə müəmmalı nüanslar üzərində qurduğu kimsəyə sirr deyil. Ən azından o unudulmamalıdır ki, komitə sədrliyindən uzaqlaşdırılıqdan sonra da N.İbrahimovun tez-tez üz tutduğu ölkələr arasında Ukrayna birinci yerdə gəlib. Necə ki, R.Əkbərov ordu sıralarından kənarlaşdırıldıqdan sonra məhz həmin ölkəyə üz tutmuş, oradakı qeyri-müəyyən əlaqələrinə sığınmışdı. Bir sözlə, indiyədək yazılanlardan və söylənilənlərdən belə aydın olur ki, E.Əliyevin ailəsinin məlum qətllə bağlı ittihamlarında N.İbrahimovun da adını hallandırması qətiyyən təsadüfi deyil. Belə görünür ki, sabiq "diaspora şefi" ən azından danışılan cinayət(lər)in bu və ya digər formada şahididir, zamanında nələrisə bilib və gizlədib.

Üstəlik, haqqında danışılan cinayətin gün işığına çıxarılması üçün nəinki bildiklərini danışmağa ehtiyac hiss eləyib, ümumiyyətlə, susmağı üstün tutub. Bütün bu sadalananları ümumiləşdirdikdə iki nəticə hasil olur: birincisi, məlum cinayətdə N.İbrahimovun adının hər hansı formada hallanması təsadüfi deyil; ikincisi, R.Əkbərovun həbsindən sonra keçmiş komitə sədrinin də öz aqibətinə görə təlaşa düşməsi, yuxuya gedə bilməməsi tamamilə təbiidir...

***Toğrul Əliyev***

**Ermənistan-Azərbaycan, ərazilərin işğaldan azad olunması haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi.**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Dağlıq Qarabağ həqiqətləri dünyanın gözü önündə

## Fəzail Ağamalı: "Dünya işğaldan azad edilmiş şəhərlərimizin viranə qoyulmuş mənzərəsindən xəbər tutmalı, Ermənistana sanksiya tətbiq edilməlidir"

***Dağlıq Qarabağ həqiqətlərinin dünyaya çatdırılması işi Azərbaycanın haqq savaşında zəfər çalmasından sonra da davam edir. Bu günlərdə bir qrup media nümayəndələri və siyasi partiya rəhbərlərinin işğaldan azad olunmuş torpaqlarımıza səfəri təşkil olundu. Ekspertlər bu cür səfərlərin Dağlıq Qarabağ həqiqətlərinin bütün çılpaqlığı ilə dünyaya çatdırılmasında böyük rolu olduğu qənaətindədirlər.***

Politoloq Elçin Mirzəbəyli deyir ki, jurnalistlərin işğaldan azad edilmiş ərazilərə səfərlərinin təşkilinin əhəmiyyəti çox böyükdür. Onun sözlərinə görə,bu səfərlər ilk növbədə ölkəmizdə həmrəyliyin nümayişidir:

"İşğaldan azad olunmuş ərazilərə jurnalistlərin, eləcə də partiya sədrlərinin səfər etməsi Dağlıq Qarabağ məsələsində bizim bir xalq olaraq həmrəy olduğumuzu nümayiş etdirdi. Ölkədə fəaliyyət göstərən bütün partiyalar bu səfərdə təmsil olunmuşdular. Heç kəsə siyasi baxışına görə fərq qoyulmamışdı. Eyni zamanda bu səfər jurnalistlərin dağlıq Qarabağla bağlı reallıqların dünyaya çatdırılması baxımından böyük əhəmiyyət kəsb edir. Mən bu səfərləri məhz bu aspekdən yüksək qiymətləndirirəm. Jurnalistlərin Ermənistan dövlətinin bizim ərazilərimizdə basdırdığı minaların zərərsizləşdirilməsi prosesini izləməsi, bunu olduğu kimi dünyaya çatdırması vacib amildir. Biz bununla dünyaya işğalçı dövlətin təcavüzkar simasını göstərə bildik. Jurnalistlər hadisə yerindən görüntülü məlumat verdilər ki, düşmən o torpaqlarda qəbirləri də yerlə-yeksan edib. Bu faktlar Ermənistanın təcavüzkar dövlət olmaqla yanaşı heç bir insani keyfiyyətlərinin olmamasını, barbar olduğunu dünyaya sərgilədi. Mən hesab edirəm ki, bu cür səfərlər işğaldan azad edilmiş bütün ərazilərə təşkil edilməlidir. Həm yerli, həmçinin də xarici media nümayəndələri işğaldan azad edilmiş Azərbaycan torpaqlarının necə viran qoyulduğunu dünyaya faktlarla çəkib, yazıb göstərməlidir. Bu səfərlərin təşkili davamlı xarakter almalıdır. Dünya, beynəlxalq aləm



Dağlıq Qarabağ həqiqətlərini işğaldan azad edilmiş ərazilərin timsalında olduğu kimi görməlidir. Bu mənzərə bizə imkan verir ki, indiyədək bu məsələyə ikili münasibət göstərən dövlətlər, beynəlxalq təşkilatlar fakt qarşısında qalıb reallığı təsdiq etsin, Ermənistanın təcavüzkar dövlət olduğunu, dini, mədəni, tarixi abidələrə, hətta məzarda yatan insanlara qarşı barabarlıq nümayiş etdirdiyini dilə gətirsin".

Ana Vətən Partiyasının sədri Fəzail Ağamalı da səfərin böyük əhəmiyyət kəsb etdiyini söyləyir. Həmsöhbətimiz deyir ki, bu səfər imkan verir ki, ermənilərin işğal dövründə Ağdam şəhərində törətdiyi vəhşilik dünyaya nümayiş etdirilsin. Onun sözlərinə görə, işğaldan azad edilmiş şəhərlərimizə səfərlər ermənilərin törətdiyi vəhşiliyin, barbarlığın, faşist əməllərin və bəşəri cinayətlərin mahiyyətini açmaq üçün son dərəcə vacibdir: "Bundan öncə də Prezident Administrasiyası tərəfindən belə səfərlər təşkil edilib. Düşünürəm ki, bu səfərlərdə əldə olunan informasiyaları təkcə daxili auditoriyanın deyil, həm də beynəlxalq ictimaiyyətin diqqətinə çatdırmaq üçün çalışmalıyıq. Çünki, biz təcavüzkar Ermənistan dövlətinin işğal siyasətindən 30 ilə yaxındır ki, əziyyət çəkmiş xalqıq. Düşmənin başımıza hansı müsibətləri gətirdiyi, insanlıq əleyhinə cinayətləri ilə Xocalı Soyqırımından tanışıq. Amma bunu dünya da bilməlidir. İşğaldan azad edilmiş şəhərlərimizin viranə qoyulmuş mənzərəsi, dağıdılan məscidlərimizi, tarixi abidələrimizi görməklə bu vəhşilikdən xəbər tutmalı, Ermənistana sanksiya tətbiq etməlidir".

Qeyd edək ki, fevralın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yerli və xarici media nümayəndələri üçün mətbuat konfransında da bu məsələnin əhəmiyyətini vurğuladı: "Azərbaycanda bir çox tədbirlər keçirilir və bu tədbirləri işıqlandırmaq üçün xaricdən böyük bir jurnalist qrupu gəlmişdir. Mən onlara təşəkkürümü bildirirəm ki, bu hadisələri, bu soyqırımını işıqlandırmaq üçün bu gün Azərbaycandadırlar. Eyni zamanda, bilirəm ki, onların bəziləri azad edilmiş torpaqlara getmişlər, o dağıntıları öz gözləri ilə görmüşlər və bundan sonra da gedəcəklər. Buna görə bir daha dərin təşəkkürümü bildirirəm". Qeyd edək ki, noyabrın 18-də bir qrup yerli və xarici jurnalist Ermənistanın işğalından azad olunmuş Füzuli şəhərinə səfər edib. Jurnalistlər Füzuli şəhərində Ermənistanın törətdiyi müharibə cinayətlərinin ağır nəticələri ilə tanış olublar. Səfərdə Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev də iştirak edib. Jurnalistlərə məlumat verilib ki, ermənilər Füzulidə yaşayış məntəqələrini, qəbiristanlıqları, tarixi, mədəni abidələri vəhşicəsinə dağıdıblar. Fevralın 25-də isə xarici media nümayəndələrinin işğaldan azad olunmuş Ağdam rayonuna səfəri təşkil olunmuşdur. Səfərdə məqsəd beynəlxalq medianın Xocalı soyqırımı haqqında daha ətraflı məlumatlandırılması olub. Səfər çərçivəsində xarici jurnalistlər Xocalı soyqırımının şahidləri ilə görüşüb, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə yaşanan dəhşəti birbaşa onların dilindən dinləyiblər. Jurnalistlər əvvəlcə işğaldan azad edilmiş Ağdam Cümə məscidində olublar. 1992-ci ildə Xocalı faciəsinin baş verdiyi günlərdə Ağdamda şahidi olduğu dəhşətli mənzərələri əks etdirən fotolarını xarici media nümayəndələrinə göstərən dünya şöhrətli fotoqraf Reza Deqati, erməni faşistləri tərəfindən törədilən bu qətliamın insanlıq əleyhinə yönəldiyini vurğulayıb. Fevralın 27-də Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin və Azərbaycan Respublikasının Gürcüstandakı Səfirliyinin təşkilatçılığı və dəstəyi ilə gürcü jurnalistlər və ekspertlərin Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərinə səfəri təşkil edilib. Martın 1-dək davam edən səfər zamanı Gürcüstanın "Pirveli TV", Mtavari Arkhi, Imedi TV, POS TV kanallarının jurnalistləri səfər çərcivəsində işğaldan azad olunmuş Ağdam, Xocavənd, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Ağdərə və Kəlbəcər rayonları, həmçinin Suqovuşan və İstisuda olublar. Martın 13-də Azərbaycanın bir qrup media orqanının və QHT-lərinin rəhbərləri, blogerlər və ictimai fəallar işğaldan azad olunmuş Ağdam rayonuna səfər edib. Onlar əvvəlcə Ağdamın Baş Qərvənd kəndinin ərazisində yerləşən dəmir yolu xəttinin ətrafının minalardan təmizlənməsi əməliyyatları ilə tanış olublar, daha sonra işğal zamanı erməni vandallarının dağıtdıqları Uzundərə II Şəhidlər xiyabanını ziyarət ediblər. Səfərdə Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev də iştirak edib. Martın 17-də media nümayəndələri işğaldan azad edilmiş rayonlarımıza səfər çərçivəsində Xocavəndin Hadrut qəsəbəsinə gəliblər. Jurnalistlər Azərbaycan əsgərinin qəhrəmanlığı sayəsində düşməndən azad edilən Hadrut qəsəbəsi ilə tanış olublar. Burada jurnalistlərə məlumat verilib ki, Hadrut qəsəbəsinin işğaldan azad edilməsi böyük əhəmiyyət daşıyırdı. Çünki Cəbrayıldan sonra Hadrutun azad olunması "Dəmir yumruq" əməliyyatının davam etdirilməsi üçün xüsusi önəmə malik idi. Ermənistan ordusunun gözləmədiyi istiqamətdən zərbə vuran şanlı ordumuz Cəbrayıldan sonra Hadrutu, daha sonra Füzulini işğaldan azad etdi. Hadrutun azad edilməsindən sonra istiqamət Şuşa idi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin dediyi kimi, Şuşasız bizim işimiz yarımçıq olardı. Yenə də düşmənin gözləmədiyi istiqamətdən Şuşaya yaxınlaşan Azərbaycan əsgəri dağlardan, dərələrdən, sıldırım qayalardan keçərək, qayalara yalın əllə dırmaşaraq bu qədim Azərbaycan şəhərini də işğalçılardan azad etdi. Düşmən məcbur olub kapitulyasiya aktını imzaladı və beləliklə, "Dəmir yumruq" əməliyyatı öz hədəfinə çatmış oldu. Əminliklə söyləmək olar ki, qəhrəman Azərbaycan əsgərinin uğurla həyata keçirdiyi Hadrut əməliyyatı dünyanın hərb elmində xüsusi yer tutacaq. Jurnalistlər Füzulinin işğaldan azad olunmuş ərazilərinə, dünyanın ən qədim yaşayış məskənlərindən olan Azıx mağarasına gediblər.

***Mələk Eyvazlı***

**Səhifə Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**




# DİM müsabiqə elan etdi

***Xarici dillər üzrə doktoranturaya növbəti qəbul və fəlsəfə doktoru imtahanlarından başlayaraq namizəd və iddiaçıların xarici dilləri bilmə səviyyəsi qiymətləndirilərkən onların digər dil bacarıq və vərdişləri ilə yanaşı, danışıq sahəsində bacarıq və vərdişlərinin yoxlanılması da nəzərdə tutulur.***

Unikal.org xəbər verir ki, bu nəzərə alınaraq Dövlət İmtahan Mərkəzi doktorantura səviyyəsinə xarici dillər (ingilis, fransız və alman dilləri) üzrə qəbul və fəlsəfə doktoru imtahanları üçün yoxlama-ölçmə materiallarının hazırlanması, namizəd və iddiaçıların danışıq bacarıqlarının yoxlanılıb-qiymətləndirilməsi işinə müqavilə əsasında mütəxəssislərin cəlb olunması məqsədilə müsabiqə elan edir.

Müqaviləçi-mütəxəssislər doktorantura səviyyəsinə qəbul və fəlsəfə doktoru imtahanlarında xarici dillər (ingilis, fransız və alman dilləri) üzrə istifadə ediləcək yoxlama-ölçmə materiallarının hazırlanması, həmçinin namizəd və iddiaçıların danışıq bacarıqlarının yoxlanılıb-qiymətləndirilməsi üçün aşağıda qeyd olunan funksiyalardan birini və ya bir neçəsini yerinə yetirməlidirlər:

- sifariş əsasında yoxlama-ölçmə materiallarını tərtib etmək;
- yoxlama-ölçmə materiallarının ekspertizasını həyata keçirmək;
- danışıq bacarıqlarını yoxlamaq üçün tələb olunan imtahan materiallarının tərtibində, həmçinin namizədlərin və iddiaçıların danışıq bacarıqlarının yoxlanılıb-qiymətləndirilməsində iştirak etmək.

Doktorantura səviyyəsinə xarici dillər üzrə qəbul və fəlsəfə doktoru imtahanlarında istifadə ediləcək yoxlama-ölçmə materiallarının hazırlanması və danışıq bacarıq və vərdişlərinin bilavasitə qiymətləndirilməsi ilə əlaqədar görülən işlərə cəlb edilmək üçün ingilis, fransız və alman dilləri üzrə beynəlxalq dil imtahanlarının (IELTS, TOEFL, DELF, DALF, TEST-DAF və s.) hər hansı birində iştirak etmiş və danışıq komponenti üzrə Ümumavropa dil çərçivə sənədinin (CEFR) C1 və ya daha yüksək səviyyəsinə müvafiq dil sertifikatına sahib olan, müvafiq dillər üzrə fəlsəfə doktoru və ya daha yüksək elmi dərəcəyə malik olan, yaxud da doktoranturada (dissertanturada) təhsilini davam etdirən və ya təhsilini başa vurmuş və xarici dildə yüksək danışıq bacarıq və vərdişlərinə sahib olan şəxslər, həmçinin danışıq bacarıqlarının qiymətləndirilməsi üzrə təcrübəsi olan dil daşıyıcıları müraciət edə bilərlər. Müraciət edənlər xarici dili mükəmməl bilməli, yüksək danışıq bacarığına və gözəl tələffüzə malik olmalı, Microsoft Office proqramlarında sərbəst işləməyi bacarmalıdırlar. Bütün dil komponentləri, o cümlədən danışıq üzrə C1 və C2 səviyyələrinə uyğun sertifikata malik olanlara üstünlük verilir.

DİM tərəfindən işə cəlb olunan mütəxəssislər yoxlama-ölçmə materiallarının məxfiliyini qorumağı öhdələrinə götürməli, nəzərdə tutulan öhdəlikləri keyfiyyətlə və vaxtında yerinə yetirməlidirlər. Müraciət edən şəxslərin yoxlama-ölçmə materiallarının tərtibi, ekspertizası, danışıq bacarıqlarının qiymətləndirilməsi sahəsində təcrübə qazanmaları üçün DİM tərəfindən müvafiq treninqlərin və praktik məşğələlərin keçirilməsi nəzərdə tutulur.

İşə cəlb olunanların təyinatı, xidmət haqqı və iş qrafiki müqaviləyə əsasən müəyyən olunur.

Maraq göstərən şəxslər verilən CV formasını (yüklə) tam şəkildə dolduraraq və xarici dil üzrə sertifikatlarını skan edərək aprelin 20-dək doktorantura@dim.gov.az elektron poçt ünvanına mövzu hissəsində "Doktorantura_elan" yazıb göndərə bilərlər. Yuxarıda göstərilən tələblərə cavab verən namizədlər müsahibəyə dəvət olunacaqlar.

# YAP yeni hədəflərə doğru inamla addımlamaqda davam edir

## İsmət Məmmədov: "Partiyamız öz fəaliyyətini zamanın tələblərinə və çağırışlarına uyğun formalaşdıran xalq partiyasıdır"

***Hakim Yeni Azərbaycan Partiyasının sonuncu qurultayında bir sıra mühüm dəyikliklərin olması müsbət qarşılanıb. İstər idarəetmədə, istər rəhbər strukturlarda, istərsə də kadrlarla bağlı dəyişikliklərin olması yeni mərhələ açır.***

Bu barədə fikirlərini "Unikal"la bölüşən 3 saylı şəhər klinik xəstəxanasının terapiya şöbəsinin müdiri, YAP yerli təşkilatının sədri İsmət Məmmədov deyib ki, Yeni Azərbaycan Partiyasının VII qurultayı həm ölkəmiz, həm də partiyamız üçün əlamətdar və mühüm ictimai-siyasi hadisədir. Onun fikrincə, YAP yeni hədəfələrə doğru inamla addımlamaqda davam edir: "YAP cəmiyyətin bütün təbəqələrindən olan insanları öz sıralarında birləşdirən ümumxalq partiyasıdır və ölkə daxilində ictimai-siyasi münasibətlərin inkişafında, həmçinin Azərbaycanın tərəqqisində mühüm rol oynayan aparıcı qüvvədir. Bilirsiniz ki, partiyamızın VI qurultayı 3 il əvvəl - 2018-ci ildə keçirilmişdi. O zamandan bu günə qədər bir çox dəyişikliklər baş verib. Ölkəmizdə də Azərbaycanın ərazi bütövlüyü və tarixi ədalət bərpa olunub. Yeni Azərbaycan artıq yeni reallıqlar yaradıb. Bu reallıqlar həm ölkəmiz, həm də bütövlükdə region üçün yeni perspektivlər vəd edir, yeni çağırışlar yaradır. Təbii ki, Yeni Azərbaycan Partiyası da öz fəaliyyətini zamanın tələblərinə və çağırışlarına uyğun formalaşdıran xalq partiyasıdır. Ona görə də bütün bu və digər amillər yeni mərhələnin əsasını qoyduğu üçün Yeni Azərbayca Partiyasının da növbəti qurultayını zəruri edən faktorlar olub. Düşünürəm ki, YAP yeni dönəmdə də üzərinə düşən vəzifələri layiqincə yerinə yetirərək ölkəmizin dinamik inkişafına öz müstəsna töhfəsini verəcək".

Müsahibimiz onu da qeyd edib ki, Yeni Azərbaycan Partiyasının VII qurultayında partiyanın rəhbər strukturlarının yenidən formalaşdırılması ilə bağlı əhəmiyyətli qərarlar qəbul edildi. Partiyanın yeni Nizamnaməsi təsdiq edildi, YAP-ın İdarə Heyəti, Təftiş Komissiyası, Veteranlar Şurası seçildi və bir sıra siyasi partiyaların Yeni Azərbaycan sində partiyanın idarə olunmasında, partiya fəaliyyətinin tənzimlənməsində müvafiq addımların atılması zərurəti yaranmışdı. Bütün bu məsələlər YAP-ın VII qurultayında təsdiq edilən yeni nizamnamədə öz əksini tapıb. Bütövlükdə, sözügedən addımlar partiya həyatında daha çevik və effektiv idarəetmə mexanizminin formalaşdırılması baxımından böyük əhəmiyyətə malikdir. Yeri gəlmişkən, Yeni Azərbaycan Partiyasının yeni Nizamnaməsinə uyğun olaraq, partiyamızın Sədri cənab İlham Əliyevin Sərəncamı ilə Mehriban xanım Əliyevanın partiya Sədrinin birinci müavini, Tahir Budaqovun partiya Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri, Əli Əhmədovun isə partiya Sədrinin müavini təyin edilməsi YAP-ın fəaliyyətində yeni keyfiyyət dəyişikliklərinin əsasının qoyulması və qarşıdakı dövrdə ardıcıl nailiyyətlərin əldə olunması baxımından xüsusi önəm daşıyır".

İ.Məmmədov sonda onu da qeyd edib ki, Mehriban xanım Əliyevanın partiyanın Sədrinin birinci müavini kimi fəaliyyəti YAP-ın



parlament və prezident seçkiləri keçirilib, Prezident İlham Əliyevin rəhbərliyi ilə müxtəlif sahələri əhatə edən sistemli, genişmiqyaslı və kompleks islahatlar reallaşdırılıb. Eyni zamanda, Azərbaycanın gələcək inkişafı üçün yeni hədəflər və strateji prioritetlər müəyyənləşdirilib, bu istiqamətdə addımlar atılıb, ciddi nailiyyətlər əldə olunub. Ən əsası, Azərbaycan Ordusu 44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandanımız cənab İlham Əliyevin rəhbərliyi ilə möhtəşəm qələbə qazanıb. Nəticə- Partiyasına qoşulmasına dair müraciətlərinə baxıldı: "dövlətimizin başçısı, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevə bizə göstərilən etimada görə dərin təşəkkümüzü bildirir və qeyd etmək istəyirəm ki, bu etimadı layiqincə doğrultmağa çalışacağıq. Öncəliklə qeyd edim ki, partiyanın Nizamnaməsinin qəbul olunmasından xeyli müddət keçmişdi. Həmin dövr ərzində Yeni Azərbaycan Partiyası çox mühüm nailiyyətlərə və irəliləyişlərə imza atıb. Eyni zamanda, yeni islahatlar və dəyişikliklər çərçivə- nüfuzunun və gücünün, Yeni Azərbaycan Partiyasına ictimai dəstəyin daha da artması baxımından olduqca mühüm əhəmiyyətə malikdir: "İnkaredilməz həqiqətdir ki, Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın milli maraqlara, bəşəri dəyərlərə əsaslanan çoxşaxəli fəaliyyəti həm ölkəmizdə, həm də beynəlxalq səviyyədə çox yüksək qiymətləndirilir, dərin rəğbətlə qarşılanır. Mehriban xanım Əliyeva ötən müddət ərzində milli maraqları daim üstün tutaraq xalqa və dövlətə ləyaqətlə xidmət edib, vətəndaş məmnunluğunun artmasına, əhalinin rifahının daha da yaxşılaşmasına xidmət edən mühüm təşəbbüslərlə çıxış edib, xüsusilə də sosial məsələlərin həllinə yüksək diqqət göstərib. Bunlarla yanaşı, fəaliyyəti humanizm və vətənpərvərlik prinsiplərinə əsaslanan Mehriban xanım Əliyeva ölkəmizin müsbət beynəlxalq imicinin daha da möhkəmlənməsinə, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinin diqqətinə çatdırılmasına müstəsna töhfələr verib. Ona görə də qeyd etdiyim kimi, Mehriban xanım Əliyevanın partiyamızın Sədrinin birinci müavini təyin edilməsi yeni mərhələdə Yeni Azərbaycan Partiyasının inkişafına təkan verəcək, partiyamızın və ölkəmizin yeni nailiyyətlər əldə etməsində mühüm əhəmiyyətə malik olacaq".

***Hüseyn İsgəndərov***

# Yeddi para kənddə Novruz

***Quba bölgəsinin Alpan və bir neçə ətraf kənd camaatının adət- ənənəsi Şərq tipologiyasına mənsub olub; türklük-müslümanlıq- atəşpərəstlik-bütpərəstlik elementləri toplusudur. Araşdırdığım qədərincə Alpan (Alban) türklərinin gələnəklərinin türk boylarından daha çox Axıska (Ağ saka) türklərinin (qədim buntürklərin) adət-ənənələrinə oxşarlığı bilinməkdədir. Bəşəriyyətə məlum olduğuna görə, dünya həyatına məna və yaşam bəxş edən dörd əsas təməl ünsür olaraq; hava- inam, su-ədalət, od- eşq, torpaq- elm timsalında yaradılışın cövhərlərini təşkil edirlər...***

Novruzqabağı çərşənbələr "yel" (əzəl), "sel", "kül", "gül" (axır)- əsasən bu ilaxır çərşənbə bizim kəndlərdə bayram təmtərağı ilə keçirilərdi. Buradan göründüyü və fars, kürd təsirindən kənarda qalan alban- türk boylarında olduğu kimi, Alpan ətrafı 7 para kənddə çərşənbələrin özlərinə məxsus adları və ardıcıllığı vardır. Həmyerlimiz, mərhum prof. Azad Nəbiyevin Novruz, çərşənbələr haqqında mülahizələri qarışıq, nöqsanlı, tədqiqatçı- jurnalist Güllü Yoloğlunun təqdim etdiyi araşdırmanın isə hansı xalqın, bölgənin gələnəkləri ilə bağlılığı aydın deyildir.

Birincisi əzəl-yel-hava çərşənbəsidir ki, öncə havanın mövcudluğuna və ya yaradılmasına (el dilində "yellər əsməsə sellər daşmaz") əsaslanır, belə ki, yaradılmış hər bir canlı varlığa yaşaması üçün ilk növbədə hava lazım olur və insan da uca göylərə- göy Tanrıya inamsız insan kimi yaşaya bilmir. Bu çərşənbə çillə çıxdı , yellər əsdi, boz atlı Xızır gəldi, bozqurd uladı, boz ay girdi deyimləri ilə anılar, boş çərşənbə sayıldığı üçün məxsusi qeyd olunmaz, ev-eşikdə təmizlik işləri görülər, xalça- palaz qar üstə çırpılıb havaya verilər, "qarı ayaz qonmasın" deyə kiçik qızlara qırmızılı don geyindirər və ya biləklərinə qırmızı sap bağlayarlar və s.

İkinci sel -su çərşənbəsidir ki, suyun havadan sonra ikinci yaradılmış və ya gərəkli nemət sayılmasına (el dilində "hava su təki gərəkli") və ədalətsiz (susuz) cəmiyyətin bar verməyəcəyi düşüncəsinə əsaslanır. Bu çərşənbə su bulanan, qan qaynayan, səməni qoyulan, kirli yuyulan və s. kimi anılar. Gəlinlər, qızlar obaşdan suya gedər, "ağırlığımı- bağırlığımı sular alsın, axarlığım- baxarlığım məndə qalsın", "azarımı- bezarımı su aparsın, sağ canımı bəy evinə toy aparsın və ya atıl-batıl su çərşənbə, bəxtim açıl bu çərşənbə" deyib üç dəfə axar su üstündən atlanar, bulaqdan təzə su gətirib "təzə ildə işlərimiz su kimi axsın", "azar- bezarımız canımızdan bu su ilə çıxsın" niyyətləri ilə hərəyə üç qurtumdan ev əhlinə içirərlər.

Üçüncü kül- od çərşənbəsidir ki, Günəşin-işığın yaradılmasına, odun- çaxmaq daşının tapılmasına və ya istiliyin- hərarətin- nurun üçüncü gərəkli, həyati əhəmiyyətli nemət olaraq təsirinin artmasına (el dilində "tonqal çatılmasa güllər açmaz") və eşqsiz (odsuz- işıqsız) dünyanın dəyəri yoxdur düşüncəsinə əsaslanır. Bu çərşənbə tonqal qalanan, baca təmizlənən, hədik qaynadılan, qovurğa qovrulan və s. kimi anılar. Çərşənbə axşamı şər vaxtı evdə üzərlik tüstülədib "cin şeytanı, bəd ruhları, nəfsləri evdən çıxarıram" niyyətilə ocaqlardan közlü kül götürüb Bismillahla yerə tökərək üzərində tonqal qalayar, içinə üzərlik atar və kişilər növbə ilə üstündən "ağırlığım-bağırlığım, azar-bezarım odlara, dərin-dərin qatlara, donuzlara, itlərə. Topağın, odun gücü, ağacın, otun gücü, dizlərimə, qollarıma, qəlbimə" deyib 3 dəfə atlanar. Tonqaldan qalan külün bir qismi də həmən pis ruhların, nəfslərin geri qayıtmasının qarşısını almaq üçün evlərin, qapıların qənşərinə səpilərdi.

Dördüncü ilaxır -gül- yer çərşənbəsidir ki, torpağ üstündə təbiətin yaradılışına və ya canlanmasına, oyanmasına (el dilində "gün qalxmasa buğ düşməz") və elmsiz (torpaqla, təbiətlə təmassız) aləmlər bulunmaz, qovuşmaz düşüncəsinə əsaslanır. Bu çərşənbə şam qoyulan, novruz gülü, muraz günü, bayram gəzilən, buğ düşən və s. adlarda anılır. Pirlərdə, həyətlərdə, evlərdə adambaşına niyyət tutub, dua oxuyub şam yandırır, şirniyyat, plov, səməni bişirirlər. Oğul- uşaq qaranlıq düşəndən bayram gəzib ("həcələr- hücələr, bayram gəzər gecələr, qapınızı döyməsin ağrıacılar" deyərək qapı taqqıldatmaqla ) şirniyyat üçün, qoz-fındıq üçün qurşaq tullayar, torba, çanta atar, böyüklərsə gündüzdən qonum-qonşuya, yoldan ötənə şirni paylayar. Çərşənbə günü səhər tezdən "pislik getsin, yaxşılıq gəlsin", "qıtlıq getsin, bolluq gəlsin" niyyətləri, duaları ilə evin dörd tərəfini süpürüb təmizləyər, su çiləyər və buğda səpərlər, yeddi çəpərdən çöp yığıb üzərliklə birlikdə yandıraraq tüstüsünü evə və əhlinə, ev heyvanlarına verərlər, habelə od və su çərşənbələrinin bəzi əməlləri təkrarlanan mərasimlər, şənliklər keçirməklə bayram edərlər.

Novruz günü isə Günəşin- işığın, odun- hərarətin üstünlük qazandığı və ilk insanın gildən yaradıldığı və ya Adəmlə Həvvanın bağışlanaraq qovuşduğu, habelə Nuhun gəmisinin nicat tapdığı gün və s. olaraq təsəvvür edilir. Bayram axşamı ocaqlarda yağ dağlamaqla, evdən sədəqə çıxarmaqla, uşaqlara təzə nəsə almaqla, qəbirləri ziyarət etməklə, təpə torpaq altından lağım atıb hazırladığları dizboyu dəlikdən sürünərək keçməklə ("torpaqdan keçdim, qada- bəladan sıyrıldım", "dəlikdən keçdim, darlıqdan qurtuldum" deyərək) yola verilər. Bayram günləri isə kasıbın olanından 7 lövün səmənili süfrə salaraq qonaq qarşılayar, bayram xonçasıyla nişanlı evinə qonaq gedilər, yelləncək asmaqla, at çapmaqla, beldən aşdı, keçəl- kosa, qurşaq tutdu oynamaqla, yumurta döyüşdürməklə, sim pəhləvanı oynatmaqla, "dəli dərviş" oxutmaqla, "qoşalülə" guruldatmaqla, küsülü barışdırmaqla və s. əməllərlə, oyunlarla qeyd edilirdi.




Novruzla başlayan yeni Günəş ilinin ilk günü yaz, ikinci günü yay, üçüncü günü payız, dördüncü günü qış fəslindən sayılmaqla bu ildə bu fəsillərin necə keçəcəyinin göstəricisi olduğuna inanılmaqdadır. Yazın, Novruzun "mart çıxdı-dərd çıxdı" deyilən bir gün də vardır ki, adətən yazın ikinci çərşənbəsində səmənini süfrədən götürüb axar, gur suya ataraq, torpağa toxumu, şuma şitili həmin gün və ya həmin günün səhəri əkməklə onun bərəkətli, məhsuldar olacağına inanılmış, deyilənlərə inansaq hətta sınanılmışdır.

Bu əlamətlər, Şumerdən başlayan bu bayramın İslam- Quran bilgilərinə, dünyagörüşünə nisbətən fərqliliyini, Zərdüştilik (maq) və Şamanlıqla (qam) bağlılığını bir daha təsdiq etməklə yanaşı, keçmişimizin Gök Tanrı inancından günümüzün Tək Tanrı inancına, Tufandan sonra Türkün dağlardan enərək Yer üzünə yayılmasına- Ergənəkona (Erkən akına), köçəriliyimizdən oturaqlığımıza qədər bir çox gələnəkləri əhatə etdiyini göstərir. Nə yazıq ki, bu yazdıqlarımın və yazmadıqlarımın az qala yarıya qədəri indi ancaq yaşlıların yaddaşlarında yaşayır, həyatımızda tətbiq edilərək gələcək nəsillərə ötürülmür...

***Qələmə aldı:***
***Cabir Alpoğlu Albantürk***



# Ermənilər faşizm ideyalarına sitayiş edir

***Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə səfərləri bir qayda olaraq həm ölkə daxilində, həm də xaricində ciddi rezonans doğurur, müasir dövrümüzün ən önəmli hadisələrindən biri kimi tarixə köçür.***

Bu sözləri millət vəkili, Avronest Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin rəhbəri Azər Kərimli deyib. Millət vəkili qeyd edib ki, dövlətimizin başçısı tərəfindən başlanğıcını Zəfər yolundan götürən və Hadrut-Cəbrayıl-Şükürbəyli avtomobil yoluna birləşən Füzuli-Hadrut avtomobil yolunun təməlinin qoyulması Qarabağın yol infrastrukturunun yenidən qurulması və inkişafı baxımdan mühüm əhəmiyyət daşımaqla yanaşı, işğaldan azad edilmiş ərazilərimizə Böyük Qayıdışın təmin edilməsi baxımından mühüm əhəmiyyət kəsb edir: "Həyata keçirilən infrastruktur layihələri nəticəsində Füzuli rayonu Qarabağın nəqliyyat habına, Qarabağ isə regionun iqtisadi və mədəni mərkəzinə çevriləcək".

Azər Kərimlinin sözlərinə görə, Prezident İlham Əliyevin Azıx mağarası, Alban məbədi və Azərbaycan əsgərlərinin yüksək mənəvi keyfiyyətlərilə bağlı səsləndirdiyi fikirlərin uzaq və yaxın tariximizdəki həqiqətləri əks etdirməklə bərabər, göz önündə olan erməni ultramillətçiliyini, vandalizmini görmək istəməyən qüvvələrə ünvanlanmış mesaj kimi qəbul olunmalıdır: "Ermənilər 30 ilə yaxın bir zaman kəsiyində işğal etdikləri Azərbaycan torpaqlarında daş üstə daş qoymayıblar, hətta yaşadıqları, qanunsuz olaraq məskunlaşdırdıqları əraziləri belə abadlaşdırmayıblar, yalnız dağıdıblar, viran qoyublar. Bu isə sübuta yetirir ki, azərbaycanlılara, türklərə qarşı vəhşi aqressiya, nifrət üzərində köklənən erməni toplumunun yeganə hədəfi xalqımızın izlərinin bu torpaqlardan silinməsi olub. 30 ilə yaxın bir müddətdə Azərbaycan torpaqlarının sərvətlərini talan edən, "məğubedilməzlik" mifi yaradan ermənilər hətta Ermənistanın sərhədləri çərçivəsində normal, hüquqi dövlət qurmayıblar. Öz torpaqlarında öz xalqının rifahını təmin etməyən, onların kütləvi şəkildə başqa ölkələrə köçməsinə zəmin yaradan bir dövlətin başqa dövlətlərin torpaqlarına göz qoyması nonsensdir, xəstə təfəkkürün məhsuludur".

Millət vəkili ermənilərin alban kilsəsini aşağılamalarının da onların xəstə təfəkküründən qaynaqlandığını bildirib: "Ermənilər hətta xristianlığın özünə qarşı belə qeyri-səmimi və saxtakardırlar. Qriqoryan kilsəsinin xristian və bütövlükdə dünyəvi dinlər aləmində fitnə-fəsad mənbəyi olduğunu, özlərini "xristianlığı hər kəsdən öncə qəbul edən" bir xalq kimi dünyaya təqdim etməklə bəşər tarixinin ən böyük yalanlarını uydurmağa qadir olduqlarını nəzərə alsaq, o zaman ermənilərin ultramillətçi kəsiyinin xristianlığa yox, irqçilik, faşizm ideyalarına sitayiş etdiklərini daha dərindən anlaya bilərik".

Azər Kərimli qeyd edib ki, cənab Prezident də qeyd etdiyi kimi, Azərbaycan əsgəri yüksək mənəvi dəyərlərin daşıyıcısıdır: "Azərbaycanın qəhrəman əsgər və zabitləri döyüş meydanında nümayiş etdirdikləri rəşadətlə, mülki şəxslərə qarşı sergilədikləri humanizmlə xalqımızın bəşər tarixində ən mədəni və ən qəhrəman xalqlarından biri olduğunu sübuta yetirdilər".



## Ermənistan hakimiyyəti erkən seçkilərə gedir

***Ermənistan hakimiyyəti erkən parlament seçkilərinə hazırlaşır.***

Bakıvaxtı.az azvision.az-a istinadən xəbər verir ki, bunu ölkənin ətraf mühit naziri Romanos Petrosyan deyib.

"Düşünürəm ki, bu gün və ya sabah qərar veriləcək, tarix açıqlanacaq", - deyə erməni nazir əlavə edib.

Onun sözlərinə görə, buna müxalifətin heç bir ciddi təsiri olmayıb, hakimiyyət daxili siyasi proseslərin həllinin yalnız erkən parlament seçkiləri yolu ilə mümkün olduğunu hesab edir.

## Tanzaniya prezidenti vəfat edib

***Tanzaniya prezidenti Con Maqufuli dünyasını dəyişib.***



Bu barədə ölkənin vitse-prezidenti Samia Hasan Suluhu açıqlama verib.

O bildirib ki, ürək problemindən əziyyət çəkən dövlət başçısı paytaxtdakı Mzena xəstəxanasında vəfat edib.

61 yaşlı prezident bir müddət idi ki, yoxa çıxmışdı.

Bundan əvvəl Tanzaniya müxalifətinin lideri Tundi Lisu onun Keniyada xəstəxanaya yerləşdirildiyini, koronavirus və ürək xəstəliyindən əziyyət çəkdiyini bildirimişdi. Lakin bu məlumatlar rəsmi səviyyədə təkzib olunmuşdu.

## Çanaqqala zəfərinin 106 illiyi qeyd olunur

***Türkiyədə Çanaqqala zəfərinin 106 illiyi qeyd olunur.***

"Unikal" Türkiyə KİV-ə istinadən xəbər verir ki, 18 mart 1915-ci ildə birləşmiş işğalçı qüvvələrə qarşı qəti qələbə qazanılıb.

Quruda Anadoluya daxil olmaq istəyən qüvvələr tamamilə dəf edilib. Bu qələbədən sonra tarixi "Çanakkale geçilmez!" şüarı yaranıb.

# "İngilis bayrağı" yenə öz tərəfinə əsir - Yeni dünya düzəni haqda şərh

## Zərdüşt Əlizadə: "Son Qarabağ müharibəsi zamanı Britaniya Azərbaycanın xeyrinə vacib rol oynadı"

***Böyük Britaniya 2020-ci il 31 yanvar tarixində 47 il üzvü olduğu Avropa Birliyini tərk etdi. Keçid müddəti üçün olan öhdəlik də ötən il dekabr ayının 3-də bitdi. Buna səbəb ada dövləti ilə qitə dövlətləri və bütövlükdə birlik arasında sosial, iqtisadi, siyasi maraqlar toqquşması oldu. Artıq 2021-ci ilin əvvəllərindən, əl-qolu bir az da açılmış Birləşmiş Krallığın Yaxın Şərqdə, Qafqazda, Ukraynada əməli addımlar ataraq dünyada siyasi fəallığını artırdığı müşahidə olunur.***

Bu aktivliyin dünyaya və Azərbaycana təsirləri ilə bağlı Bakivaxti.az-a açıqlama verən politoloq Zərdüşt Əlizadə bildirdi ki, Britaniya ingilis dilində qısaca Kommonvels adlanan Millətlər Birliyi təskilatının nüvəsidir: "Birliyə sabiq Britaniya müstəmləkələri daxildir. Bu, çox mötəbər və möhtəşəm bir təşkilatdır, üzv dövlətlərin mədəniyyət və iqtisadiyyat sahəsində sıx əməkdaşlıqları var. Yəni İngiltərə heç bir halda tək deyil. Qaldı onun Avropa Birliyindən çıxmağının səbəbi, bu, onunla bağlıdır ki, Avropa Birliyi iki yol ayrıcında idi. Bir yol onu daha sıx ticari, iqtisadi, siyasi birliyə aparırdı, yəni Avropa Birliyi Birləşmiş Avropa Ştatları olacaqdı. Bəli, dövlətlərin müstəqilliyi müəyyən dərəcədə saxlanacaqdı, amma onların yaxşı suveren hüquqları veriləcəkdi vahid mərkəzə. Bu, Britaniyanı qane etmədi. İkinci yol ondan ibarət idi ki, Avropa Birliyi indiki vəziyyətdə qalır, yəni iqtisadi nəhəng, amma siyasi cirtdan kimi. Bu o deməkdir ki, Avropada hər hansı bir siyasi qərar çıxarılanda bu qərar gərək 28 hökümət, 28 parlament tərəfindən təsdiq olunsun. Bu da çox uzun çəkir, yəni operativlik təmin olunmur, güclü, səmərəli siyasət aparmaq mümkün olmur. Ona görə də seçim qarşısında qalan bir sıra Avropa dövlətləri vahid valyuta yaratdılar. Avro isə elə bir maliyyə vahididir ki, onun məzənnəsini mərkəzi bank və dövlətlər müəyyənləşdirir. İngiltərə bu avro ittifaqına qatılmadı və başqa bir çox məsələlərə, o cümlədən vahid konstitusiya məsələsinə fərqli münasibət göstərdi. Yəni, İngiltərə gördü ki, o, qitə birliyinin üzvü olmaq istəmir, ona görə referendum keçirdi, demokratik şəkildə birlikdən çıxdı".

Politoloqun fikrincə, İngiltərə indi əlahiddə bir siyasət yürüdür: "Təbii ki, onun, əvvəlki kimi, Birləşmiş Ştatlarla çox sıx müttəfiqlik əlaqələri olacaq, Avropa Birliyi ilə də yaxın əlaqələrini saxlayacaq, amma artıq onun qərarları London üçün icbari olmayacaq. İndi London tam müstəqil iqtisadi-siyasi kurs götürüb. Britaniyanın Kommonvels təşkilatı çərçivəsində yaxın çevrəsi var, həmçinin, bütün dunyada bir çox dövlətlərlə olduqca sıx əlaqələri var, o cümlədən Türkiyə ilə, Azərbaycan ilə münasibətləri yaxşıdır. Britaniya şirkətləri bütün dünyada işləyir, Sinqapur, Honkonq, Malayziya və Hindistanda, Afrika qitəsində İngiltərənin güclü mövqeləri var. İngiltərə ərazi və əhali baxımından nəhəng deyil, amma onun möhtəşəm tarixi keçmişi, yüksək elmi, texnologiyası, intellektual imkanları, keyfiyyətli təhsili, səhiyyəsi, güclü kəşfiyyat və ordusu var. Yəni, bu qətiyyən Avropadan necəsə asılı olan dövlət deyil, Avropayla bərabər səviyyədə rəqabət apara bilən bir dövlətdir".

Zərdüşt Əlizadə Ukraynada müharibə təhlükəsinin artdığı bu günlərdə Mİ-6 əməkdaşlarının sözügedən qaynar nöqtədə olduqları, britaniyalı hərbi müşahidəçi və mütəxəssislərin əməliyyat şəraitini öyrəndikləri və Ukranya hərbçilərinin döyüş hazırlığını yoxladıqları barədə mətbu məlumatlara da münasibət bildirdi:

"İngiltərə sabiq imperiyadır. Onun köhnə əməlləri qalıb, ənənəvi təsir dairələri qalıb. Məsələn, Liviyada müharibə olanda Britaniya xüsusi əməliyyatlar keçirdi, Suriyada da müəyyən fəallığı oldu. Son Qarabağ müharibəsi zamanı Britaniya gözəçarpan və vacib rol oynadı. Müharibənin ilkin mərhələsində Fransa, Amerika bizə



qarşı qətnamə lahiyəsi təqdim elədi, Britaniya isə onun qarşısını aldı. Düzgün olaraq vəziyyətin kimin xeyrinə inkişaf edəcəyini gözlədi və bu da Azərbaycanın işinə yaradı. İndi də Ukrayna. Ukrayna xalqı ölkəsinin ərazi bütövlüyünü bərpa etmək, Rusiyanın dəstəklədiyi separatçıları kənarlaşdırmaq istəyir. Rusiya burda şivən qoparır. Beynəlxalq hüquq baxımından Ukrayna haqlıdır. O, birinci müharibəni uduzdu, indi isə çalışır öz ərazilərini, əvvəla, dinc yolla geri alsın, ikincisi, bu alınmasa, Rusiya buna razı olmasa, münaqişəni hərbi yolla həll eləsin. Ukrayna hökuməti döyüş qabiliyyətli ordu hazırlayır, silahlanır, təlim keçir, müəyyən əməliyyat planları hazırlayır. Zəngin təcrübəsi olan Britaniya hərbçiləri, ola bilər ki, qarşılıqlı razılaşma əsasında gəlib Ukrayna ordusunun hazırlığını yoxlayır, bu da adi bir şeydir".

Zərdüşt Əlizadə hesab eləmir ki, Birləşmiş Krallığın dünya miqyasında hərbi-siyasi və diplomatik fəallığını artırması onun Avropa Birliyindən çıxması ilə bağlıdır: "Britaniya Avropa Birliyinin üzvü olanda Avropa Birliyinin üzvləri ilə birlikdə Liviyada fəallıq göstərirdi; yerli hökumətə sadiq qüvvələri o da, Fransa da, İtaliya da bombalayırdı; Amerika sursat verirdi və Britaniyanın xüsusi təyinatlıları əməliyyat aparırdı. İngiltərə hər zaman qaynar nöqtələrdə münaqişələrin yaradılmasında, onların idarə olunmasında fəal olub, silah satıb, digər siyasi dividendlər qazanıb. İmperiyaların siyasəti həmişə bu olub, ağılsız, səfeh xalqlar da, bəzi böyük dövlətlər də bu cür siyasətin qurbanı olublar. Məsələn, bizim region xalqlarını bir-birinə düşmən ediblər. Olmazmı ki, dinc oturaq, birgə işləyək, çörək kəsək, şənlik eləyək, dost olaq, qonşuluq edək?! Bunun əvəzinə bir-birimizi söyürük, didirik. Buna da təhrik edən böyük dövlətlər, imperiyalar olur. Binayi-qədimdən belədir: parçalayıb hökm sürürlər. Bizim bölgədə rus imperializmi var idi, amma digərləri də - Amerika, Fransa imperializmləri kənarda durmamışdılar və mütəmadi olaraq yanan tonqala ele hey yanacaq tökürdülər. Xatırlatmaq istəyirəm ki, bizim əhalinin mütləq hissəsini ermənilər öz yurdundan-yuvasından qovanda ABŞ konqresi 907 nömrəli düzəliş qəbul elədi, bizə qarşı sanksiyalar qoydu. Ondan qabaq, 1989-cu ildə ilk erməni hücümları olanda və 200 min azərbaycanlı Ermənistandan qovulanda on yeddi amerikan konqresmen sovet liderinə müraciət eləmişdi ki, sən erməni xalqını azərbaycanlılardan qoruməlısan. Qovulan biz, amma onlar deyirdilər ki, amandır, erməniləri incitməyə qoymayın...

İndinin özündə, çox sükür ki, müharibədə qalib gəlmişik, yoxsa bizim beynəlxalq hüquqlarımızı heç kim tanımaq istəmirdi. Biz öz gücümüzlə, öz ağlımızla torpaqlarımızı qaytardıq. Eşq olsun əsgərlərimizə! Bu məsələdə Britaniya Azərbaycanın tərəfində oldu bu dəfə, amma ikinci dəfə, ola bilsin ki, olmasın. Vəziyyət dəyişər, başqa qərar verərlər. Onda Amerikanın başı qarışmışdı seçkiyə, pandemiyaya, heç kəs heç kəsi axtarmırdı. Britaniya müstəqil qərar qəbul elədi və Azərbaycanı müdafiə elədi. Bu o demək deyil ki, biz buna güvənib öz imkanlarımızdan kənara çıxmalıyıq. Öz imkanımız çərçivəsində hərəkət etməliyik və əldə olan imkanlardan yararlanıb müşküllərimizi həll etməliyik. Nə İngiltərə, nə Türkiyə, nə Avropa, nə də Amerikaya güvənib hərəkət eləməməliyik. Öz iqtisadi, siyasi, hərbi düşüncəmiz, sözümüz, əməlimiz olmalıdır".

***Bəhruz Salmanov***

**Ermənistan-Azərbaycan, ərazilərin işğaldan azad olunması haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi.**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# İşğaldan azad olunmuş ərazilərin minalanması Qarabağ reallıqlarını nümayiş etdirməyə mane olur

## Hafiz Səfixanov: “Ermənistan minalanmış ərazilərin xəritəsini nə qədər tez Azərbaycana versə, Azərbaycan dağıdılmış tarixi, dini, mədəni abidələrlə bağlı siyahını o qədər də tez hazırlaya bilər, onları dünyaya nümayiş etdirər”

***44 günlük müharibə dövründə Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etməsi Dağlıq Qarabağ həqiqətlərinin dünyaya olduğu kimi çatdırılmasına geniş imkan yaratdı. Düşmənin viran qoyduğu kənd və şəhərlərin mənzərəsi nə qədər ürəkağrıdan olsa da, bu mənzərə düşmənin əsl simasını göstərən ən effektiv vasitədir.***

Çox təəssüf ki, bu gün işağalçı dövlətin torpaqlarımızı minalaması nəticəsində onların 28 il bu torpaqlarda həyata keçirdiyi babarlığın nəticəsini bütün dünyaya göstərmək mümkün olmur. Elə ekspertlər də, işğaldan azad olmuş ərazilərin minalardan təmizlənməsinin vacib olduğunu, bunun nəticəsində düşmənin əsl simasının dünyaya nümayiş etdirilməsinin mümkün olduğunu söyləyirlər.

Həmsöhbətimiz “Minalar Əleyhinə Azərbaycan Kampaniyası” İctimai Birliyinin sədri Hafiz Səfixanov deyir ki, bunun üçün də Ermənistana minalanmış ərazilərin xəritəsinin Azərbaycana verilməsi üçün təzyiq göstərilməlidir: “İndiyədək işğaldan azad edilmiş ərazilərdə xeyli sayda mülki insanın və hərbiçinin həlak olması faktı üzrə cinayət işi açılıb. Azərbaycan Respublikasının Baş Prokurorluğunun yaydığı xəbərə görə, işğaldan azad edilmiş ərazilərdə 2020-ci il noyabrın 10-dan hazırkı vaxtadək minaya düşmələri nəticəsində 5 hərbi qulluqçu, 9 mülki şəxs həlak olub. 52 hərbi qulluqçu, 8 mülki şəxs isə minaya düşərək müxtəlif dərəcəli bədən xəsarətləri alıb. Buna səbəb isə Ermənistanın işğal dövründə minaladığı ərazilərin xəritəsini Azərbaycana verməməsidir. Azərbaycan Ermənistandan minalanmış ərazilərin xəritəsini almalıdır. Əgər o xəritələri əldə edə bilməsək mina qurbanlarının sayı daha da arta bilər. Düzdür Ermənistanın minalanmış ərazilərin xəritəsini Azərbaycana verməsi 10 noyabr bəyannaməsində əksini tapmayıb. Amma üçtərəfli bəyanatlara əsasən, Azərbaycan, Rusiya və Ermənistan Baş nazirlərinin müavinləri səviyyəsində komissiya fəaliyyət göstərir. Həmin komissiya çərçivəsində biz Ermənistandan minalanmış ərazilərin xəritələrini tələb etməliyik”.



H. Səfixanov deyir ki, bu işdə Azərbaycana Rusiya yaxından kömək edə bilər: “İndiki məqamda yeganə ümid yolumuz Rusiyanın Ermənistana olan təsirindən istifadə edib minalanmış ərazilərin xəritəsini almaqdır”.

Müsahibimiz bildirir ki, Ermənistanın minalanmış ərazilərin xəritəsini verməməsi sülhməramlılar üçün də təhlükə yaradır: “İndiyədək sülhməramlılardan da minaya düşənlər oldu. Son vaxtlar nədənsə sülhməramlılar arasında minaya düşmə halları qeydə alınmır. Bizdə belə fikir var ki, artıq Rusiya hər hansı vasitə ilə Dağlıq Qarabağda minalanmış ərazilərin xəritəsini Ermənistandan alıb. Ona görə də son vaxtlar onlar arasında minayadüşmə hallarına rast gəlinmir”. Birlik sədrinin sözlərinə görə, Ermənistan tərəfinin minalanmış ərazilərin xəritələrinin onlarda olmadığı ilə bağlı səsləndirdiyi fikirlər cəfəngiyyatdır: “Minaları həmin ərazilərə mülki şəxslər basdırmayıblar. Bu işi Ermənistanın Müdafiə Nazirliyi görüb. Qanuna görə də minalanmış ərazinin xəritəsi və protokolu tərtib olunmalıdır. Deməli minalanmış ərazilərin xəritəsi Ermənistanda var”.

H. Səfixanov deyir ki, nə Azərbaycan, nədəki Ermənistan minalar əleyhinə Konvensiyaya qoşulmayıb. Amma Birlik sədri bunun minalanmış ərazilərin xəritəsini Azərbaycana verməməyə əsas olmadığını söyləyir. O deyir ki, Ermənistanın həmin xəritələri Azərbaycana verməsi üçün beynəlxalq təşkilatlar da təsir göstərməli, güc dövlətləri tərəfindən sanksiya tətbiq edilməlidir: “Amma bilirsiniz ki, beynəlxalq aləmdə ikili yanaşmalar var. Əgər Azərbaycan əraziləri minalayıb xəritəsini Ermənistana verməsəydi indi həmin dövlətlər, beynəlxalq təşkilatlar bizə müxtəlif vasitələrlə təsir etməyə çalışacaqdılar. Amma hazırda onlar bununla bağlı Ermənistana təzyiq göstərmir. Bu isə Azərbaycan tərəfdən insan tələfatına səbəb olur. Nəzərə alsaq ki, minaların təmizlənməsi külli miqdarda vəsait və vaxt tələb edir, bu zaman xəritələrin olmaması işimizi çətinləşdirir. Azərbaycan məcburdur k, işğaldan azad etdiyi əraziləri qarış- qarış yoxlasın, minalardan təmizləsin. Bu həm də infrastruktur layihələrinin yubanmasına, məcburi köçkünlərin öz doğma torpaqlarına daha tez qayıtmasına mane olur”.

Həmsöhbətimiz onu da bildirir ki, Ermənistan minalanmış ərazilərin xəritəsini nə qədər tez Azərbaycana versə, Azərbaycan dağıdılmış tarixi, dini, mədəni abidələrlə bağlı siyahını o qədər də tez hazırlaya bilər: “Bu gün elə ərazilər var ki, biz mina təhlükəsinə görə ora daxil ola bilmirik. Bəzi kənd-şəhərlərdə qəbiristanlıqların vəziyyətini, dini abidələrimizin, mədəni-tarixi abidələrimizin durumunu göstərə bilmirik. Əgər ərazilərin mina ilə bağlı xəritəsi Azərbaycana verilsə biz Ermənistanın vəhşiliyini dünyaya çılpaqlığı ilə çatdıra bilərik”.

Xatırladaq ki, yerli və xarici media nümayəndələri üçün keçirdiyi mətbuat konfransında prezident İlham Əliyev bu məsələyə toxunaraq dünyanın diqqətini bu problemə yönəltməyi bacardı.

Prezident bildirdi ki, düşmən minalamış ərazilərin xəritəsini Azərbaycana təqdim etmir: “Biz işğaldan azad olunmuş ərazilərin təhlükəsizliyini bu gün kifayət qədər təmin edirik, müntəzəm reydlər keçiririk, pilotsuz uçuş aparatları vasitəsilə və vizual şəkildə monitorinq aparırıq. Buna görə vəziyyət tam nəzarət altındadır. Bundan əlavə, əlbəttə, ərazilərin minalanması əsas çətinlikdir. Ona görə ki, erməni tərəfi minalanmış sahələrin xəritələrini bizə təqdim etməyib. Yeri gəlmişkən, bu da cinayət hesab edilə bilər. Ona görə ki, hərbi əməliyyatlar başa çatandan sonra bizdə həm hərbi qulluqçular, həm də mülki şəxslər arasında bir neçə hadisə olub, bu insanlar yalnız ona görə həlak olub ki, minalanmış sahələrin xəritələri bizə təqdim edilməyib”.

Qeyd edək ki, bu günlərdə İtaliya Parlamentinin Deputatlar Palatasının Xarici əlaqələr daimi komissiyasında qəbul olunmuş “Ermənistan və Azərbaycan arasında razılaşmaların yerinə yetirilməsi vəziyyəti haqqında qətnamə”də bu məsələyə xüsusi toxunulub. Belə ki, Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin minalardan təmizləmə əməliyyatlarını asanlaşdırmaq məqsədilə tərəflər konstruktiv fəaliyyət göstərməyə dəvət olunub və bu xüsusda, minalanmış ərazilərin xəritələrinin verilməsi istənilib. Qətnamədə Azərbaycan tərəfinin üçtərəfli bəyanatdan irəli gələn öhdəliklərini yerinə yetirdiyini, müharibədən əvvəl və müharibə zamanı tutulmuş bütün erməni hərbi əsirləri qaytardığını bildirdiyi qeyd olunub. Eləcə də qətnamədə İtaliya hökuməti qarşısında ərazilərin minalardan təmizlənməsi əməliyyatlarını asanlaşdırmaq məqsədilə tərəfləri konstruktiv fəaliyyət göstərməyə dəvət etməsi və bu xüsusda, minalanmış ərazilərin xəritələrinin verilməsini istəməsi vəzifələri qoyulub.

Xatırladaq ki, indiki halda Ermənistan “Müharibə qurbanlarının müdafiəsi haqqında” 1949-cu il 12 avqust tarixli Cenevrə konvensiyalarını, 10 oktyabr 1980-ci il “Hədsiz zərərli sayıla bilən və ya seçimsiz nəticələrə malik ola bilən müəyyən adi silah növlərinin istifadəsinə qoyulan qadağalar və ya məhdudiyyətlər haqqında” Konvensiyanın İkinci Protokolunun tələblərini kobud şəkildə pozur. BMT-nin 1999-cu ildə qəbul etdiyi “Piyadalara qarşı minaların tətbiqi, ehtiyatının toplanması, istehsalı və verilməsinin qadağan edilməsi haqqında” Konvensiyanın müddəaları da Ermənistan tərəfindən pozulur. Sözügedən konvensiyaya əsasən, münaqişə tərəfləri müharibə başa çatdıqdan sonra minalardan təmizlənəcək sahələrin xəritələrinin təhvil verilməsi, piyadalara qarşı minalardan istifadə etməyəcəkləri barədə öhdəlik götürür. Amma hazırda Ermənistan tərəfinin Azərbaycana minalanmış sahələrin sxemlərini və xəritələrini verməkdən imtina etməsinin mənfur düşmənin gələcəkdə Azərbaycanla mehriban qonşuluq şəraitində yaşamaq niyyətində olmadığından xəbər verir.

***Mələk Eyvazlı***

Səhifə Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.

# Beynəlxalq axtarışda olan şəxs Azərbaycana ekstradisiya edildi



***Rusiyada həbs edilən azərbaycanlı ekstradisiya edilib. Bu barədə Unikal.org-a Baş Prokurorluğun Mətbuat xidmətindən məlumat verilib.***

Bildirlib ki, Azərbaycan Baş Prokurorluğu tərəfindən milli qanunvericiliyin və tərəfdar çıxdığımız beynəlxalq müqavilələrin, o cümlədən “Mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında” Minsk Konvensiyasının tələblərinə əsasən Rusiya Federasiyasının Baş Prokurorluğu ilə ikitərəfli münasibətlər çərçivəsində Azərbaycan Respublikasının ərazisində cinayət törətmiş şəxsin cinayət məsuliyyətinə cəlb edilməsindən ötrü ekstradisiya edilməsi barədə sorğu edilib.

Belə ki, Binəqədi rayon məhkəməsinin icraatında olan cinayət işi üzrə təqsirləndirilən şəxs qismində cəlb edilmiş Fətəliyev İlqar Qərib oğlunun - qabaqcadan əlbir olan bir qrup şəxs halında, etibardan sui-istifadə etmə və ya aldatma yolu ilə təkrar olaraq xeyli miqdarda özgə əmlakını ələ keçirməsinə əsaslı şübhələr müəyyən edilmişdir.

Fətəliyev İlqar Qərib oğlu barəsində beynəlxalq axtarış elan edilmişdir.

Axtarışda olan şəxsin yerinin müəyyən edilməsi əsası ilə Azərbaycan Respublikasının Baş Prokurorluğunun Rusiya Federasiyasının Baş Prokurorluğuna etdiyi sorğular təmin edilməklə İlqar Fətəliyev Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin xüsusi konvoyunun müşayiəti ilə ölkəmizə ekstradisiya edilmişdir.

# Azad edilmiş ərazilərə qanunsuz yollarla getmək istəyənlər tutuldu



***Ağdam Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən işğaldan azad olunmuş, lakin minalardan tam təmizlənməmiş ərazilərə keçməyə cəhd göstərən şəxslər müəyyən edilib.***

DİN-in Mətbuat Xidmətinin Bərdə regional qrupundan Unikal.org-a verilən məlumata görə, Ağdam rayonunun işğaldan azad olunmuş ərazisinə nəzarət postlarından kənar yollarla daxil olmağa cəhd göstərən 3 nəfər saxlanılaraq RPŞ-yə gətiriliblər.

Araşdırmalarla onların Ağcabədi rayon sakinləri E.Quluzadə, N.Mamedov və E.Əliyev olmaları müəyyən edilib. Adıçəkilən şəxslər barəsində qanunamüvafiq tədbirlər görülüb.

# DİN ötən gün törədilən cinayətlərlə bağlı məlumat yaydı



***Ötən gün daxili işlər orqanlarında qeydə alınan cinayət faktları və hadisələr haqqında statistik məlumatlar açıqlanıb.***

Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat Xidmətindən Unikal.org-a verilən məlumata görə, martın 17-də törədilən 20 cinayətin üstü “isti izlər”lə açılıb.

Əvvəlki dövrlərdən bağlı qalan 13 cinayətin açılması təmin olunub.

Axtarışda olduğuna görə ümumilikdə 41 nəfər, o cümlədən borclu şəxs qismində axtarışda olan 29 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilib.

Avtomobil yollarında 4 yol-nəqliyyat hadisəsi baş verib, nəticədə 5 nəfər ölüb, 4 nəfər xəsarət alıb.

Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 12, qanunsuz saxlanılan silah-sursatla bağlı 1 fakt müəyyən edilib.

Cinayət törətməkdə şübhəli bilinən 30 nəfər saxlanılıb.

# Qardaşı arvadının sözlərindən şoka düşdü: “Məni şeytan aldatdı, qonşu Əli ilə...”

***Bakının Qaradağ rayonunda 1981-ci il təvəllüdlü Səbuhi Kərimov qardaşı arvadı Laləzər Kərimlini öldürüb.***

Teleqraf.com-un xəbərinə görə, hadisə ötən il martın 26-da rayonun Qobustan qəsəbəsində baş verib.

Səbuhi Kərimov qardaşı Həbibin arvadı Laləzərin qonşuluqda yaşayan Əli adlı şəxslə sevgi münasibətində olduğunu eşidib. Qardaşına xəyanət etdiyi üçün qisas almaq niyyəti ilə onu öldürmək qərarına gəlib.

Bu məqsədlə hadisə baş verən günü axşam saat 20 radələrində qardaşı oğlu ilə birlikdə Laləzərin bacısı Mehrigün keçdi. Həbibin oğlu Kərim anasının məni görmək istədiyini bildirdi. Laləzərin onunla nə danışmaq istədiyini öyrənmək üçün görüşmək qərarına gəldim. Qardaşıma Laləzəri gedib görəcəyim barədə heç nə demədim. Onu öldürmək məqsədim yox idi. Çağırdığı üçün onu görməyə getdim”.

Təqsirləndirilən şəxsin ifadəsinə görə, martın 26-da, saat 20 radələrində qardaşı oğlu Kərimlə birlikdə icarəyə götürdüyü “Mitsubishi” markalı maşınla Laləzərin bacısı Mehribanın Qobustan qəsəbəsindəki evinə gedib: “Əvvəl Laləzəri atası evində tapacağımı düşündüm. Bu səbəbdən onun atası Dilavərin evinə getdim. duğunu soruşdum. Laləzər Əli adlı şəxslə evdə görüşdüyünü dedi. Laləzərin dediyi sözlərdən sonra şok vəziyyətinə düşdüm. Özümü itirdim, həmin səhnə gözümün önünə gəldi. Mətbəxdə stolun üstündə olan bıçağı götürərək Laləzərə yaxınlaşdım. Ona zərbələr endirdim.

Şok vəziyyətdə olduğumdan onu necə vurduğum, neçə zərbə endirdiyim dəqiq yadımda deyil. Laləzər yerə yıxıldı, hərəkətsiz vəziyyətdə qaldı. Qapını açaraq çölə çıxdım. Kərimi də götürərək onunla birlikdə oradan getdim. Maşının yanına çatanda dayımoğlu İsanı gördüm. İsa və Kərimlə birlikdə maşına oturaraq Bakı



banla yaşadığı ünvana gəlib. Mehriban və Laləzərlə söhbət edib.

Söhbət zamanı Laləzərə ərinə xəyanət etdiyini bildirib. Daha sonra qonşuluqda yaşayan Əli ilə görüşüb.

Səbuhi qardaşının və Laləzərin bacısının otaqdan çıxmasını istəyib. Onlar çıxandan sonra Laləzərin boyun nahiyəsindən tutub və bıçaqla ona çoxsaylı zərbələr vuraraq qətlə yetirib.

İstintaq orqanı tərəfindən Səbuhi Kərimovun barəsində Cinayət Məcəlləsinin 120.2.4-cü (xüsusi amansızlıqla və ya ümumi təhlükəli üsulla adam öldürmə) maddəsi ilə ittiham elan edilib.

Cinayət işi üzrə təqsirləndirilən şəxs qismində ifadə verən Səbuhi Kərimov özünü ittiham üzrə qismən təqsirli bilib. O, qeyd edib ki, qardaşının həyat yoldaşı Laləzər hadisədən 5-6 ay əvvəl şəhərə köçüb: “Əvvəllər Qobustanda yaşayırdı. Hadisədən bir neçə gün qabaq Laləzərin xəyanət etməsi barədə qardaşım Həbib özü mənə danışdı, Laləzərdən boşanmaq istədiyini bildirdi.

Həbib Laləzərin qardaşı Natiqlə birlikdə onun telefon nömrəsindən telefon danışıqlarını çıxartdığını və Laləzərə tanımadığı nömrədən zənglər gəldiyini, həmin nömrəyə Laləzərin də zəng etdiyini dedi. Eşitdiklərimə inanmadım. Çünki Laləzərdən belə hərəkət gözləmirdim. Laləzər evdən çölə çıxmırdı, həm də xəyanət edəcək xarakterdə deyildi. Onu əvvəllər heç bir yad adamla görməmişdim.

Qardaşım xəyanəti öyrəndikdən sonra uşaqları Laləzərdən aldı və onu evdən qovdu. Laləzər də qardaşımın dediyinə görə, əvvəl atası evinə getdi, qardaşı Natiq onu evdən qovdu. O da bacısı Mehribanın evinə getdi. Xəyanət barədə eşidəndən sonra təxmini 2-3 Ancaq qardaşı Natiq onu evdən qovduğu üçün bacısıgildə olduğunu öyrəndim.

Laləzərin qardaşıma xəyanət etməsi barədə atası Dilavərə məlumat vermək istəyirdim. Ancaq Dilavər kişi yaşlı olduğu üçün ona nəsə olmasından qorxdular, bu məsələni açmağıma imkan vermədilər. Bu səbəbdən Mehribanın evinə yollandım. Kərimlə birlikdə evin həyətinə daxil olduq. Həyətin sol tərəfində yerləşən mətbəxə tərəf yaxınlaşdım və mətbəxə girərək Laləzərlə qarşı-qarşıya oturdum. Mətbəxdə Laləzər, bacısı Mehriban və Kərim var idi.

Laləzərdən məsələnin həqiqət olub-olmamağını soruşdum. Laləzər şeytan onu yoldan çıxartdığın və səhv elədiyini bildirdi. Həmin vaxt dediklərini bacısı da eşidirdi”.

Səbuhi Kərimov qeyd edib ki, daha sonra Laləzərlə təklikdə danışmaq üçün Mehribandan onları tək qoymasını xahiş edib: “Mehriban otaqdan çıxdı, Laləzərlə söhbət etməyə başladıq. Laləzərə niyə belə olşəhəri istiqamətində hərəkət etdik.. Daha sonra Sahil qəsəbəsi ərazisində maşını saxladım. Kərimə və İsaya Laləzəri öldürdüyümü dedim. İsa ilə Kərimi maşından düşürtdüm. Bir neçə dəfə 102-yə zəng vurdum. Ancaq məşğul idi.

Qardaşım Vəliyə zəng vuraraq Laləzəri öldürdüyümü dedim. Daha sonra anamı sonuncu dəfə görmək üçün onun yanına getdim. Yenə 102-yə zəng vurdum və hadisə barədə məlumat verdim”.

Səbuhi Kərimov ifadəsinin sonunda qeyd edib ki, Laləzəri xüsusi amansızlıqla öldürmək istəməyib. Onun sözlərinə görə, Laləzərin qardaşına xəyanət etməsi barədə heç vaxt şübhəsi olmayıb. O, əməlindən peşman olduğunu qeyd edib.

Bu cinayət işinə Bakı Ağır Cinayətlər Məhkəməsində baxılıb. Hakim Samir Əliyevin sədrliyi ilə keçirilən prosesin sonunda hökm oxunub.

Səbuhi Kərimov 15 il müddətinə azadlıqdan məhrum edilib.

# Marketinqdə "Şəffaflıq" nədir?

***Bir şirkətin və ya bir markanın şəffaflığı "işçilərini, dəyərlərini, mədəniyyətini, strategiyasını, iş proseslərini və bu proseslərin nəticələrini ictimaiyyətlə bölüşmək" deməkdir.***

Texnologiyanın inkişafı, sosial medianın geniş tətbiqi, istehlakçıların məlumatlandırılması və markaya çevrilməsi marketinqin şəffaf olmasını tələb edir. Şəffaf olmasanız da sizlərlə əlaqə yaradıb şəffaf olmağınızı istəyirlər. Sosial marka olmağın yeganə şərtlərindən biri istehlakçıların gözləntilərini qarşılamaqdır.

BiznesMedia marketinqdə şəffaflığın avantajlarını və ticarətdə rolunu sizlərə təqdim edir.

Şəffaflığı avantaj olaraq istifadə etmək də özünüzün əlindədir.

İstehlakçılarla əlaqə qurmaq istəyən şirkətlərin özlərini tanıtması üçün marka olmaqları lazımdır. Brendlərin dürüst, səmimi, etibarlı, sadə qəbul edilməsi və sevilməsi onları daim irəliyə aparır. Bunu anlayan markalar "insanların etibarını itirməkdənsə, pul itirmək üstündür" deyərək adlarını tarixə həkk edirlər.

Hekayələrini ən yüksək şəffaflıqla paylaşması da istehlakçıların bu markanın bir hissəsi olduğunu hiss etmələrinə səbəb olur. Xüsusilə reklamlarında və digər marketinq fəaliyyətlərində danışdıqları hekayələrdə istehlakçılar özlərinə yaxın bölmələri görmək istəyirlər.



Brendin məhsulları və ya xidmətləri ilə təcrübələrinə bənzər təcrübə mübadiləsi istehlakçı ilə əlaqələrini gücləndirir.

Marka şəffaf olduğu üçün müştəri ilə əlaqəsi artır. Sadiq müştərilər həmişə səndən alış-veriş edir, səni başqalarına tövsiyə edir və sənin haqqında yaxşı danışanlar pis danışanlara özləri cavab verirlər. Marka vəkili adlandırdığımız bu tamaşaçı böyük rol oynayır. Məhsulları göndərmə paketlərinə yerləşdirib, yükü yollamağa tələsdiyiniz zaman qarşılıqlı əlaqə yaratmaq üçün çatdırılması olmayan rəqibləriniz sizi yalnız kənardan izləyirlər.

Hər zaman sevdiyimizdən daha çox etibar etdiyimiz markalara üstünlük veririk. Etibar öz-özünə yaranmır, qarşı tərəf inam yaratmaq üçün səy göstərir.

İstehlakçılar markaları tanımaq və markaların insanla bağlılığını hiss etmək üçün dünyanıza girməlidirlər. Onların alışı sizdən asılı deyil. Bir restoranda aşbaz yaxşı bişirsə də, xidmət zəifdirsə, ofisiant nəzakətli deyilsə, yer təmiz deyilsə, müştəri bir daha gəlmir.

Şəffaf olmaq üçün bütün detalları bölüşmək lazım deyil. Məsələn, "bu paltarı 50 azn-ə alırıq, 55 azn-ə satırıq." deməyə ehtiyac yoxdur. Ancaq paltarı geydikdə qüsur olmamalıdır. Müştərilərinizi qaçırmamalısınız. Paltarın mövcud olduğundan daha yaxşı görünməsi üçün kimyəvi maddələrdən istifadə edilməsi və ya fotolarının həqiqətdən uzaq olması da dürüstlük və şəffaflığa qarşı nümunələrdir.

Alıcı da, satıcı da insan olduğu üçün insanlıqdan uzaq heç bir marketinq davranışı sizi müvəffəqiyyətə apara bilməz. Bir marka insana sadiq olması üçün şəffaf olmalı və dürüst biznesmen kimi qəbul edilməlidir. O zaman istehlakçılar bir ömür boyu sizi tərk etməyəcəklər.

***Nübar Lətifli***

# "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin Müşahidə Şurasının ilk iclası keçirilib

***Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 11 fevral tarixli Sərəncamına əsasən yaradılmış "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının ilk iclası keçirilib.***

Azərbaycan İnvestisiya Holdinqindən bildiriblər ki, Müşahidə Şurasının sədri, maliyyə naziri Samir Şərifovun sədrliyi ilə keçirilən iclasda Müşahidə Şurasının və Cəmiyyətin İdarə Heyətinin üzvləri iştirak ediblər.



Cəmiyyətin Müşahidə Şurasının sədri və üzvləri göstərilən etimada görə dövlətimizin başçısına minnətdarlıqlarını bildiriblər.

Nazir Samir Şərifov vurğulayıb ki, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının ilk iclasının dövlətimizin başçısının bu günlərdə açılışını etdiyi səhmdar cəmiyyətin yeni binasında baş tutması əlamətdar hadisədir. Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi ölkəmizin ən qocaman şirkətlərindən biri kimi, zəngin və şərəfli bir yol keçib. 160 ildən artıq zəngin təcrübəyə malik şirkət öz parlaq tarixi boyunca hər bir mərhələdə milli iqtisadiyyatımızın inkişafına əhəmiyyətli töhfələr verib. Cəmiyyətin fəaliyyət coğrafiyası təkcə Xəzər hövzəsi ilə məhdudlaşmır, dünyanın bir çox tanınmış ərazilərini, yükdaşıma bazarlarını əhatə edir.

Azərbaycanın Avropa ilə Asiya arasında əlverişli coğrafi mövqeyi və Xəzərdən keçən beynəlxalq yükdaşıma marşrutları hazırda Xəzər Dəniz Gəmiçiliyinin nəqliyyat donanmasının tranzit yükdaşımalarının həyata keçirilməsində xüsusi əhəmiyyətini daha da artırır. "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti Xəzər dənizində irimiqyaslı neft və qaz layihələrinin və beynəlxalq yük daşınmalarının müvəffəqiyyətlə həyata keçirilməsində, ölkəmizin rəqabət qabiliyyəti və tranzit potensialının gücləndirilməsində mühüm rola malikdir və cəmiyyət Xəzərdə özünün aparıcı mövqeyini qoruması üçün bundan sonra daha böyük əzmlə çalışmalıdır.

Müşahidə Şurasının sədri xatırladıb ki, dövlətimizin başçısının rəhbərliyi ilə Azərbaycan iqtisadiyyatı yeni islahatlar mərhələsinə qədəm qoyub. Bu yeni mərhələdə ölkədə iri dövlət şirkətlərinin maliyyə-təsərrüfat fəaliyyətində dayanıqlılığın artırılması, onların gəlir və xərclərinə nəzarətin daha da gücləndirilməsi, paylarının nəzarət zərfi dövlətə məxsus hüquqi şəxslərin idarə olunmasının təkmilləşdirilməsi qarşıda duran əsas çağırışlardandır.

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin fəaliyyətinin təkmilləşdirilməsi və daha da inkişafına yönəldilmiş addımların atılması Müşahidə Şurasının əsas vəzifəsidir. S.Şərifov əmin olduğunu bildirib ki, Müşahidə Şurası QSC-nin İdarə Heyəti ilə əməkdaşlıq müstəvisində çalışaraq qabaqcıl təcrübə və müasir idarəetmə çərçivəsində cəmiyyətin işində səmərəliliyi artırmaq, onun idarə olunmasını müasir korporativ idarəetmə standartları nəzərə alınmaqla təkmilləşdirmək istiqamətində fəaliyyət göstərəcəkdir.

İclasda cəmiyyətin korporativ idarəetmə sisteminin prinsipləri, Müşahidə Şurasının funksiyası və səlahiyyətləri ilə bağlı Azərbaycan İnvestisiya Holdinqinin Baş icraçı direktorunun müavini Zaur Qurbanovun, cəmiyyətin fəaliyyəti üzrə aktual məsələlərlə bağlı isə "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri Rauf Vəliyevin təqdimatları dinlənilib, Azərbaycan Prezidentinin müvafiq fərman və sərəncamlarından irəli gələn vəzifələrin icrasının təmin edilməsi məqsədilə həyata keçiriləcək tədbirlərlə bağlı müzakirələr aparılıb.

## Sahibkarlıqda yoxlamaların dayandırılması müddəti uzadıldı

***Azərbaycan Prezidenti İlham Əliyev "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Qanunda dəyişikliyi təsdiqləyib.***

BiznesMedia xəbər verir ki, "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikasının Qanununda aşağıdakı dəyişikliklər edilib.

Dəyişikliyə əsasən, Azərbaycan Respublikası ərazisində sahibkarlıq sahəsində aparılan yoxlamalar 2022-ci il yanvarın 1-dək dayandırılıb.

Qanuna aşağıdakı məzmunda 2.1-1-ci maddə əlavə olunub:

"2.1-1. Bu Qanunun 1-ci maddəsində nəzərdə tutulmuş müddət başa çatdıqdan sonra yoxlayıcı orqanlar tərəfindən sahibkarların yoxlamaların dayandırıldığı dövrdəki fəaliyyəti ilə bağlı plan üzrə (növbəti) və plandankənar (növbədənkənar) yoxlamalar (bu Qanunun 2.1-ci maddəsində göstərilən yoxlamalar istisna olmaqla) aparıla bilməz.".

Qanun 2021-ci il yanvarın 1-dən tətbiq edilir.

## Azərbaycanda dəmir yolu ilə nə qədər yükdaşıma həyata keçirilib?

***Bu ilin yanvar-fevral aylarında Azərbaycanda dəmir yolu nəqliyyatı ilə 2,6 mln. ton yük, 300,5 min sərnişin daşınıb.***

Dövlət Statistika Komitəsindən verilən məlumata görə, 2020-ci ilin eyni dövrü ilə müqayisədə yük daşınmasında 10,6% artım, sərnişin daşınmasında isə 64,1% azalma qeydə alınıb.

Məlumata görə, hesabat dövründə orta hesabla sutkada 384 vaqon yüklənib, 374 vaqon isə boşaldılıb.

"Sutka ərzində dəmir yolunun Şimal istiqaməti üzrə 18,3 min ton, Qərb istiqaməti üzrə 3,4 min ton, Cənub istiqaməti üzrə isə 1 min ton yüklənmə işi yerinə yetirilib", - komitədən bildirilib.

## Fed faiz qərarını açıqladı

***ABŞ-ın Mərkəzi Bankı funksiyasını yerinə yetirən Federal Ehtiyat Sistemi (FED) 2021-ci ildəki ikinci iclasının nəticəsinə əsasən növbəti dəfə uçot dərəcəsini 0-0,25 faiz səviyyəsində saxlayıb.***

Bu barədə nizamlayıcının rəhbərliyinin iclasının nəticəsinə dair məlumatda bildirilir. Qərar bir sıra mütəxəssislərin proqnozları ilə üst-üstə düşür. Bəzi ekspertlər FED-in uçot dərəcəsini 0-0,25 faiz səviyyəsində saxlayacağını proqnozlaşdırırdılar.

Federal Ehtiyat Sistemi 2022 və 2023-cü illərdə ABŞ-da inflyasiyanın müvafiq olaraq 2% və 2,1% səviyyədə olacağını gözləyir.

FED-dən həmçinin bildirilib ki, 2022 və 2023-cü illərdə ABŞ-da ümumi daxili məhsulun (ÜDM) müvafiq olaraq 3,3% və 2,2% artımı gözlənilir.

Xatırladaq ki, FED cari ildə yanvarın 27-də keçirilən ilk iclasında uçot dərəcəsini 0-0,25 faiz səviyyəsində saxlamışdı.

Qeyd olunurdu ki, komitə (Açıq bazarda əməliyyatlar üzrə) əmək bazarı şərtləri məşğulluğun maksimum qiymətləndirilməsinə uyğun səviyyələrə çatana qədər və inflyasiya artımı 2 faiz olana kimi federal fondlar üzrə payın məqsədli diapazonu səviyyəsini 0-0,25% səviyyəsində saxlamaq niyyətindədir.



# Azərbaycanın Rus İcması Pasxanı Şuşada keçirmək istəyir

***Son günlər siyasi partiyaların, jurnalistlərin, blogerlərin və digər peşə sahiblərinin Qarabağa səfərləri təşkil edilir. İşğaldan azad edilmiş bölgələrə səfər edən şəxslər erməni vəhşiliyi ilə əyani fomada tanış olurlar.***

Azərbaycanda qeyri-millətlərin nümayəndələri də yaşayır.

Maraqlıdır, qeyri-millətlərin nümayəndələri Qarabağa getmək arzusundadırmı?

Azərbaycan Rus İcmasının sədri, Milli Məclisin deputatı Mixail Zabelin Modern.az-a açıqlamasında bildirib ki, bu məsələ ilə bağlı onların da arzuları var: "2020-ci ilin oktyabrında ölkədə müharibə gedirdi. Rus icması olaraq Ordumuza dəstək üçün Türkiyə, Azərbaycan və Rusiya bayraqları altında "Qarabağ Azərbaycandır" adlı avtoyürüş keçirmişdik. Hələ həmin vaxtlarda Şuşada da bu cür tədbirlər keçirmək arzusunda olduğumuzu bildirmişdik".

Mixail Zabelinin sözlərinə görə, işğaldan azad edilmiş bölgələrə səfərlə bağlı onlara xeyli müraciət daxil olub: "Bildiyiniz kimi, mayda provaslavların Pasxa bayramı olacaq. Qarabağ döyüşlərində iştirak edən qazilər, şəhid ailələri arasında milliyyətcə rus olan Azərbaycan vətəndaşları bizə müraciət ediblər. Onlar Pasxa bayramını Şuşada keçirmək arzusunda olduqlarını bildiriblər. Milli Qəhrəman Yuri Kovalyovun qızı Azərbaycanda Rus Gənclər Assosiasiasının sədr müavinidir. Atası Birinci Qarabağ döyüşlərində qəhrəmancasına şəhid olub. Onun da qızı bizimlə birgə Şuşanı və digər işğaldan azad edilmiş torpaqları görmək istəyir. Təbii ki, səfərin həyata keçirilməsinə icazə verilən kimi Rus icması işğaldan azad edilmiş torpaqlara gedəcək. Tədbirləri keçirməkdə məqsədimiz dünyaya mesaj xarakteri daşıyır. Dünya görsün ki, Azərbaycanda yaşayan hər kəs dinindən, irqindən asılı olmayaraq eynihüquqlu vətəndaşdır. Biz dünyaya bir daha bəyan etmək istəyirik ki, Azərbaycanda yaşayan digər millətlər öz bayramlarını qeyd edə bilirlər.

Azərbaycan həmişə çoxmillətli dövlət olub. Bütün xalqlar burada firavan, mehriban və dostluq şəraitində yaşayıblar. Müasir dövrdə bu cür mədəni yaxınlıq əlaqələri multikulturalizm adlandırılır. Lakin Azərbaycan hər zaman multikultural dəyərlərə hörmətlə yanaşıb. Ona görə də digər millətlərin də adət-ənənələrini, bayramlarını bir yerdə qeyd edərək, qoruyub saxlayıb. Bu bizim sərvətimizdir. Cənab Prezidentin də vurğuladığı kimi, Şuşa bizim mədəniyyət mərkəzimizə çevriləcək və həmin mərkəzdə Azərbaycanda yaşayan ruslar da öz bayramlarını keçirəcək. Böyük sevgi və məhəbbətlə bayramımızı Şuşada keçirmək istərdik. Qarşıdan Novruz bayramı gəlir. Bu münasibətlə bütün azərbaycanlıları təbrik edirəm. Eyni zamanda, bu Novruz bayramı qələbənin ilk Novruzudur. Azərbaycan xalqına firavanlıq arzulayıram. Tonqallarınız hər zaman gur yansın".

# Şuşa Qala divarının bərpası layihəsinin ilk mərhələsi yekunlaşıb

***Dövlət Şəhərsalma və Arxitektura Komitəsi tərəfindən Azərbaycanın xüsusi tarixi, mədəni və strateji əhəmiyyətə malik olan şəhəri - Şuşanın bərpası və yenidən qurulması, şəhərə yenidən həyatın qaytarılması və onun gələcək inkişafının təmin edilməsi məqsədilə zəruri planlaşdırma və layihələndirmə işlərinə başlanıb.***

Komitədən "Unikal"a verilən məlumata görə, Azərbaycan Respublikasının Prezidenti tərəfindən ölkənin mədəniyyət paytaxtı elan olunmuş Şuşanın hazırlanacaq baş planının əsas prioritetlərindən biri şəhərin olduqca zəngin tarixi-memarlıq irsinin, əsrlərlə formalaşmış tarixi simasının qorunub saxlanmasıdır. Bu istiqamətdə Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin ilin əvvəlindən aidiyyəti qurumlarla, yerli və xarici ekspertlərlə əməkdaşlıq edərək təşkil etdiyi önəmli layihələrdən biri Şuşanın Qala divarlarının bərpası və konservasiyası layihəsidir.

Bu layihənin birinci mərhələsi - Şuşanın XVIII əsr ölkə əhəmiyyətli tarix və mədəniyyət abidəsi olan Gəncə qapısının konservasiyası və Qala divarlarının işğal nəticəsində dağılmış və əhəmiyyətli dərəcədə zədələnmiş, Gəncə qapısının ətrafındakı hissəsinin bərpası və konservasiyası uğurla başa çatdırılıb.

Şuşanın Qala divarlarının və Gəncə qapısının bərpası layihəsinə Komitə tərəfindən məsləhətçi qismində Avstriyanın dünyaca məşhur restavrasiya şirkəti olan və 2010-cu ildən etibarən Azərbaycanda Qız Qalası, Məhəmməd Məscidi və bir sıra digər dünya və ölkə əhəmiyyətli




abidələrin bərpa və konservasiyasını həyata keçirmiş "Atelier Erich Pummer GmbH" ?şirkətinin rəhbəri Erix Pumer cəlb edilmişdir. Bərpa və konservasiya layihəsi bu sahədə ixtisaslaşmış yerli "Conco" (Konko) QSC tərəfindən həyata keçirilir. Görülən işlər abidənin arxiv materiallarına uyğun olaraq orijinal görünüşünün bərpa olunması üçün müvafiq texnologiyalar və materiallardan istifadə olunaraq aparılıb. Həmçinin, layihənin növbəti mərhələsinə hazırlıq işləri çərçivəsində müasir texnologiyalardan istifadə edilərək Şuşa Qala divarlarının üçölçülü (3D) modelinin yaradılması üçün lazer skaner cihazı ilə çəkilişlər və müayinə aparılmışdır ki, hazırlanan model layihələndirmə və bərpa prosesinin daha səmərəli və yüksək dəqiqliklə aparılmasına imkan verir.

Bərpa işlərinin başa çatmış birinci mərhələsində Qala divarlarının və yüksək memarlıq xüsusiyyətləri ilə seçilən Gəncə qapısının daşları son illər ərzində tətbiq edilmiş yad sement-qum tərkibli suvaq qatından təmizlənmiş, beynəlxalq konservasiya standartlarına uyğun olaraq daşların tikişlər əhəng-qum məhlulu ilə doldurulmuşdur. Qapının xarici tağının yuxarı səmti, həmçinin, Qala divarlarının dörd zədələnmiş hissəsi, kontrforsun dağıdılmış tərəfi, Qala divarlarının fasad hissəsində müdafiə məqsədilə tüfəng atəşi üçün nəzərdə tutulmuş 9 mazğal bərpa edilmişdir. Eyni zamanda, Qala divarlarının gözətçi qülləsinin altındakı zirzəminin divarları və köməkçi otağı da sement-qum suvağından təmizlənərək əhəng-qum məhlulu ilə doldurulmuş, iki gözətçi qülləsi arasındakı divarın bütün perimetri üzrə yuxarı ətəyinə eyni səviyyə verilmiş, divar üzərində yad yazılar təmizlənmişdir. Tarixi abidənin xarici və daxili həyətlərində mövcud olan yad metal elementlər də demontaj edilib, əsgər yolunun bir hissəsi təmizlənərək bərpa olunub.

"Bununla yanaşı, Şuşa şəhərinin Qala divarları üzərində vaxtilə mövcud olmuş, lakin Ermənistan Silahlı qüvvələri tərəfindən işğal dövründə sökülmüş məşhur "Şuşa" yazısı da yenidən bərpa edilmişdir. Bu məqsədlə Komitənin tabeliyində fəaliyyət göstərən Bakı Dövlət Layihə İnstitutunun mütəxəssisləri tərəfindən yüngül metal konstruksiya əsaslı və Qala divarlarına hər hansı təhlükə və xələl gətirməmək şərti ilə layihələndirilmiş və alüminiumdan istehsal olunmuş "Şuşa" yazısı tarixi yerində quraşdırılıb", - komitədən bildirilib.

# Daha iki küçə əsaslı təmir edilib

***Vətəndaşların gediş-gəlişinin təmin olunması məqsədi ilə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi (AAYDA) tərəfindən Xəzər və Suraxanı rayonları ərazisində kompleks tədbirlər həyata keçirilir.***

AAYDA-dan "Unikal"a verilən məlumata görə, sözügedən rayonların Binə qəsəbəsi və Südçülük sovxozu yaşayış massivində 2 küçənin əsaslı şəkildə təmiri aparılaraq yekunlaşdırılıb.

Məlumata görə, işlərin aparıldığı Elmir Orucov və Xəqani küçələrində zəruri yerlərdə deformasiyaya uğramış yararsız qrunt qazılıb çıxarılıb, əks dolğu işləri aparılmaqla kipləşdirmə işləri görülüb, küçələr profilə salınıb, optimal qum-çınqıl qarışığından yol əsası işlənilib və bunun ardınca asfaltlanma işləri aparılıb.

Qeyd edək ki, sözügedən küçələrin uzun müddət əsaslı şəkildə təmir olunmadan istismar olunması nəticəsində hər iki yol boyu çalalar və çökmələr əmələ gəlmişdi. Bu isə gediş-gəlişdə problemlərə səbəb olur, yol örtüyü deformasiyaya uğradığından hərəkətin rahat və təhlükə-



sizliyini təmin etmirdi.

Uzunluğu 370 metr , eni isə 6 metr olan Xəqani küçəsinin təmiri zamanı ilk növbədə çirkli gölməçələrin qurudulması və küçə boyu müvafiq təmizləmə işlərinin aparılması həyata keçirilib. Daha sonra tərtib olunmuş qrafikə uyğun və texnoloji ardıcıllıqla aparılan təmir-tikinti işləri çərçivəsində lazımi materialdan istifadə edilərək 20 sm qalınlığında yeni yol yatağı, optimal-qırmadaş qarışığından isə yol inşası işləri aparılıb. Bunun ardınca küçəyə yeni asfalt-beton örtüyü döşənib.

Təmir edilən Elmir Orucov küçəsinin uzunluğu 790 metr, ortalama eni isə 6 metrdir.

Yenidənqurma işləri çərçivəsində küçə boyu yararsız qrunt qazılaraq çıxarılıb, əvəzinə yararlı material tökülərək kipləşdirilib və yeni yol yatağı hazırlanıb. Ardınca əsasın alt layı karxana çınqılı, üst layı isə qum-qırmadaş qarışığından istifadə edilərək tikilib və yeni asfalt-beton örtüyü döşənib.

İlk növbədə, örtüyünün vəziyyəti qənaətbəxş olmayan, həmçinin torpaq əsaslı və çınqıl örtüklü olan qəsəbədaxili küçə və yollarda təmir-bərpa işləri həyata keçirilir. Bütün bu işlər isə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin rəhbərliyinin birbaşa nəzarəti altında aparılır.

Ümumilikdə, Xəzər və Suraxanı rayonları üzrə təmir-bərpa işlərinin görüldüyü küçələr vətəndaşların əsas istifadə etdiyi yollar olduğu üçün bu işlərin aparılması gediş-gəlişin rahatlaşmasına gətirib çıxarır.

Növbəti mərhələlərdə agentlik tərəfindən sözügedən rayonlar üzrə digər küçə və yollarda da təmir işlərinin aparılması nəzərdə tutulur.

# Şəhidin xanımına edilən bu hərəkət hər kəsi duyğulandırdı

***44 günlük Vətən Müharibəsində qazqandığımız qələbənin hər saniyəsi şəhidlik zirvəsinə ucalan qəhrəmanlarımızın canıqanı bahasına başa gəlmişdir.***

Onlardan biri də Şəhid Fariz Həsənovdur. Onun həyat yoldaşı Əzizə Həsənova tikinti materialları satılan mağazada satıcı ilə yaşadığı ibrətamiz və bəlkə də çoxlarına örnək olacaq hadisəni paylaşıb.

“Unikal” həmin yazını təqdim edir: ”Bu gün evdə bəzi görüləsi işlər var idi. Buna görə də lazım olan avadanlığı almaq üçün xırdavat mağazasına getməli oldum. Ora da ən çox kişilər gedir axı, qadınlar iki halda gedir, ya yoldaşı ilə nə isə seçmək üçün, ya da mənim kimi çarəsiz halda “evin kişisi də, qadını da mənəm” deyib, məcbur olur kişi işlərini görmək üçün lazım olan əşyaları gedib alsın.



Nə isə, getdim mağazaya, qapını açdım, içəri daxil oldum. İçəridə bir yaşlı qadın var idi, yoldaşı ilə işıqlara baxırdılar, seçirdilər. Qalanları kişilər idi. Hərə bir ustayla gəlib, siyahı gətirib, nə lazımdısa, deyirlər satıcıya, o da təşkil edir. Satıcı da 60 yaşlarında ağsaqqal bir dayı idi. Yanında da köməkçisi 18-20 yaş aralığında bir oğlan uşağı idi.

Nə isə, növbə mənə çatdı. ”Buyur, qızım, nə lazımdı?” deyə satıcı dayı məndən soruşdu. ”Dayı, mənə evdə iş görmək üçün bəzi alətlər lazımdı” dedim və davam elədim: ”Çəkic, silikon kley tapançası ilə, kəlbətin, mismar və s.”, - lazım olanları dedim... Dayı onları yığdıqca üzümə baxırdı diqqətlə nəsə məyus bir formada. Ödənişin nə qədər edəcəyini soruşdum, məbləği dedi.

Pulu ödəyəndən sonra dayı mənə dedi: ”Qızım, olar sənə bir sual verim? ”Dedim ”buyur, dayı”. ”Bunları nə üçün alırsan, mismarın ölçüsü olur, silikon kley verdim sənə, amma nə yapışdırmaq üçün lazımdı? Yəqin, evdə yoldaşın iş görür, o bilər mismarın ölçüsünü filan, yəni ona görə deyirəm ki, səhv olmasın, əziyyət çəkib geri qaytarma bir də. Zəng vur, soruş, mən də bilim sənə nə verirəm, qızım”, - deyə dayı məni vadar edirdi ki, zəng vurum bu dünyada olmayan yoldaşıma.

Nə edim, necə deyim ona ki, mənim yoldaşım bu dünyada deyil, ağsaqqal, evin kişisi də qadını da özüməm, yoxsa mən nə gəzirdim burada?.. Qürurum imkan vermədi ki, ona “yoldaşım yoxdu, Şəhid olub, bütün öhdəlikləri mənim çiyinlərimə buraxıb, bütün işi özüm görürəm” deyim.

Yalandan telefonu qulağıma tutdum, guya ki, zəng edib soruşuram. Yaxşı ki, mismarın ölçüsünü o anda yadıma sala bildim. Dayı, sən demə, hiss edibmiş, tanıyıbmış məni, amma büruzə vermirmiş. Xülasə, bu dünyada olmayan Farizimlə yalançı danışığımı bitirdim. Dedim, ”dayı, 50-lik mismar lazımdı, kley də aboyun qıraqlarını yapışdırmaq üçün”.

Dayı başa düşdüyünü işarə edib gedib dediyimə uyğun gətirdi lazım olanları. Çıxanda gördüm, dayı nəsə bir telefonuna baxır, bir mənə, ağsaqqalın gözləri dolub. Dedi ”bala, bir dəqiqə gözlə”. Gözlədim.

Özünü pis hiss etdiyini anladım. ”Yaxşısınız, dayı?” - deyə sual verdim. ”Yaxşıyam, narahat olma, qızım”, - dedi. Əlini atdı kassaya, ödədiyim pulu geri qaytardı mənə. ”Bu nə deməkdir, dayı? Niyə qaytardınız mənə pulu?” deyə sual verdim. ”O pul ödənilib, qızım” deyə cavab verdi.

Anlamadım mən də, düşündüm ki, yəqin, kimsəsiz olduğumu hiss edib, pis olub. Pulu özünə qaytardım ki, ”yox, dayı, çox sağ olun, özüm ölməmişəm ki, kimsə ödəsin”.

Düzü, pisimə gəldi bir az. Dayı, pulu götürdü, amma heç nə demədi. Üzümə baxmaq istəmirdi nədənsə. Mən də pis oldum, öz-özümə qəhər məni boğdu ki, Allahım, mənim kimsəsizliyim bu qədərmi bəlli olur? Axı mən büruzə verməməyə çalışıram.

Birdən, dayı başladı söhbətə ki, ”bala, bir şey deyim sənə. Mən səndən mismarın ölçüsünü filan özüm qəsdən soruşdum ki, görüm necə deyəcəksən. Telefonu yalandan qulağına tutdun, özün-özünlə danışırdın. Hiss elədim bunu. Səni mən tanıyıram, qızım. Çəkilişlərdə görmüşəm. Bayaq telefonumu ona görə götürdüm ki, bir də baxım, görüm həmin çəkilişdəki qızsanmı, yoxsa oxşatmışam? Həmin qız imişsən, Şəhid Farizin yoldaşı. Sən təkliyini hiss etdirmək istəmədin, qızım. Sənə sözüm yoxdu”, - deyə gözləri dolmuş halda başını aşağı saldı.

Bu sözlər mənə bir ox kimi dəydi. Elə pis oldum ki... “Ağlamayacam” dedim. Nə fayda. Onda gördüm ki, göz yaşlarım hicabımı isladıb artıq. Necə pis olmuşamsa, göz yaşlarım məndən ixtiyarsız öz bəndini qırıb. Üzümü çevirib gözlərimi sildim, ağladığımı görməsin. Sağollaşıb mağazadan uzaqlaşdım, gəldim evə. Xeyli də evdə ağlamışam, çöldə ürəyimi boşalda bilmədiyimə görə divarlardı mənim sirdaşım. Dərdimi onlara danışıb ağlayıram.

Bir az özümə gəldim. Selofanı açdım ki, işimə başlayım və orada gördüklərim məni yenidən yıxdı. Ödədiyim pul və üzərində ”yoldaşınız pulu ödəyib, qızım” yazılmış bir kağız parçası... Dünyam yenidən yıxıldı sanki. Onu görəndən sonrakı halım, yəqin ki, hər kəsə məlumdur...”.

# Ağalar Vəliyev qazi və aztəminatlı ailələrə bayram sovqatı göndərdi

***Milli Məclisin deputatı Ağalar Vəliyev 97 saylı Goranboy-Ağdam-Tərtər Seçki Dairəsinin seçicilərinə Novruz Bayramı münasibətilə təbrik ünvanlayıb.***



Unikal.org-un məlumatına görə, təbrikdə qeyd olunur ki, 2020-ci il müstəqilliyinin ən qüdrətli dövrünü yaşayan Azərbaycan Respublikasının çağdaş tarixinə zəfər ili kimi qızıl hərflərlə yazılıb.

Möhtərəm Prezidentimiz, Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən Müharibəsində böyük qələbə qazanılıb, işğal altında olan torpaqlarımız azad olunub və ölkəmizin ərazi bütövlüyü təmin edilib. Bu möhtəşəm qələbə Azərbaycanın böyük siyasi, diplomatik və hərbi uğurudur.

Bilavasitə cəbhə bölgəsində yerləşən Goranboy, Ağdam və Tərtər rayonlarının hər zaman dövlətimizə sədaqəti ilə seçilən sakinləri müharibə dövründə istər ön, istərsə də arxa cəbhədə fədakarlıq göstərərək qələbəmizin əldə olunmasına öz layiqli töhfələrini verib və onlardan bir çoxu hərbi əməliyyatlar zamanı şəhid olub.

Xalqımız tərəfindən bu bayram günlərində Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarından keçən qəhrəman şəhidlərimizin ölməz xatirəsi minnətdarlıqla yad olunur və igid qazilərimizə şəfa diləniır.

Millət vəkili bir daha Vətən Müharibəsində qələbə, eləcə də Novruz Bayramı münasibəti ilə seçicilərinə səmimi təbriklərini və xoş arzularını yetirib. Deputatın ofisindən daxil olan məlumata əsasən Ağalar Vəliyevin təşəbbüsü ilə bayram münasibətilə xüsusi karantin rejiminin tələbləri nəzərə alınmaqla 97 saylı Seçki Dairəsinə daxil olan Goranboy, Ağdam və Tərtər rayonlarının yaşayış məntəqələrindən 1 000-ə yaxın şəhid, qazi, əlil və aztəminatlı ailəyə təbrik açıqcaları ilə birgə bütün zəruri ərzaq məhsullarından ibarət bayram sovqatları çatdırılıb.

Seçicilər onlara göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlığını ifadə edib və bu kimi aksiyaların bundan sonra da mütəmadi olaraq davam etdiriləcəyi onlara bildirilib.

# Hərbi hospitalın yoluxucu xəstəliklər bölməsinin açılışı oldu



***Azərbaycan müdafiə naziri Zakir Həsənov hərbi tibb müəssisələrində həyata keçirilən tikinti-quruculuq işlərinin davamı olaraq hərbi hospitalın əsaslı təmir edilən yoluxucu xəstəliklər bölməsinin açılışında iştirak edib.***

Bu barədə “Unikal”a Müdafiə Nazirliyindən məlumat verilib. Açılış mərasimində qeyd edilib ki, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən Azərbaycan Ordusunun şəxsi heyətinin sağlamlığının qorunması istiqamətində həyata keçirilən məqsədyönlü tədbirlər davam edir, hərbi hissələrdə müasir standartlara cavab verən tibbi infrastruktur yaradılır.

Yoluxucu xəstəliklər bölməsindəki şəraitlə tanış olan Müdafiə naziri manipulyasiya və diaqnostika otaqları, intensiv terapiya palatası, yarım boks və tam boks tipli palatalar, nəzarətdə qalan xəstələr üçün ayrılmış palata və xəstələrin qəbulu otağına baxış keçirib.

Bildirilib ki, inkişaf etmiş ölkələrdə istehsal edilən ən müasir tibbi avadanlıqlarla təchiz edilən bölmədə hərbi qulluqçuların müalicəsi üçün hər cür şərait yaradılıb.

Sonda Müdafiə naziri tibb xidmətinin daha da təkmilləşdirilməsi ilə bağlı müvafiq göstərişlər verib.

# Rinqdə də, döyüş meydanında da qalib gələn - şəhid Vüsal Məmmədov



***Vətən Müharibəsi bizim 30 illik yurd-torpaq həsrətimizə son qoydu və əslində isə ən böyük xəyallarımızı gerçəkləşdirdi. İkinci Vətən Müharibəsi bizlərə həm Vətənimizin işğal altında olan parçasını qaytardı, həm də milli birlik hissimizi gücləndirdi. Təbii ki, asan olmadı...***

Torpaqlarımızın azad edilməsi uğrunda şəhid olduq, qazi olduq... Amma düşmənimizin mifini məhv etdik... Bütün itkilərimizə baxmayaraq, məğlub edilməzdə də olduq...

O, şəhid və qazilərimiz bizləri zəfərə daşıyan, əbədiyyətə qovuşduran və yeni nəslə müzəffər bir dövlət bəxş edənlərdir...

O zəfəri, qalibiyyəti bizə bəxş edənlərdən biri də Zaqatala rayonu Lahıc kəndindən olan şəhid Məmmədov Vüsal Nəsib oğludur. Gəlin, bu Vətən fədaisi ilə Sizi tanış edək...

...Zaqatala rayonu Lahıc kəndinin girəcəyində Bakı-Balakən magistral yolunun kənarında, iki möhtəşəm portret quraşdırılıb. Həmin portretlərdən iki nəfər, həmin kəndin fədakar oğlu, möhtəşəm baxışlarla ətrafı seyr edirlər. Hər bir kəsə bu portretlərin önündən keçəndə Lahıc kəndinin igid, şəhid oğulları Vətən müharibəsinin Qəhrəmanı Kapitan Xüsusi Təyinatlı Dəstəsinin manqa komandiri olmuş, İsmayıl Məhəmməd oğlu Səmədova və respublikanın tanınmış idmançısı olmuş,rinqi döyüş meydanı ilə dəyişmiş Vüsal Nəsib oğlu Məmmədova dəfələrlə min rəhmət oxuyurlar, ruhunuz şad olsun və Sizin kimi mərd oğulları böyüdən valideynlərə min alqış deyirlər...

Elə Lahıc kəndinin içərisində "Şəhidlər Xiyabanı"nda, Birinci Qarabağ Savaşında həlak olan şəhidlərin sırasında İsmayıl və Vüsalın uyuduğu qəbirləri bir-biri ilə yanaşıdırlar. Bütöv Zaqatala eli onları tez-tez böyük fəxarətlə yad edirlər və anırlar... Vətənimizin azadlığı, dincliyi, sabitliyi, bütövlüyü uğrunda şirin, gənc canlarını mərdi-mərdanə qurban verən bu kişi qeyrətli, cəsurları... Söz yox ki, bu igidlərdən, fəxrlərimizdən, nadir hərbçi kimi yetişmiş, Xüsusi Təyinatlıların ulduz kimi parıldayan, ölməzliyə qovuşan İsamyıl Məmməd oğlu Səmədovun qəhrəmanlığından söhbət açmışıq, qısa şərəfli həyatını vərəqləmişik...

Lahıc kəndinin 2 -ci şəhid balası Vüsal Məmmədov barəsində söhbət açmaq, onu elimizə və xalqımıza tanıtmaq, onun necə vətənpərvər oğul olmağından danışmaq bizim üçün çox qürurvericidir. Çünki, o, Vətən Müharibəsindən gizlədərək, ya xəstə kimi, ya da qüsurlu bir şəxs kimi döyüş bölgələrindən gizlədən şirin balalara əzizləyən onlara hərbi bileti satın alan valideynlərinə, həmin Vətən və Ana simasını anlamayan, dərk etməyən, onlara saxta sənəd verən məmurlar və həmin qorxaq cavanlara ibrət dərsi verəcək, düşmənə qarşı mübarizə aparıb...

...Vüsal, elə indi onun uyuduğu qəbristanlıq yolunda yerləşən həyətdə dünyaya göz açıb və böyüyüb, boya-başa çatıb... Nəsib bəyin və Səbinə xanımın ailəsində uşaqlıqdan çox tərbiyəli, ağıllı, zəhmətsevər, sağlam mühitdə böyüyüb. O, 1998 -ci ilun mart ayının 15 -də Lahıc kəndində Məmmədovlar ailəsində dünyaya gəlib. Onlar 2 qardaş olublar... 1996 -cı il təvəllüdlü Daşqın və Vüsal... O, da böyük qardaşı kimi Lahıc kəndindəki Birinci Vətən Müharibəsində həlak olan Qoca Qocayev adına tam orta məktəbini əla qiymətlərlə bitirib-2014 -cü ildə. Vüsalın uşaqlıqdan arzusu güclü idmançı və təcrübəli məşqçi olmaq olub. Buna görə də, hələ orta məktəbdə oxuduğu zaman idman və hərbi fənnlərə meyl göstərib. Keçirilən yarışlarda fəallığı seçilib. Şəhidin anası hələ də, göz yaşları qurumayan, oğlu şəhid olandan sonra, özünə təsəlli və yer tapa bilməyən Səbinə xanım Feyzulla qızı Məmmədova deyir ki, oğlu Vüsal məktəb yaşlarından, onlara həm ev işlərində, həm də təsərrüfat işlərində yaxından köməklik göstərilib və hətta ev də, həyət-bacada, səliqə-səhman yaratmaqda biz valideynlərin yardımçısı olub... Orta məktəbdə oxuyanda oğlunu, səliqə-səhmanlığı, köməkliyi ilə, xoş-mülayim xasiyyəti ilə seçilmişdi. Müəllimlər heç vaxt şikayət etməz, ancaq onun haqqında xoş sözlər deyirdilər. Onlar Vüsalın idmanda qazandığı nailiyyətlərdən ürək dolusu danışardılar... O, uşaqların sevimli dostu idi, balacalara idmanın bütün sirlərini öyrətməyə çalışırdı. Məktəb illərində daima çox bilikli olmağa çalışardı - deyə Səbinə ana oğlu barədə söhbətini davam etdirdi. "Vüsal həm də çox vətənpərvər idi. Tez-tez evimizin yanında, qəbristanlıqda uyuyan şəhidlərin qəbirlərini ziyarət edərdi. Onda düşmənə qarşı qisas hissi uşaqlıqdan oyanmışdı... Vüsal da xain düşməndən tezliklə qisas alacağına inanırdı... Böyük oğlum Daşqın da hərbçilərin sağlamlığının keşiyində dayanmaq yolunu seçmişdi..." Səbinə xanımın söylədiyinə görə oğlu Daşqın Azərbaycan Dövlət Tibb Universitetini bitirmişdir. Universiteti bitirdikdən sonra o, müxtəlif hərbi hospitallarda çalışmış, Vətən Savaşı zamanı isə yüzlərlə yaralı hərbiçini xilas etmişdir...

Rinqdə, həm də qanlı döyüş meydanında əsil şücaət göstərən Vüsal Nəsib oğlu Məmmədov 2015 -ci ilin aprel ayında Azərbaycan Silahlı Qüvvələrinin həqiqi hərbi xidmətə çağırılıb. Şəhidin atası Nəsib Məmmədovun söylədiyinə görə, isə oğlu həqiqi hərbi xidmətini Müdafiə Nazirliyinin Tovuz rayonunun Muncuq kəndində yerləşən "N" saylı hərbi hissədə nümunəvi hərbi xidmət keçirib. O, əlaçı əsgər kimi əsgərlikdə snayper atıcı ixtisasına yiyələnib. Vüsalın atası deyir ki, oğlu Ermənistan Respublikası ilə həmsərhəd olan Tovuz rayonunda əsgərlikdə olan zaman bir neçə dəfə onunla görüşə gediblər. Əsgər yoldaşları arasında xüsusilə seçilən Vüsalın komandirləri onun hərbi xidmətindən həmişə razılıq edibər. Atasının bildirdiyinə görə Vüsal Məmmədov xidməti dövründə daimi düşmən qonşu ilə sərhəddə yerləşən posptlarda bizim sabitliyimizi qoruyub. O, eyni zamanda hərbi hissədə keçirilən hərbi təlimlərdə və idman yarışlarında xüsusi fəallıqla seçilib...

Nəsib kişinin söylədiklərindən: "Oğlum şərəf və vicdanla hərbi xidmətini başa vurduqdan sonra da boş vaxtlarını səmərli keçirmişdi. Bakı şəhərində tikinti sahələrində işləməklə yanaşı, "qaydasız döyüş" idman növü üzrə məşqlərini mütəmadi davam etdirib. Bu idman növün də püxtələşərək də təcrübə toplayıb... Sonradan bildik ki, Vüsal Bakıda işlədiyi dövrdə "qaydasız döyüş" növü üzrə respublika, Bakı birinciliklərində, Beynəlxalq və Ümumittifaq turnirlərində iştirak etmişdir. Həmin yarışların əksəriyyətində gələcəkdə daha mötəbər yarışlarda iştirak etmək arzusu ilə yaşamış oğlum qalib gəlmişdir. Hətta o, Beynəlxalq turnirdə iştirak edən Vüsal rinqdə dünyanın ən tanınmış idmançıları ilə mübarizə aparmış və onların dizini yerə çökdürmüşdür... İdman sahəsində-rinqlədə qalib gələn şəhid balam 27 sentyabr 2020 -ci il tarixdə başlanan Vətən Müharibəsində də döyüş mövqelərində də erməni faşistlərinə "dərs" verib...

Və... üç rəngli Azərbaycan bayrağını rinqdə olduğu kimi işğaldan azad olunmuş ərazilərdə dalğalandırmaq üçün xüsusi hünər göstərmişdir..."

...Qeyd edək ki, bu günlər şəhidlik zirvəsini fəth etmiş və ruhları səmada dolaşan qəhrəman el oğlumuz Vüsal Nəsib oğlu Məmmədov 28 sentyabr 2020 -ci ildə könüllü müharibəyə yollanaraq, snayper atıcı kimi elə ilk anlardan cəbhənin ən qaynar qızğın döyüşlər gedən ərazilərdə döyüşməyə başlayıb. Onun döyüş yolunu vərəqləyərkən məlum olur ki, Vüsal Nəsib oğlu Məmmədov Cəbrayıl, Füzuli, Zəngilan rayonlarının işğaldanm azad olunmasında şücaət göstərib. Məğrur snayper atıcısı olan Vüsal qanlı döyüşlərdə çoxlu sayda canlı qüvvəni, erməni dığalarını, onlarla döyüş texnikasını məhv etmiş və atıcı mövqelərini sıradan çıxartmışdır. Döyüşçü yoldaşlarının bildirdiklərinə görə, Vüsal çox mərd, qorxmaz, əsil Vətən cəfakeşi və düşmənin qənimi olub. O, hətta, döyüşdə yaralanmasına baxmayaraq, hərbi hospitalda müalicəyə getməkdən imtina etmişdir. Vüsalla çiyin-çiyinə döyüşmüş, qanlı-qadalı döyüşlərin birində ağır yaralanmış hüquqi-Qazi olmuş, Zaqatala rayonunun Fındıqlı kəndindən olan Xanlar Xəlilov onun barəsində danışarkən bildirdi ki, şəhid Vüsal Məmmədovun müqabilində Vətən Müharibəsində Azərbaycan xalqının dəyərli vətəndaşı, cəsur döyüşçünü, vətənpərvər, Vətənin ağır günlərində ona dayaq olan, namusla, vicdanla özünün gənc, şirin ömrünü müharibə dolaylarında əsirgəməyən bir insanı itirdik...

Əvəz və təkrar olunmaz hərbiçi qardaşımız... Vüsal haqqında günlərlə, aylarla müsbət, sözün əsil mənasında, yüksək qiymət qiymətləndirsək yenə azdır... Gənclik çağlarında şəhadətə-əbəiyyətə qovuşanlar nadir hallarda dünyaya gəlirlər, necə deyərlər, yaddaşlarda iz salırlar...

Anası Səbinə xanım söhbətimizi davam etdirərək, söyləyir ki, oğlu Vüsal müharibə başlamazdan əvvəl tez-tez onlarla telefon əlaqəsi yaradıb, bizimlə tez-tez həmişə də inamla, nikbin özünü göstərərək... O, bildirdi ki, oğlu oktyabr ayının 7 -də 2020 -ci il tarixində sonuncu dəfə oğlu onlarla telefonla danışıb: "O, qısa danışdı, danışığından narahatlıq, yorğunluq hiss olunurdu. Həmin vaxtlar Hadrut uğrunda qızğın döyüşlər gedərdi..."

Yenə də, "Ana nigaran qalmayın, narahat olmayan tezliklə sağ-salamat, xoş xəbərlərlə geri dönəyəcəyik, Sizin yanınızda olacağam... Növbəti təsəlliverici sözlər... Amma əziz oğlumuz geri döndü, üç rəngli bayrağa bükülmüş tabutda..." deyə, Səbinə xanım əlavə etdi...

...Hadrutun azad olunması uğrunda son döyüşdə 70 nəfər Vətən fədaisi düşmənin sayca dəfələrlə canlı qüvvəsi ilə savaşdılar... Həmin döyüşdə mərd oğullarımızdan cəmi 10 nəfər sağ qaldı və onlarında əksəriyyəti yaralı vəziyyətdə... Oktyabrın 14 -də gedən döyüşlərdə şəhid olanlardan biri də, Zaqatalanın fədakar oğlu, Vətən fədaisi Vüsal Nəsib oğlu Məmmədov da oldu. O, bu dəfə bir qalib idmançı kimi rinqdə olduğu kimi, döyüş meydanında da öz canı və qanı ilə Qələbə zəfər bayrağını qaldırdı. Bizim el oğlunun azad olunmuş üç rəngli bayraqlarının canlanmasında böyük hünərvərlik göstərdi, tarix boyu təkrar - təkrar xatırlamasaq, əfsanələrə, xatirələrə çevriləcək bir hünərvərlik...

...Əlbəttə ki, Vüsal Məmmədov faşist xislətli, xain düşmənin mövqelərimizə atdığı mərmidən, aldığı yaralardan dünyasını dəyişdiyini, əbədiyyətə qovuşduğunu eşidəndə ana fəryad qopartdı. Ata qüssələndi, əzizləri, qohum-əqrəbaları, dostları, yasa batdılar...

15 oktyabr 2020 -ci il tarixdə isə Vətən Müharibəsində qəhrəmanlıqla həlak olan, sağlığında "qaydasız döyüş" idman növü üzrə dəfələrlə qalib olmuş və döyüşlər zamanı xüsusi şücaət göstərərək, həlak olmuş Vüsal Nəsib oğlu Məmmədov rayon ictimaiyyətinin müşayiəti ilə son mənzilə yola salındı... Növbəti xalqın xilaskarı, qəhrəman kimi... "Qəbriniz nurla dolsun, Ruhun şad olsun, Zaqatalanın hünərvər oğlu... Vüsal Nəsib oğlu!"

Prezidentin sərəncamı ilə Vüsal Məmmədov ölümündən sonra "Vətən uğrunda" və "Cəbrayılın azadlığı uğrunda" medalları ilə təltif olunub.

...İndi Lahıc kəndinin girəcəyindəki şəhidlərin uyuduğu xiyabanda qara mərmərli baş daşından cüssəli, gənc, iti baxışlarla, mərd, dönməz Vüsal Məmmədov baxır... Bir vaxtlar o, özü bu xiyabanda uyuyan Birinci Qarabağ Savaşının şəhidlərinin gəlirlərini ziyarət edərdi... İndi isə... Vüsalın özünün qəbrini... Vətən xilaskarını ziyarət edirlər...

***Elman Maliyev***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***

# Ölkəmizdə mədəniyyət sənayelərinə fiziki məhdudiyyətli insanların cəlb olunması gündəmdədir

***Martın 15-də Milli Xalça Muzeyində Azərbaycan Mədəniyyət Nazirliyi və "British Council"ın (Britaniya Şurası) birgə təşkilatçılığı ilə "Muzeylərdə müyəssərlik və inklüzivlik" mövzusunda onlayn treninqin iştirakçılarına sertifikatların və "Şekspir xalçalarda" adlı müsabiqənin qəliblərinin eskizləri əsasında toxunan xalçaların təqdimat mərasimi keçirilib.***

Milli Xalça Muzeyinin direktoru Şirin Məlikova çıxışında müasir dövrdə hər bir muzey üçün ən önəmli məsələlərdən biri milli irs nümunələri kolleksiyaları haqqında məlumatların hamı üçün əlçatan olması, inklüziv mühitin yaradılması olduğunu bildirib: "Xalça Muzeyi inklüzivliyi diqqət mərkəzində saxlayır. Bakıda və regionlarda fəaliyyət göstərən muzey və qoruqların əməkdaşlarının iştirakı ilə keçirilən "Muzeylərdə müyəssərlik və inklüzivlik" mövzusunda onlayn treninq bu mənada əhəmiyyətli layihədir".

Mərasimdə çıxış edən mədəniyyət naziri Anar Kərimov Azərbaycan və Böyük Britaniyanın uzun illərdir bir çox sahələrdə əməkdaşlıq etdiyini diqqətə çatdırdı. Böyük Britaniyanın xarici ölkələrlə elmi-mədəni əlaqələrini təşkil edən əsas təşkilat olan "British Council"ın Azərbaycanda da aktiv fəaliyyət göstərdiyini söyləyən nazir Mədəniyyət Nazirliyi və bu qurumun bir çox layihələrdə birgə əməkdaşlıq etdiyini, "Muzeylərdə müyəssərlik və inklüzivlik" mövzusunda treninqin də bu əməkdaşlığın daha bir göstəricisi olduğunu vurğulayıb.

Anar Kərimov bildirib ki, Azərbaycan müasir dövlət və rifahlı cəmiyyət quruculuğu yolunda mühüm tarixi nailiyyətlər əldə edib, sosial



dövlət statusunu daim gücləndirib, hər bir vətəndaşının, o cümlədən əlilliyi olan vətəndaşlarının sosial rifah halının yaxşılaşdırılmasını təmin etmək məqsədilə davamlı iş aparılır: "Ölkəmizdə təhsil və mədəniyyət sahəsi inklüzivlik üzrə ilk sıralarda qərarlaşıb. Mədəni sənayelərə fiziki qüsurlu insanların cəlb olunması qarşıda duran prioritet məsələrdəndir. Bu məsələlərdə biz gələcəkdə də "British Council"ın təcrübəsindən faydalanacağıq. Azərbaycan muzeylərində dünya praktikasına əsaslanaraq fiziki məhdudiyyətli insanların rahat və maneəsiz hərəkəti, eksponatlar haqqında məlumatları əldə edə bilmələri üçün bir çox inklüziv layihələr müvəffəqiyyətlə həyata keçirilib".

Layihəyə dəstək olan təşkilatlara minnətdarlığını bildirən nazir "British Council", Milli Xalça Muzeyi və Azərbaycan Rəssamlıq Akademiyasının birgə təşkilatçılığı ilə 2016-cı ildə Vilyam Şekspirin anadan olmasının 450 illiyinə həsr edilmiş "Şekspir xalçalarda" adlı müsabiqənin qəliblərinin eskizləri əsasında toxunan xalçaların Xalça Muzeyinə hədiyyə edilməsini iki ölkə arasında mədəni əməkdaşlığın daha da inkişafına töhfə verən hadisə kimi dəyərləndirib.

Böyük Britaniyanın Azərbaycandakı səfiri Ceyms Şarp çıxışı zamanı deyib ki, mədəniyyətin qorunub saxlanılması və təbliğində əməkdaşlıq önəm kəsb edir. O, ötən ay Azərbaycanda səfərdə olan ölkəsinin Avropa qonşuluğu və Amerika bölgəsi üzrə dövlət naziri Vendi Mortonun İçərişəhəri və Heydər Əliyev Mərkəzini ziyarət etdiyini diqqətə çatdırıb. Bildirib ki, səfirlik mütəmadi olaraq "British Council" vasitəsilə Azərbaycandakı mədəni layihələrə dəstək olur.

"British Council"ın Azərbaycandakı nümayəndəliyinin rəhbəri Samr Şah çıxışında təşkilatın əsas missiyasının insanları bir araya gətirərək mədəniyyətləri yaxınlaşdırmaqdan ibarət olduğunu söyləyib. Deyib ki, əlliliyi olan şəxslərə diqqət göstərilməsi, mədəni irsin təbliği də bu fəaliyyətin əsas istiqamətlərindən biridir.

Çıxışlardan sonra "Muzeylərdə müyəssərlik və inklüzivlik" mövzusunda onlayn treninqin məhdud sayda iştirakçılarına sertifikatlar təqdim edilib.

Daha sonra "Şekspir xalçalarda" müsabiqəsi qəliblərinin eskizləri əsasında toxunan üç xalça Samr Şah tərəfindən Milli Xalça Muzeyinə təqdim olunub.

Tədbir iştirakçıları Mədəniyyət Nazirliyi tərəfindən 2020-ci ildə İtaliyanın Sartirano yarmarkasından alınaraq Milli Xalça Muzeyinə hədiyyə edilən və ekspozisiyada nümayiş olunan xalçalara baxış keçirdilər.

Sonda qonaqlar Xalq rəssamı Arif Hüseynovun "Novruz naxışları" adlı sərgisi ilə tanış olublar.




# "Sirlər xəzinəsi" adlı intellektual müsabiqə elan olunub

***Mədəniyyət Nazirliyi və Azərbaycan Respublikasının Gənclər Fondu "GəncApp" mobil tətbiqi üzərindən "Sirlər xəzinəsi" adlı intellektual müsabiqəyə start verir.***

Nazirlikdən bildirilib ki, il ərzində hər ay onlayn formatda keçiriləcək intellektual müsabiqənin məqsədi gənclərin asudə vaxtının səmərəli təşkili, intellektual bacarıqlarının inkişaf etdirilməsi və dünya elmi-ədəbi fikrinin diqqət mərkəzində olan Nizami Gəncəvi irsinin gənclər tərəfindən dərindən mənimsənilməsidir.

Müsabiqəyə 16-29 yaş arasında bütün gənclər qatıla bilərlər.

İlk müsabiqə 17-21 mart tarixlərini əhatə edir. Bu müddətdə hər gün "GəncApp" mobil tətbiqi vasitəsilə iştirakçılara 1 sual-bildiriş göndəriləcək. Müsabiqənin yekununda ən çox xal toplayan 3 gənc qalib seçilərək mükafatlandırılacaq.

Müsabiqədə iştirak etmək üçün "GəncApp" mobil tətbiqini həm "Android", həm də "iOS" əməliyyat sistemli mobil telefonlar üçün yükləyə bilərsiniz.

Qeyd edək ki, müsabiqə Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 880 illik yubileyinin qeyd edilməsinə dair Tədbirlər Planı" çərçivəsində Nizami Gəncəvi irsinin gənclər arasında müasir texnoloji vasitələr, rəqəmsal platformalar, sosial media alətləri vasitəsilə təbliği məqsədilə həyata keçirilir.

Müsabiqə barədə ətraflı məlumat http://mct.gov.az/az/elanlar/137 linkində yerləşdirilib.

# Qarabağ xalçalarına aid naxışların olduğu ipək şərflər təqdim edildi

***Azərbaycan Milli Geyim Mərkəzinin rəhbəri, sənətşünaslıq üzrə fəlsəfə doktoru Gülnarə Xəlilova Qarabağ xalçalarına - "Xanlıq", "Xan Qarabağ" və "Xantirmə" - aid naxışların olduğu ipək şərflər təqdim edib. Bu barədə Trend məlumat verir.***

Qarabağ xalçaçılığı YUNESKO-nun şifahi və qeyri-maddi irsinin şah əsərlər siyahısına Azərbaycan xalçaçılığının tərkib hissəsi kimi daxildir. Qarabağda xalçaçılıq xüsusən XVIII əsrdə inkişaf edib, Şuşa həmin dövrdə bu sənətin mərkəzi halına gəlib. Qarabağ xalçaları təkcə Azərbaycanın digər bölgələrində deyil, həm də Şərq ölkələrində istehsal edilən oxşar məmulatlar arasında həmişə öz gözəlliyi, rəng uyğunluqlarının ahəngi və ornamentlərilə seçilib. Qarabağ xalçalarının məftunedici zərifliyi Azərbaycanın hüdudlarından uzaqda bu sənətin qədir-qiymətini bilənlərin diqqətini cəlb edib, beynəlxalq mükafatlara layiq görülüb.

G. Xəlilova deyib: "Azərbaycan əsrlər boyu öz incəsənətilə məşhur olan, xalçaçılığın haqlı olaraq qabaqcıl yer tutduğu diyardır. Xalqımız üçün xalçaçılıq onun zəngin mənəvi dünyasını, dünyagörüşünü və estetikasını əks etdirən mədəniyyət sahəsidir. Müxtəlif milli xalçaçılıq məktəblərinin məmulatları bir çox tarixi kitablarda, klassik ədəbiyyatda və folklorda mədh edilib, lakin xüsusi rol Qarabağ xalçalarına aiddir. Buna görə də növbəti layihəmi bu sahəyə həsr etmək qərarına gəldim". G. Xəlilova bunadək Qarabağa həsr olunmuş kolleksiyalar təqdim etmişdi - "Xarı bülbül", "Qarabağ", "Qarabağ Azərbaycandır".

# "İRS-Naslediye" jurnalının Moskvada növbəti nömrəsi çapdan çıxıb

***Moskvada "İRS-Naslediye" jurnalının növbəti nömrəsi çapdan çıxıb.***

AZƏRTAC xəbər verir ki, jurnalın 2021-ci ildə ilk nömrəsi nəşrin baş redaktoru Musa Mərcanlının "İki yubiley ili" adlı məqaləsi ilə açılır. Baş redaktor yazır ki, 2020-ci il bütün dünyada koronavirus pandemiyası ilə yadda qalsa da, Azərbaycan xalqı üçün işğal olunmuş torpaqlarımızın azad edildiyi il, Qələbə ili kimi tarixə düşüb. Ötən il Azərbaycan həqiqətlərini təbliğ edən "İRS-Naslediye" jurnalı üçün də əlamətdar olub. Jurnal daha bir dost ölkədə - İsraildə dərc edilməyə başlayıb.

M.Mərcanlı oxucularına 2021-ci ilin dahi Nizami Gəncəvinin 880 illik yubileyi ilə əlaqədar "Nizami Gəncəvi İli" elan olunması, həmçinin 1991-ci il oktyabrın 18-də Azərbaycanın dövlət müstəqilliyini bərpa etməsinin 30-cu ildönümünün qeyd ediləcəyi barədə məlumat verir.

Jurnalın yeni nömrəsində Azərbaycan aşıq sənətinin görkəmli




nümayəndələrindən biri olan Aşıq Şəmşirin yaradıcılığından bəhs edən "Böyük verginin varisi", eləcə də Nizami yaradıcılığının orta əsrlər Şərq incəsənətinə təsirini araşdıran "Nizami poemaları orta əsrlər müsəlman Şərqi rəssamlarının ilham mənbəyi kimi" adlı məqalələr yer alıb.

Jurnal Ermənistan hakimiyyətinin Azərbaycana qarşı törətdiyi terror aktları barədə yazıların davamı olaraq, bu dəfə oxuculara "Bərdə 2020-Ermənistanın dövlət terroru" başlıqlı məqalə dərc edib. Yazıda 2020-ci il oktyabrın 28-də Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Bərdə şəhərini bombalamasını faktlar və fotoşəkillərlə oxuculara təqdim olunur.

Oleq Kuznetsovun "Yeni erməni bütpərəstliyi və Ermənistanda nasizmin bütləşdirilməsi" sərlövhəli məqaləsində Ermənistanda Qaragin Njde və digər faşist xislətli şəxslərin qəhrəmanlaşdırılmasının qorxunc tendensiya olduğu diqqətə çatdırılır.

Nəşrdə, həmçinin üzərində "Qarabağ" sözü həkk olunmuş ilk sikkələrin yaranma tarixi, 1918-1920-ci illərdə Azərbaycan dəmir yollarının inkişafından bəhs edən məqalələr və digər maraqlı tarixi materiallar yer alıb.

***Fəridə Abdullayeva***

# Uşaqlarda bədən temperaturunun qalxması

***Bədən temperaturunun qalxması uşaqlarda kəskin və xroniki xəstəliklər zamanı baş verir.***

Növləri: Qızdırmanı yaradan səbəblər, uşağın yaşından digər faktorlardan asılı olaraq müxtəlifdir.

Temperaturun yüksəlmə dərəcəsinə görə subfebril (37-38 dərəcə), yüksək (39-41 dərcə), və ya çox yüksək ( 41 dərəcədəndən yüksək) ayırd edilir. Kiçik uşaqlar, adətən, yüksək hərarəti yüngül keçirirlər. Məsələn, adi KRX-də böyüklərdə 38-38,5dərəcə, körpələrdə 39-40 dərəcə ola bilər. Yadda saxlamaq lazımdır ki, çox yüksək qızdırmada maddələr mübadiləsi pozulur, infeksion xəstəliklərdə qızdırmanın olmaması orqanizmin reaktivliyinin olmaması deməkdir.

Simtomları: Uşagın xarici görünüşünə görə hərarətin yüksəlməsindən şübhələnmək olar. Bu zaman uşağın ümumi vəziyyəti dəyişir, narahatlıq, əzginlik yaranır, iştaha azalır və ya itir. Qızdırmanın tipindən asılı olaraq uşağın dərisi qaynar, solğun, qırmızı və ya sərin ola bilər. Çox vaxt yanğı hissiyatı yaranır, körpə uşaqlarda qıcolmalar ola bilər.

Səbəbləri: Çox miqdar xəstəliklər qızdirma ilə keçir. Ən çox virus və bakterial infeksiyalar qızdırma ilə müşayiət olunur. Allergik reaksiyalar, birləşdirici toxumanın xəstəlikləri, endokrin patologiya və s. qızdırma ola bilər.

Siz nə edə bilərsiniz: 37 dərəcəyə qədər narahat olmağa dəyməz. Əgər 38 dərəcədən yuxarıdırsa hərarəti tez-tez ölçmək lazımdır. Yüksək qızdırmada həkim gələnə qədər uşağa parasetamol, uşaq panadolu, uşaq taylenolu, vermək olar. Bu zaman uşağa çoxlu maye içirtmək, bədəni artıq geymdən azad etmək, bədəni yaş dəsmalla silmək məsləhətdir. Əgər uşaqda qıcolma başlayırsa onu yumşaq çarpayıya və ya xalçaya böyrü üstə uzatmaq və təcili yardım çağırmaq lazımdır.

Həkim nə edə bilər: Həkim uşağı müayinə edib müvafiq müalicə təyin edəcək.

# Beyni gücləndirməyin 10 üsulu

1.Gördüyünuz zehni iş sizdə vərdiş halına gəlmişdirsə, onda fərqli bir zehni işlə çalışmağa başlayın. Əgər istirahət zamanı hansısa bir məntiqi məsələni rahatca həll edə bilirsinizsə, onda daha çətin məsələ üzərində "baş sındırmağa" başlayın.

2. Ətrafınızdakı dünya və dünyada hansı hadisələrin baş verməsi haqqında hər şeylə maraqlanın.

3. Beyninizi rahatlatmaq üçün komyuter oyunları oynayın, krossvord həll edin.

4. Beyninizin sağlam yağlara ehtiyacı var. Balıq yağı, kişmiş və zeytun yağından daha çox istifadə edin.

5. Hekayə söyləmək yaddaşı qüvvətləndirir, olmuş hadisələri yada salın. Nağıl və ya hekayə söyləmək yaddaş zəifiyinə yol vermir.

6. Televizora az baxın. Yaşamaq üçün bədəninizi və zehninizi işlətməyə çalışın.

7. İdmanla məşğul olun. İdman bədən hüceyrələrinin canlandırmaqla yanaşı, beyin hüceyrələrinin də fəaliyyətini artırır.

8. Fərqli, tanımadığınız bir yazıçının kitabnı oxuyun.

9. Yeni bir bacarığınızı üzə çıxarmağa çalışın.

10. Beyninizi işlətməyi bir adət halına gətirin. Bunun üçün kurslara yazılın, kompyuter oyunları oynayın, internet səhifələrində maraqlı məlumatlar tapıb oxuyun.

# Kəskin bronxiolit

***Kəskin bronxiolit daha çox 6 aydan - 2 yaşa qədər uşaqlarda kəskin virus xəstəliyin 3-4-cü günündə aşkar edilir.***

Səbəbləri: Xəstəliyin törədicisi RS-virusu, para grip, adeno və rotaviruslar, qrip və Koksaki B virusu olur.

Simptomları: Xəstəlik 39-40 dərəcə hərarətlə başlayır, bir neçə gün davam edir. 2 və yaxud 3-cü gün vəziyyət birdən pisləşir, tutmaşəkilli öskürək və tənəffüs çatışmazlığı olur. Tənəffüsün sayı dəqiqədə 60-80-a çatır, küylü, səthi olur, çətinləşir. Bütün köməkçi əzələlər tənəffüsdə iştirak edir, burun qanadları gərginləşir. Dəri boz sianotik rəngdədir, perioral ya ağır hallarda ümumi sianoz müşahidə edilir. Həkim auskultasiyada sərt tənəffüs fonunda xırda qabarcıqlı yaş xırıltılar və yerli çartıltılar eşidir. Təngnəfəslik həmişə taxikardiya, urək tonlarının karlaşması ilə müşayiət olunur.

Diaqnostikası: Rentgenoloji müayinədə ağ ciyərlərdə şəffaflığın artması, qabırğalar arası sahələrin genişlənməsi diaqnozu təsdiq edir. Diaqnoz, əsasən, virus infeksiyası ilə əlaqəsinə görə, hipertermiya və tosikoza görə qoyulur.

Müalicəsi: Xəstə mütləq hospitalizasiya olunmalıdır. Burada xəstələrə antbiotiklər, 2-3gün hormonaterapiya, vitaminlər təyin olunur.

# Kimlər Novruz xonçasından uzaq durmalıdır? - Şirniyyat, qoz-fındıq bu xəstələrə QADAĞANDIR



***Bütün evlərdə dadlı, bəzəkli, şirniyyatlı Novruz xonçaları qurulur, martın 25-nə kimi bayram tətili boyunca böyükdən kiçiyə hər kəs o nemətlərdən dadacaq. Ta ki, Novruz bitənə kimi.***

Bəs yağlı, şəkərli, qoz, fındıqlı kalorili qoğal, şəkərbura,paxlava, çərəzlər orqanizmə necə təsir edir?

Statistikaya görə, bayram günlərindən sonra təcili yardıma bəzi xroniki xəstəliklərin ağırlaşması səbəbindən müraciətlər çoxalır.

Milli.Az kimlərin Novruz xonçasından səhhətinə xatir uzaq durmalı olduğunu araşdırıb.

Çox qısa müddətdə rasiona həddən artıq kalorili, şirin və allergik qidaların daxil olması orqanizmdə lipid, triqliserid, xolesterin, yağ, duz səviyyəsini dəyişir. Mədəyə, mədəaltı vəzə, ürəyə əlavə yük düşür, çəkidə artım vaş verir, qanda qlükoza səviyyəsi artır, allergenlər aktivləşir.

Bu insanlar şirniyyat və qoz-fındıqdan uzaq durmalı, sadəcə bayram xətrinə dadına baxmaqla kifayətlənməlidir:

- Şəkərli diabet xəstələri. I və II tip diabet
- Piylənmədən əziyyət çəkənlər
- Yüksək təzyiq xəstələri
- İnsult və infarkt keçirmiş insanlar
- Mədə xorası,qastriti olanlar
- Pankreatis - mədəaltı vəzi xəstəliyi olanlar
- Mədədə reflüks olanlar
- Xərçəng xəstəliyinin istənilən mərhələsi
- Ürəyində stend əməliyyatı olanlar
- Xolesteron və lipid səviyyəsi yüksək olanlar
- Dəri xəstəliyi və allergiyası olanlar
- Astma-bronxit xəstələri, pnevmoniya, öskürək
- Öd çatışmazlığı, öddə durğunluq olanlar
- Hepatit xəstələri
- Qaraciyərdə piylənmə
- Damarları tutulanlar, ateroskleroz
- İnsulin dirənci olanlar
- Hamilə qadınlar, südverənlər
- Körpə uşaqlar
- Allergiyası və diatezi olan uşaqlar
- Korona xəstələri
- Disbakterioz, ishal, kroon, kolit, bağırsaq xəstəliyi olanlar
- Qəbizlikdən əziyyət çəkənlər

Gün ərzində sağlam insan tərəfindən qəbul edilə biləcək şəkərin miqdarı 30-40 qramdan artıq olmamalıdır

Paxlava, şəkərbura, qoğal, qoz, fındıq normal insanlar günün birinci yarısı yeməlidir. Axşam bu qidaları qəbul etmək olmaz.

Novruz günlərində bu şirniyyatlara mədəni, beyini şəkər və karbohihratla doyurub, normal xörəklərə istək qalmır. Bu isə xroniki xəstəliklərə yol açır.

2-5 yaş arası uşaqlara gündə cəmi yarım ədəd şəkərbura və paxlava bəs edir.

Həddən artıq şirniyyat və un məmulatı qəbul etmək, şəkər xəstələrini komaya sala bilər.

Bayram yeməkləri və şirniyyat bir arada yeyilməməlidir.

Yeməklər arasında 3-5 saat fasilə olmalıdır.

Axşama kimi adi su qəbulu artırılmalı, axşam qatıq yeyilməlidir. /medicina.az

# 2 ay axşam yatmazdan əvvəl bunu qəbul etsəniz, nələr baş verdiyini görəcəksiniz

***1 əncir qurusu və 1 qaysı 2 ay boyunca yatmazdan əvvəl qəbul edilərsə, orqanizmin toxumalarında yeniləşmə prosesi sürətlənir, onurğaarası disklərin arasındakı maddənin tərkibini sağlamlaşır.***



Onurğaarası maddənin sağlamlaşması onurğanın hərəkət fəaliyyətinə təsir edir və onun normal hərəkətini tənzimləyir. Bu zaman onurğada sürüşmələr və sıxılmalar baş vermir. Mütəxəssislər uzun müddət qaysı və əncir qurusu qəbul edən adamların oynaqlar və fəqərələrarası nahiyyə maddəsinin sağlamlaşmasının və fiziki yüklənmə zamanı həmin yerlərin zədələnmədən qorunduğunu qeyd edir.

Mütəxəssislər qaysının ürək əzələsinə də faydalı olduğunu söyləyirlər. Qaysının tərkibində olan fosfor, kalium, dəmir, karotin, vitamin B5 ürək əzələsini möhkəmləndirir. Əncirin isə qalxanvari vəzin fəaliyyətinin möhkəmlənməsində və xərçəng xəstəliyinin profilaktikasında köməyi oluduğunu qeyd edən mütəxəssislər bu iki meyvəni möcüzəli quru meyvə adlandırıblar.

Mütəxəssislərin dediklərinə görə əncir qurusu bağırsaqlarda olan parazitlərin də məhvinə səbəb ola bilir.

Əncirin quru gavalı ilə birgə qəbulu isə mədə-bağırsaq sistemi fəaliyyətini yaxşılaşdırır, qaraciyəri təmizləyir və bağırsaqların hərəkətini sürətləndirir. Mütəxəssislər tərkibində A vitamini olduğuna görə uzun müddət qara gavalı yeyən adamlarda görmə qabiliyyətinin yaxşı olduğunu sübüt ediblər.

# Azərbaycanlı iş adamından Mahir Emreliyə dəvət

***Azərbaycan millisinin və "Qarabağ"ın hücumçusu Mahir Emreliyə növbəti təklif gəlib.***

"Unikal" qəzeti xəbər verir ki, 23 yaşlı forvard "Ferensvaroş"un maraq dairəsinə düşüb.

Macarıstanın məşhur klubu ona dəvət göndərib.

Sergey Rebrovun baş məşqçisi olduğu komanda hazırda ölkə çempionatının aşkar lideridir. "Ferensvaroş" 26 tura 61 xal toplayıb və ən yaxın rəqibi olan "Puşkaş"ı 13 xal qabaqlayır.

2015-ci ildən "Qarabağ"ın formasını geyinən Mahirin müqaviləsi bu yay başa çatır. O, Ağdam təmsilçisinin razılaşmanı uzatmaqla bağlı son çağırışlarına hələ konkret cavab verməyib.

"Ferentsvaroş"un prezidenti əslən azərbaycanlı Qabor Qubadovdur. O, Naxçıvan bölgəsindəndir, ailəsi ötən əsrdə Macarıstana köçüb.



2006-cı ildən Macarıstan Milli Məclisinin deputatıdır. Atası azərbaycanlı, anası isə macar olan Qubadov orta təhsilini Peşterjebetdə alıb. 1990-cı illərdə müxtəlif sahələrdə sahibkar kimi çalışıb. 1997-ci ildə ailəsi ilə birlikdə Şorokşara köçüb.

Qubadov 2008-ci ildə keçirilmiş referendumda və 2009-cu il Macar Avropa Parlamenti seçimlərində fəal iştirak edib. 2006-cı ildən Macarıstan parlamentinin üzvü olan siyasətçi bu il Macarıstanın 10 ən görkəmli şəxsindən biri seçilib. Ailəlidir, Emma, Marsel və Oliviya adında 3 övladı var.

"Yaşıl-ağlar" Macarıstanın ən titullu klubu sayılır. Ləqəbi "yaşıl qartallar" olan komanda çempionluqlardan əlavə, 23 dəfə ölkə kubokunu qazanıb və 1974/1975 mövsümündə Avropa Kuboklar Kubokunun finalçısı olub. Həlledici görüşdə bu klub Kiyev "Dinamo"suna uduzub - 0:3.

1899-cu ildə yaranan "Ferentsvaroş" ev oyunlarını 22 min azarkeş tutumuna malik "Qroupama Arena"da keçirir. Stadion məhz 2011-ci il fevralın 15-də klub prezident seçilən Qubadovun dövründə - 2013-cü ildə tikilib. Paytaxt təmsilçisi 2006-cı ildə ölkənin ən yaxşı klubu seçilib.

# Maksim Medvedev Azərbaycan millisinin toplanışına qoşulacaq

***Martın 15-dən etibarən futbol üzrə Azərbaycan milli komandası Bakıda təlim-məşq toplanışındadır.***

"Unikal" qəzeti xəbər verir ki, "Qarabağ" klubunun futbolçusu Maksim Medvedev milli komandanın toplanışına qoşulacaq. Bu barədə AFFA-nın mətbuat xidməti məlumat yayıb.

Maksim daha əvvəl yığmanın baş məşqçisi Canni de Byaziyə müraciət edərək şəxsi məsələləri ilə əlaqədar toplanışa cəlb olunmamasını xahiş etmiş və italiyalı mütəxəssis də Medvedevin xahişini müsbət cavablandırmışdı.

Azərbaycan millisi DÇ-2022-nin seçmə mərhələsində martın 24-də İtaliyada Portuqaliya, 27-də Macarıstanda Qətərlə, 30-da isə Bakıda Serbiya ilə qarşılaşacaq.



# Ronaldo təkid etdi, Azərbaycan millisi ilə oyun Turinə salındı

***DÇ-2022-nin seçmə mərhələsi çərçivəsində keçiriləcək Portuqaliya - Azərbaycan matçının İtaliyada, Turində oynanılacağını xəbər vermişdik.***

"Unikal" qəzeti xəbər verir ki, oyunun "Yuventus"un stadionunda keçirilməsi Portuqaliya yığmasının hücumçusu Kriştiano Ronaldonun təşəbbüsü ilə olub. Bu barədə "Football İtalia" nəşri məlumat yayıb. Hazırda "Yuventus"da çıxış edən Ronaldo, milli ilə məşqlərini də klubun bazasında keçirəcək.



Azərbaycan yığması isə məşqlərini Vinovoda yerləşən "Yuventus"un bazasında keçirəcək. Burda adətən "qoca sinyora"nın gənclər və qadın futbolçulardan ibarət komandaları hazırlıq keçir.

Portuqaliya milli komandasının Azərbaycanla ev oyununu koronavirus pandemiyasına görə neytral meydanda keçirməsinə ehtiyac yaranmışdı. Portuqaliya - Azərbaycan matçı martın 24-də, "Yuventus" klubuna məxsus, Turindəki "Alyans Stadium"da keçiriləcək.

# Slovakiya - Azərbaycan matçının hakimləri açıqlandı



***Futzal üzrə Avropa çempionatının seçmə qrup mərhələsi çərçivəsində aprelin 8-də Levice şəhərindəki idman zalında keçiriləcək Slovakiya - Azərbaycan oyununun hakimləri müəyyənləşib.***

"Unikal" qəzeti xəbər verir ki, görüşü Finlandiyadan olan Kirill Nayşuller və Arttu Kyunyaryaynen idarə edəcək. Üçüncü hakim Martin Matula, timekeeper isə Miroslav Yezik olacaq. Hər iki hakim Slovakiyadandır. Qarşılaşmanın hakim-inspektoru funksiyasını Perri Qayter yerinə yetirəcək. Aprelin 8-də keçiriləcək Slovakiya - Azərbaycan matçı saat 18:00-da start götürəcək.

# Döyülməkdən qorxan futbol hakimi stadiondan qaçdı

***Futbol üzrə Bolqarıstan çempionatının 4-cü divizionunda X turun "Kostinbrod" - "Tornado" matçında maraqlı hadisə baş verib.***



"Unikal" qəzetin məlumatına görə, baş hakim Vasil Tsoklinov "Tornado"da çıxış edən Bolqarıstan millisinin keçmiş üzvü Kaloyan Karacinova, qərarına etiraz etdiyi üçün sarı vərəqə göstərib.

Qonaq komandanın kapitanı Georgi Georgiyev qarşıdurmaya müdaxilə edib və vərəqəni referidən almağa çalışıb. Daha sonra hər iki futbolçu baş hakimi yumruqla hədələyib və onu qovmağa başlayıb. Tsoklinov paytardəyişmə otağına qaçıb.

O, meydanın kənarına çatdıqda oyunu bitirmək üçün fit çalıb. Lakin o, paltardəyişmə otağında tapılacağını anlayaraq, stadion hüdudlarından kənara qaçıb.

# Çempionlar Liqasında həftənin ən yaxşısı adına namizədlər bilindi

***UEFA Çempionlar Liqasında 1/8 final mərhələsinin cavab oyunlarından sonra həftənin ən yaxşı futbolçusu adına namizədlər məlum olub.***

"Unikal" qəzeti qurumun saytına istinadən xəbər verir ki, ən yaxşı adına "Mançester Siti"dən Kevin De Bruyne, "Real"dan Luka Modriç, "Çelsi"dən Nqolo Kante və "Bavariya"dan Yozua Kimmix namizəd göstərilib.

Qalib, qitə futbol qurumunun rəsmi saytında azarkeşlər arasında keçirilən səsvermə nəticəsində müəyyənləşəcək.

# "Leo, bunu hər kəsin önündə dediyim üçün bağışla"- Laporta

***Barselona" klubunun yeni prezidenti Xuan Laporta açıqlama verib.***

"Unikal" qəzeti xarici mətbuata istinadən xəbər verir ki, Laporta, Lionel Messinin komandada qalmasını istədiyini deyib:

"Leonu komandada saxlamağa çalışacağıq və bunun üçün əlimizdən gələn hər şeyi edəcəyik. Leo, bunun hər kəsin önündə dediyim üçün bağışla. Səni nə qədər çox sevdiyimi və komandada qalmağını istədiyimi hər kəs bilir".

Messinin "Barselona" ilə müqaviləsi yaya qədərdir.

# Fiquya görə planetin 6 ən yaxşı futbolçusu

***Portuqaliya millisinin sabiq futbolçusu Luiş Fiqu dünyanın ən yaxşı 6 futbolçusunu müəyyənləşdirib.***

"Unikal" qəzetinin məlumatına görə, vaxtilə "Qızıl top" qazanmış ulduz ən yaxşı adı ilə bağlı baxışını açıqlayıb.

Futbol veteranının siyahısında hazırda karyerasını davam etdirən ulduzlar yer alıb. 6 müxtəlif ölkə təmsilçisinə üstünlük verən Fiqunun bəyəndiyi oyunçular 5 fərqli klubda oynayır. Yalnız PSJ-nin iki üzvü "altılıq"da yer alıb.

Kriştiano Ronaldo (Portuqaliya, "Yuventus")
Lionel Messi (Argentina, "Barselona")
Luka Modriç (Xorvatiya, "Real")
Killian Mbappe (Fransa, PSJ)
Məhəmməd Salah (Misir, "Liverpul")
Neymar (Braziliya, PSJ)

Qeyd edək ki, Fiqu karyerasını 2009-cu ildə başa vurub.

Səhifəni hazırladı: Aygün İlqarqızı